# *CAMAAT ARASINDA OLAN XURAFAT VƏ İNSANLARIN XURAFAT SAYDIQLARI HƏQİQƏTLƏR*

## *NƏBİYYİ-ƏKRƏMƏ (S) HƏDİYYƏ*

Həzrət Məhəmməd ibn Abdullah (s), həqiqət teşnələrini və səadət axtaranları Qiyamətədək sirab edir. Görəsən, müəllif elə bir səadətə nail olacaq ki, onun mübarək adı ilə zinətlənmiş bu ildə yazısını qəbul etsin?!

İki dünya ağası, sonuncu Nəbi ki, var,
Axırıncı olsa da, oldu ilkin iftixar.
Təkcə Onun üçündür doqquz fələk meracı,
Nəbilər, övliyalar olub Onun möhtacı.
Aləmlərə rəhmətdir vücudu, sözün düzü,
Onun məscidi oldu bil ki, bütün yer üzü.
Hər an bizdən yüz dua, yüz salam olsun Ona,
Salam Ali-Rəsula, həm salam əshabına.[1]

Əziz dostlar! Bu kitabı mütaliə etdikdən sonra aşağıdakı nəticiləri əldə edəcəyinizi təmənna edirik:

– İlahi peyğəmbərlərin, xüsusən həzrət Xatəmin (s) mühüm hədəflərindən biri də xurafatla, cəhalət və nadanlıqdan qaynaqlanan adət-ənənələrlə mübarizədir.

– İslam ən məntiqli ayindir. Heç bir dində onun kimi əql, elm və təfəkkürə qiymət verilməyib və ona sövq edilməyib.

– Xurafatın qəbul edilib yayılmasının əsl səbəbləri: cəhl, nadanlıq və yersiz təqlidlər.

---

[1] «Öyüdnamə», Əttar Nişapuri, səh: 48.

– Elm və biliyin inkişaf etməsinə baxmayaraq, xurafatın qəbul olunub yayılması heç də azalmayıb.
– Qərblilər və İİÖ (inkişaf etmiş ölkələr) xurafatçılıqda üçüncü dünya ölkələrindən öndədirlər.
– Bəzi insanlar özlərini şəffaf düşüncəli sayıb, savad və kamala malik olmaq bəhanəsi ilə bir çox həqiqəti rədd edirlər.
– Heç bir müsəlman (əqli və şəri) dəlil olmadan bir şeyi qəbul və ya rədd etməməlidir.
– Xurafatla tanışlıq, ondan çəkinmək və başqalarını də ondan çəkindirmək hər bir müsəlmanın vəzifəsidir.
– Xurafatın həqiqətlə fərqləndirilib ayırd edilməsinin meyar və ölçüsü, Quran, sünnət və ağıl ilə uyğunlaşdırmaq.
– Təkcə ağıl vasitəsi ilə bütün bilik və elmləri anlamaq olmaz. Ən böyük xurafatdan biri də, «İnsanın ağlı bütün şeyləri qavrayır və dərk edir» fikrini qəbul etməkdir.

## *BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM*

Bir gün böyük ustadlardan biri tələbələrə təbliğin keyfiyyət və əhəmiyyətini aydınlaşdırarkən dedi: «Ümumiyyətlə düz deyirlər ki, bütün bu informasiya vasitələri, mədəni hücum cihazlarının olduğu müasir dövrdə dini təlimlər camaata «faydalı», «müxtəsər», «müft» şəkildə təqdim olunmalıdır. Külli olaraq onun «müft» olması, bizim ixtiyarımızda deyil».

Böyük yazıçı, ustad Məhəmməd Rza Həkimi demişdir: «İki şey camaatın ixtiyarına pulsuz qoyulmalıdır: çörək və kitab».

Bu barədə ölkə və dövlətin məsuliyyətli və möhtərəm adamları düşünsünlər![2]

Onun faydalı və müxtəsər olması cəhətinə gəldikdə isə, camaatın elmi səviyyəsini nəzərə alaraq, onları ehtiyac duyulan qədər məlumatlandırmağı, yalnız bu sahə üzrə ixtisası olanlar üçün deyil, geniş kütləyə, xüsusən də hövsələsi az olan cavanlar üçün bu məlumatları mümkün qədər daha faydalı və daha müxtəsər şəkilə salmağı özümə vəzifə bildim. Bununla da dini və məzhəbi məlumatlar evlərə və ümumi məclislərə yol tapsın, camaat da onlardan xəbərdar olub, informasiya bazaları genişlənsin və təkmilləşsin.

Xatırlatmaq istəyirəm ki, xurafat və xurafat sayılan həqiqətləri sadalamaq bir-iki kitaba sığmaz. Onlar bütün dövrlərin cəmiyyətlərində fərqli olmuş, üstəlik də çoxalmışdır. Buna görə də, onlardan daha çox özünə şöhrət qazanmış və gündəlik həyatımızda müşahidə olunanlara toxunmaqla kifayətlənirəm.

Bu təhqiqin ərsəyə gəlməsində hər hansı şəkildə mənə köməyi çatan dostlara, xüsusən də göstəriş və köməklərindən çox-çox faydalandığım Məhəmməd Cəfəri, Didari Ərdəkani və Əbdül-Kərim Pakniya kimi böyük və əziz ustadlara dərin təşəkkürümü bildirməyi özümə vəzifə bilirəm. Nəzər və fikirlərinizi, yol

---

[2] Məhəmməd Rza Həkiminin «Çörək və kitab» kitabının 21-ci səhifəsində bu nəzəriyyə haqqında belə yazır: «Mən illərdir belə etiqaddayam ki, iki şey bütün cəmiyyətlərdə ödənişsiz olsun: çörək və kitab. Yəni camaatın cismani və ruhi durumunun və salamatlığının ümdə amili...» («Dəlile-ma» nəşriyyatı, 1384 (ş), 1-ci çap)

göstərən təkliflərinizi və sadiqanə tənqidlərinizi göz üstə qoyub bütün vücudum ilə qəbul edir və öncədən təşəkkürümü bildirirəm.

Sonda bu kiçik xidmətin, bu bəndədən qəbulunu, Məad və Qayıdış günüm üçün azuqə olacağını ümid edirəm.

**İlahi! Saleh və pak şəxslərin xatirinə aqibətimi şükür edənlərdən et!**

Seyid İsmayıl Şakir Ərdəkani
Qum, Ordubeheşt, 1385 (ş)

## *1-Cİ BÖLMƏ: CƏMİYYƏT ARASINDA XURAFAT*

## *XURAFATIN TƏRİFİ VƏ TARİXÇƏSİ*

Xurafat,[3] ağıla söykənməyən əsassız əqidə və fikirlərə deyilir. Düzlüyü, xeyir və şər olması barədə məlumatımız yoxdur. Onları, rahat şəkildə yayılıb özünə yer tapdığına görə qəbul etmişik. Bəzi lüğət kitablarında xurafatçılıq «batil kəlam», «bihudə», «qarışıq» və «əfsanə» anlamını daşıyan söz kimi mənalanmışdır. Bəzi dini kitablarda yazılmış mətnlərdə xurafat haqqında belə yazılır: «Xurafə və ya xurafat, əql, məntiq və həqiqət ilə uyğunlaşmayan əsassız etiqadlardan ibarətdir. Məsələn, 13 rəqəminin uğursuzluğuna, qara rəngin bədniyabətliyinə, çalağan quşunun naləsinin fəlakət gətirəcəyinə və sairə inam bəsləmək.»[4]

Xurafatın genişlənib yayılma tarixçəsi və qəbul olunması barədə olan məlumatları böyük filosof və təfsirçi ustad Əllamə Təbatəbainin (r) nəzərinə istinad

---

[3] Xurafat kəlməsi ərəbcə «xurafə» kəlməsinin cəmi olub, əslində, «yığılmış meyvə» mənasını daşıyır. Deyilənlərə görə, «xurafə» Üzrə qəbiləsinə mənsub bir kişinin adıdır. O, cinlərin əhvalından və sirlərindən xəbardar olub, onlardan gördüyü hər bir şeyi danışar, lakin heç kəs onun sözlərinə inanmazmış. Camaat onun sözlərini yalan sayaraq belə deyirdi: «هذَا حَديثٌ خُرافة و هى حديث مُستَملِحٌ كَذِيبٌ; Bu söz Xurafənin uydurduğu sözüdür, maraqlıdır, lakin yalandır!»

İbn Əsir yuxarıdakı dastanı dedikdən sonra eyni zamanda Rəsuli-əkrəmin (s) belə buyurduğunu nəql edir: «Xurafə macarasının həqiqəti var...» («Dairətul-maarife-təşəyyo», c: 7, səh: 107, bölmə: Xurafat)

[4] «Luğətnameye-Dehxuda», bölmə: Xurafat, «Dairətul-maarife-təşəyyo», c: 7, səh: 107, bölmə: Xurafat.

edirik. Məşhur təfsir kitabı olan «Əl-Mizan»-da yazır: «Bəşər, qədim əsrlərdən tutmuş bu günədək xurafata inanmışdır. Bəziləri xurafatpərəstiliyin şərqlilərin xüsusiyyətindən olduğunu güman edirlər. Əgər qərblilərin xurafatpərəstliyə olan hərisliyinin şərqlilərdən daha artıq olduğunu deməsək də, əslində, bu xüsusiyyət şərqlilərdə olduğu qədər qərblilərdə də vardır.

Alimlər xurafi adət-ənənələri yox etmək və onu insanların qəlbindən silmək üçün çarələr düşünmüş və düşünməkdə də davam edirlər. Avamların tənbeh olub qəflət yuxusundan ayılması üçün necə də incə hiylələrə əl atmışlar! Amma bu həkimlərin müalicəsi təsirsiz qalıb; insanlar hələ də xurafatdan ayrılmayıblar. Bunun səbəbi, bir tərəfdən insanların öz nəzərlərinə təqlid etmələri və onun təsirlərindən heç vaxt yaxa qurtarmamaları, digər tərəfdən də nəfsani hisslərdən, emosiyalardan kənarda qalmamalarıdır...»[5]

## *PEYĞƏMBƏRLƏR RUHLARIN HƏKİMLƏRİDİR*

Həkim Calinus həzrət İsa ibn Məryəmin (ə) hüzuruna göndərdiyi məktubda yazır:

من طبيب الأبدان إلى طبيب النّفوس

«Bədənlərin həkimindən ruhların həkiminə!»[6]

Bəli! İlahi peyğəmbərlər ruhların dini rəhbərləri, həkimləridirlər. Həkim Allah onları ayrı- ayrı şəxslər, həmçinin ictimaiyyətin ruhunun ağrı və xəstəliyinin

5 «Tərcumətul-Təfsirul-mizan», c: 1 səh: 638, 639.
6 «Meracus-səadə», səh: 43.

müalicəsi üçün göndərmiş, bu təhlükəli və ağır məsuliyyəti onların öhdəsinə qoymuşdur. Onların arasında peyğəmbərlərin sonuncusu, tamamlayıcısı, bir həkim və bəşəriyyətin xilaskarı kimi həzrət Məhəmmədin (s) məqamı daha ucadır. Onun həmişəyaşar möcüzəsi olan Qurani-kərim, bütün dövrlərdəki bütün cəmiyyətlərin xilası üçün yeganə nüsxə kimi tanınmışdır. Qurani-məcid, Nəbiyyi-mükərrəmin peyğəmbərliyə məbus olması barədə buyurur:

←➚•✍♦③◆❒ ✍☠←♑⬃☪♦⬉ ✍☠➔♎◆❸⇧🕘✍☽
•✍🕐■🖬⬂⇧☞🏵✍✂◆❒ ✍✍☹⅄✍✍✂
⇳💣♦☼🔔☒✍ ⬄ 🏳✍♑⬂⑩■🖬♦⬊

«**Peyğəmbər (s), onların belində olan ağır yükü götürmək və əl-ayaqlarına bağlanmış zəncirləri açmaq üçün məbus olundu.**»[7]

## *XURAFATIN ƏSİRLİK ZƏNCİRLƏRİ*

Bundan məqsəd, əsirləri bağlayan dəmir-polad zəncirlər deyil, ərəblərin bağlandıqları xurafi əqidə və batil etiqadlarıdır. Bu batil əqidələr, dərəcə etibarı ilə, dəmirdən hazırlanmış əsarət zəncirlərindən daha ziyanlı və yolxucu idi. Çünki dəmir zəncirlər bir gün, nəhayət açılıb qopacaq. Amma xurafi fikir və əqidələri aradan götürmək, batil etmək asan iş deyil. Hər kəs bu çətin işin öhdəsindən gələ bilməz. Buna görə də, Allah-Təala camaatı bu əsarət zəncirlərindən azad etmək üçün xüsusi bəndələrini peyğəmbər olaraq seçib. Onlar da

[7] «Əraf» surəsi, ayə: 157.

mükəmməl şəkildə öz vəzifələrini yerinə yetirib, həqiqi azadlığı bəşəriyyət üçün sovqat gətiriblər. Mövləvi, bu peyğəmbər və ilahi rəhbərlərin xidmətini və insanpərvər hərakatını belə qələmə alır:

Bir düşün, nə üçün Xətmi-ənbiya,
Özünə, Əliyə deyibdi «mövla»?!
Mövla o şəxsdir ki, unutma bir an,
Zənciri qırıbdır ayaqlarından.
Azadlıq çarçısı nəbilər ki, var,
Möminə azadlıq bəxş edər onlar.[8]

## *İSLAMIN YAYILMASINDA ƏN MÜHÜM AMİL*

Beləliklə də məlum oldu ki, ilahi elçilərin, xüsusən Rəsulallahın (s) peyğəmbərliyə məbus olmasında ən mühüm hədəf, cəmiyyətin fərdi-ictimai həyatında olan xurafi əqidələrin, cahil adət-ənənələrin aradan götürülməsidir.

İstər müsəlman, istərsə də qeyri-müsəlman elm adamları və böyük islamşünasların etiqadına görə, bu ilahi dinin misligörülməmiş şəkildə, təəccübdoğurucu və sürətli inkişaf və inteqrasiyasının əsas amili, onun xurafat, əfsanə və mövhumatla mübarizəsidir. İslamın kəramətli peyğəmbəri həzrət Məhəmməd (s) qılınc, zor gücü ilə qan töküb ölkələri fəth etməklə deyil, əql, məntiq və təfəkkür ilə meydana daxil olub özünün səmavi ayinini yaymaqla genişləndirdi. Müasir tarixçi ustad Ayətullah Subhani bu barədə yazır: «İslam Peyğəmbərinin (s) ən böyük iftixarlarından biri də

---

[8] «Məsnəvi Mənəvi», səh: 113, «İqbal» çapı.

budur ki, xurafat, mövhumat, əfsanə və xəyallarla mübarizə apararaq, bəşərin əql və düşüncəsini xurafatın toz və pasından yuyub təmizləyir. Rəsulallah (s) bu barədə belə buyurur: «Mən buna görə gəlmişəm ki, bəşər düşüncəsini gücləndirim, hər cür, hər rəngdə olan xurafatla – hətta o, hədəfimə kömək etsə belə – qətiyyətlə mübarizə aparım...»

O, uzun illər üzərində cahil fikirlərin, xurafi əqidələrin hökmranlıq etdiyi ərəb tayfalarının qarşısında belə deyirdi:

كل مـأثـرة فـى الـجاهلـيـة تـحت قـدمـى

«İslamın vücuda gəlməsi ilə bütün cahilyyət mərasimləri (əqidələr, mövhumatın iftixarına səbəb olan vasitələr) məhv və yox olub, ayağımın altında qaldı.»[9]

Qərbin müasir mütəfəkkirlərindən olan fransalı islamşünas professor Henri Kerbon deyir: «Əgər Məhəmmədin (s) fikirləri xurafi olub, Quranı ilahi vəhy olmasaydı, heç vaxt bəşəriyyəti elmə dəvət etməyə cürəti çatmazdı. Heç bir bəşər və düşüncə üsulu, Məhəmməd (s) və Quran qədər elmə dəvət etməyib. Halbuki, Quranda 950 dəfə elm və düşüncədən söz açılıb.»[10]

Mövləvi Peyğəmbərin (s) bu mübarizəsi və doğurduğu təsiri barədə belə yazır:

---

[9] «Fərazhaye əz tarixe-İslam, səh: 19-21.

[10] «Quran əz didqahe 114 daneşməndane-cahan».

«Ya Rəbb» desin deyə bütün ümmətlər,
Bütləri sındırdı böyük Peyğəmbər.
Gəlib yetməsəydi qəlbin hakimi,
Bütpərəst olardın əcdadın kimi.
Səni o ayırdı bütə səcdədən,
Ümmətlər üstündə haqqı var, bil sən.[11]

## *XURAFATLA MÜBARİZƏ DİN TƏBLİĞATÇILARININ VƏZİFƏSİDİR*

Mövhumat, xurafat və cahillik adət-ənənələrinin doğurduğu əqidələrlə mübarizə Rəsuli-əkrəmin (s) nəzərində o qədər əhəmiyyətli idi ki, Məaz ibn Cəbəli Yəmənə yolladığı zaman ona belə buyurdu:

و أمت امرالجاهلية إلاّ ما سنّة الاسلام و اظهرأمر الاسلام كلّه صغيرة و كبيرة

«(Ey Məaz!) Cahiliyyətin təsirlərini, xurafi fikir və əqidələri camaatın arasında yox et! İslamın (əql və düşüncəyə dəvətdən ibarət olan) kiçik və böyük əmrlərini ayağa qaldır!»[12]

Rəsulallah (s) özünün müqəddəs hədəfinə görə cahillik və xurafi alətlərdən istifadə etmədi. Xurafi və əfsanəpərəst ərəb, Günəşin tutulmasını onun oğlu İbrahimin ölümü ilə bağladıqları zaman Peyğəmbər (s) onlara qarşı çıxdı. İslam dininin xurafi və əfsanəvi yollarla inkişaf etməsinin qarşısını aldı. Onların avamlıq və nadanlığından sui-istifadə etmədi. Yəni İslam, xurafat, azdırıcı və qondarma göstərişlərlə deyil,

---

[11] «Məsnəvi Mənəvi», səh: 198, «İqbal» çapı.
[12] «Fərazhaye əz tarixe-İslam», Ayətullah Sübhani, səh: 21.

düşüncə və əql yolundan ibarət olan üslubu ilə təbliğ olunmalı, insanları dinsizlik və etimadsızlıqla nəticələnən cahillik və nadanlıqdan uzaqlaşdırmalıdır.

Haqq yolunu istəyirsən, doğru ol,
Doğru olsan, sənlədir bil, doğru yol.

Deməli, insanların Allah dinini kamil və dolğun qavramaları üçün din təbliğçisinin mühüm vəzifələrindən biri budur ki, xurafat və qondarma ayinlərlə mübarizə aparmaqla yanaşı, həqiqəti də xurafatdan ayırsın.

## *İSLAM ƏN MƏNTİQLİ DİNDİR*

Xurafatın yayılması, əqlin ziddinə olan mövhumatdan doğan məsələlərin qəbul olunması, bir dinin reallığını, böyüklüyünü və onun tərəfdarlarını sual altına aparan amillərdəndir.

Çağdaş dünyamızda din və ayinin böyüklüyü və reallığı, ictimaiyyət və xalq arasında daha çox fikir, hökm və mədəniyyətlərin əql və məntiqlə uyğunlaşması, mövhumat və uydurmalardan daha uzaq olması ilə səciyyələnir. Başqa sözlə desək, hal-hazırkı əsrdə dini təhqiqatçılar deyirlər: «Ən güclü din və ayin, xüsusən dinpərəstlərin etiqadları əql, fitrət və sağlam vicdana əsaslanmalıdır. Yəni haqq din o dindir ki, Allahı ən gözəl şəkildə tanıdır. Bəzən də tanrı, din və firqələri bu şərtlər əsasında ölçüb müqayisə edirlər.

Məgər, səmavi və qeyri-səmavi dinlər, müxtəlif məzhəblər arasında İslam, xüsusən də şiəlik saflığında olan İslam kimi daha məntiqli, ağıla söykənən din və

ayin tapılarmı?! Səmavi dinlərlə kifayətlənək; xristianlığın təslisini İslamın saf tövhidi ilə necə müqayisə etmək olar?!

Bu gün bəşərin əqli hansı Allahı daha çox qəbul edir?! Niyə həqiqi allahçılıq təkcə xristianlıqla tanıdılır?! Hansı sağlam düşüncə və vicdan inək, büt, su və atəşə sitayişi, boqvan[13] və şeytanpərəstliyi qəbul edər və ya başqa yalançı allahlara baş əyər?! Hansı din və məzhəbdə bizim Peyğəmbərimizin (s) 14 əsr bundan öncə buyurduğu həkimanə təlimlər var?!:

قـوام الـمرء عقـلـه، و لا ديـن لـمن لا عقـل لـه

«İnsanın canının mayası onun ağlıdır. Ağlı olmayanın dini də yoxdur!»[14]

Rəsul buyurdu: «kim ki, əhməqdir,
Düşmənimizdir, yolkəsən divdir.
Aqil olan kimsələrdir canımız,
Qoxusu, ruhu, bizim reyhanımız.»[15]

## *ŞƏHİD MÜTƏHHƏRİNİN BİR MÜQAYİSƏSİ*

İslamın başqa dinlərlə müqayisədə ən məntiqli və ağıla söykəndiyini və heç bir dinlə, xüsusən təhrif olunmuş xristianlıq ayini ilə müqayisə olunmamazlığını aydınlaşdırmaq üçün ustad Şəhid Mütəhhərinin həlledici və hidayətedici kəlamını önə çəkirik. O, deyir:

---

[13] Bu əqidəyə görə, özünə riyazətlər verən şəxslər allahların məzhərinə çevrilir, onun əlindən hər bir iş gəlir, hətta istəsə, göyü yerə endirər, yeri də göyə aparar. Bəzilərinin etiqadına görə, boqvan heç vaxt yatmır; əgər yatsa, dünya alt-üst olar... («Ərməğane-hind və pak», səh: 105)

[14] «Mizanul-hikmə», c: 8, səh: 3876, həd: 13366.

[15] «Məsnəvi Mənəvi», səh: 645, «İqbal» çapı.

«Biz, fövqəladə islami mətnin fövqəladə şəkildə əqli himayə etməsi ilə üzləşirik ki, dinlərin heç birində bu müşahidə olunmur!...

Siz İslamı xristianlıqla müqayisə edin; xristianlığın iman çərçivəsi, ona müdaxilə etmək üçün ağıla haqq vermir. «İnsanın inanmalılar haqqında düşünməyə haqqı yoxdur!» Ağıla, «nə üçün?», «necə?» sualları vermək icazəsi verilmir. Bir keşişin – insanların imanının qoruyucusunun vəzifəsi, düşüncə hücumlarının və əqli dəlillərin iman çərçivəsinə daxil olmasının qarşısını almaqdır. Xristianlığın əsas təlim üsulu da bundan ibarətdir...

İslamda isə məsələ bunun tamamilə əksinədir. İslam dininin üsulunda əqldən başqa heç bir şeyin ona dəxalət etməsinə haqqı yoxdur. İslamda və islami mənbələrdə ağıl haqqında fövqəladə yüksək sözlər söylənmişdir».

## *QƏRBDƏ İSLAMA OLAN MEYLİN MİQYASI*

İslamın bu xüsusiyyət və özəliyyi çox təsir və bərəkətlərə malikdir. Onlardan biri də, hal-hazırkı əsrdə bütün dünyada, xüsusən qərb ölkələrində, İslamın intiqrasiyasının genişlənməsi və qəbul olunmasıdır. Həzrət Məhəmmədin (s) ayinində əsas diqqəti özünə cəlb edən xüsusiyyət onun əqlə söykənməsi, cahilliklə mübarizəsi, elm, düşüncə, bilik və təfəkkürü müdafiə etməsidir. Bu gün bütün bu mədəniyyət və siyasətlər, hətta düşmənlərin təhqiqatçıları belə İslamın yayılmasının təəccüb doğuran miqyasını danmırlar. Məsələn, Amerika institutlar əlaqəsi ixtisası üzrə

professor ustad Mulana, Qumun Feyziyyə mədrəsəsində (isfənd, 1380 (ş)) dedi: «Amerikada 10 milyon müsəlman vardır. Mən 45 il bundan öncə Amerikaya varid olanda, Amerikada təkcə 1 məscid var idi. İndi isə 2000 məscid tikilib.»

Din üzrə təhqiqatçıların nəzərinə görə, əgər müsəlmanların çoxalma faizi dəyişməz (ş: 1382-ci il) qalarsa, 17 ildən sonra bu ölkənin neçə-neçə böyük şəhərlərindəki müsəlmanların sayı xristianların sayından çox olacaq.[16]

## *İSLAMLA NAMƏRDCƏSİNƏ MÜBARİZƏ*

Dinə iftira, yalan və böhtan atmaq yolu ilə düşmənlərin İslam və müsəlmanlarla amansız mübarizəsi, son zamanlarda müqəddəs şəxslərimizin təhqir olunması, məzhəbi məkanlara hücumlar, sputniklərin, saytların, antiislam telekanallarının və minlərlə başqa-başqa təbliğat kompaniyalarının işə düşməsi üçün külli miqdarda vəsait qoyulmasının səbəbinin haradan qaynaqlandığını düşünürsünüzmü?!

Onların zora və məntiqsiz üsullara əl atmaları bu səmavi, sonuncu və ən kamil dinin saf və misilsiz maarifi önündə əqli, məntiqli şəkildə müqavimət göstərə, mübahisə, münazirə və dialoq yolu ilə İslamı məhkum edə və onu həyat səhnəsindən çıxara bilmədiklərinə görə deyilmi?!

---

[16] «Amarha pərde bərmidarənd», səh: 242-243.

Təhqiqatçılar İslamın dünyada intiqrasiyası, xüsusən də mütəfəkkirlər müqəddəs dinimizin əqlə və elmə söykənməsi barədə müzakirə apardıqları zaman deyirlər:

- Nadir hallarda bir mütəfəkkiri görmək olar ki, əqli və elmi ehtiyacları təmin etmək üçün İslamı qoyub başqa bir dinə üz tutsun. Çünki İslam bu cəhətdən daha çox nöqsansızdır. Təkcə özünün elmi və əqli ehtiyaclarını təmin etdiyi üçün dinini dəyişib İslamı qəbul edən çox sayda mütəfəkkir tanıyırıq.

Düşmənlərin bu məsələyə necə reaksiya verəcəklərini düşünürsünüzmü?! Belə acı bir reallıqla (əlbəttə, onlar üçün) barışarlar, yoxsa qeyri-insani vasitələrə əl atarlar?! Cavabı hansıdır...?!

## *XURAFATÇILIĞIN ZƏRƏRLƏRİ*

İslamın dünyadakı vəziyyəti haqda verdiyimiz bu müxtəsər izahdan sonra əgər müsəlmanların və yayılmaqda olan bu misilsiz dinin tərəfdarları arasında xurafatçılıq, mövhumat və qondarma adət-ənənələr vüsət alsa, hansı qüdrət və izzətlə öz dinimizi müdafiə edib dünyaya car çəkəcəyik?! Onun əqidə, hökm və səmavi qanunlarını, ən məntiqli və elmi din olduğunu necə tanıdacağıq?!

Mövhumat və xurafatın yayılması getdikcə dinimizin mahiyyətini dəyişərək, onun saf həqiqətini bulandırır. Buna görədir ki, məzhəbdə olan xurafatı, təsir və dağıdıcılıq cəhətdən xurafatın ən xoşagəlməz növü adlandırırlar. Mövhumat və xurafi fikirlər, eləcə də

qondarma adət-ənənələr özünə dini don geyib bütün imanlı şəxslərin fikir və əməllərinə kölgə salır, zərərli təsirləri fərdin ictimai-sosial həyatında özünü göstərir. Bu xurafi əməllər zaman keçdikcə etiqad və məzhəbi ayin kimi formalaşır, dinin həqiqi mahiyyətini dəyişir. Xurafat və qondarma məsələlər çoxaldıqca, dinin əslində şəkk və tərəddüdə yol açır, insanların ona olan saf imanı zəifləyir.

## *XURAFAT VƏ ƏSASSIZ RƏVAYƏTLƏR ÜMMƏTİ MƏHVƏ APARIR*

Dinin adına istinad edilən xurafi və qondarma adət-ənənələrin yayılmasının mənfi təsirləri İslam ümmətini azdıra biləcək qədər böyükdür.

Rəsuli-əkrəm (s) İslamın zəifləməsi, müsəlmanların dağılması və yox olması amilləri haqqında buyurur:

هلاک امّتی فی ثلاث: فی العصبیة، و القدریّة و الرّوایة من غیر ثبت

«Ümmətimin həlakı üç şeydədir:

**1.** Təəssübkeşlik (tayfa-qəbilə təəssübkeşliyi);

**2.** Qədəriyyə məzhəbi (bunun nəticəsində əqidə dəyişib zülm və zillət qəbul edilir);

**3.** Əsassız və qeyri-mötəbər rəvayətlər.»[17]

Xurafat və qondarmaların qəbul olunması, bu rəvayətin üçüncü bölməsinin bariz nümunələrindən biri deyilmi?! Bəzilərinin inancına çevrilmiş bu qondarma adət-ənənələr İslamın həqiqi simasını dəyişib, onu dağınıq və süquta uğramış kimi göstərmirmi?! Bu

---

[17] «Tərcumətul-Mizanul-hikmə», c: 14, səh: 6667, həd: 21246.

azdırıcı və ağlasığmaz ayinlər dinin aydın və cazibəli simasını dəyişib, onun əhkam və əqidələrini bəzilərinin gözündə xurafi, nadan və qondarma edərək, orta əsrləri xatırlatmırmı?! Şair deyir:

Nə qədər özümüz olsaq viranə,
Hey abadlaşacaq yenə bütxanə.
Əgər dinimizi etsək pərişan,
Çoxalar küfrümüz, bil ki, o yandan.
Olmaz heç bir zaman eyib İslamda,
Varsa, tapılmışdır o, müsəlmanda.

Bünövrəsi təfəkkür və əql üzərində qoyulan, elm-əql ilə silahlanmış bir dinin belə xurafat və batil məsələlərlə necə göründüyünü və başqalarının, onun haqqında nə düşündüklərini Allah bilir!

Lətifsözlü bir şair, İslam üçün zərərli, dağıdıcı olan bu məsələləri peyğəmbərlərin sonuncusu həzrət Xatəmə (s) xitabən belə ərz edir:

Sənin o dinini bəzəklədilər,
Hey bəzəklədilər, düzəklədilər.
Ona geydirdilər ayrı bir donu,
Görsən, tanımazsan özün də onu.

## *QEYBƏT ƏSRİNDƏ İSLAMIN BAŞQALAŞMASI*

Təəccüblüsü budur ki, İmam Zaman (ə.c.) zühur edib İslamın saf həqiqətini, həzrət Xatəmin (s) ayinini aşkar və bəyan etdiyi zaman bir qrup adamlar deyəcəklər: «İmam Zamanın (ə.c.) bizi dəvət etdiyi din yeni və İslamdan fərqlidir!»

Qeybət əsrində təhrif, yozma, artırıb-azaltma, azdırıcı xurafatın dinləşdirlib ona əlavə olunması nəticəsində

bu fərqlilik yaranaraq, zaman keçdikcə müsəlmanların inancının bir hissəsinə çevrilmiş, nəticədə islami mətnlərə daxil olmuşdur. Məhəmməd ibn Əclan imam Sadiqin (ə) belə buyurduğunu rəvayət edir:

اذا قام القائم (علیه السلام) دَعَا الناس الی ا لسلام جدید، و هداهم الی امرقد دثر، فضل عنه الجمهور، و انما سمی القائم مهدیا لانه یهدی الی امر قد ضلوا عنه...

«Həzrət Qaim (ə) qiyam etdiyi zaman yenidən insanları İslama dəvət edəcək və onları köhnəlmiş, əksəriyyətinin uzaqlaşdığı itmişlərə yönəldəcək. Buna görə həzrət Qaimi (ə) «Məhdi» adlandırırlar ki, itmişlərə (xatırladıb ona) yönəldəcək.»[18]

Sanki Peyğəmbəri-əkrəm (s) «axirəz-zaman» adlandırılan bu qeybət əsrinin dəyişikliyinə işarə etmişdir: «Ümmətim üçün bir zaman gələcək ki, Quranın yazısından və İslamın adından başqa bir şey qalmayacaq, Quran və İslama ondan ən uzaq olanlar yiyələnəcəklər...»[19]

Müsəlmanlar, müsəlmanlar! Müsəlmanlıq, müsəlmanlıq!
Bu dinsizlərin əlindən peşmanlıq, peşmanlıq!
«Müsəlmanlıq» olub indi yalan adətlərin ismi,
Hanı, bəs hardadır; əfsus, müsəlmanlıq, müsəlmanlıq?!
Bu dinin Günəşi batdı, yetişdi dinsiz əyyamı,
Yox oldu dini-Səlmanı, necə oldu müsəlmanlıq?!

**Sənai Qəzvini**

---

[18] «Əl-İrşad fi mərifəti hucəcillah ələl-ibad», Şeyx Müfid, c: 2, səh: 524, rəvayət: 2.
[19] «Nəqşe-əimmə dər əhyaye-din», Əllamə Əskəri, c: 1, səh: 60.

Xurafi və qodarma məsələlərin təsiriləri bu gün-sabahla tamamlanmayıb, Vəliyyi-əsrin (ə.c.) zühurunadək davam edəcək, o Həzrət və İslam ümməti üçün problemlər yardacaq.

## *DİNDƏN KƏNARLAŞMAQ – XURAFATÇILIĞIN BAŞQA BİR ZƏRƏRİ*

Xurafatın, məntiqsiz və ağlın əleyhinə olan ayinlərin vüsət almasının başqa təsirlərindən biri də, camaatın dindən və onun maarifindən qaçmasıdır ki, bu da heç nə ilə bərpa olmayan böyük xəsarət və zərərdir. İnsanları dəstə-dəstə özünə çəkməli olan din, bəzən dindarları da təşvişə salıb özündən qaçırmışdır!

Dini maarif və əqidələr xəyallara, xurafi və su kimi axıcı, səthi dəlillərə söykənirsə, məlumdur ki, ondan qaçmaq lazımdır. Bunlara etiqad bəsləmək dinin zərəri ilə nəticələnəcək! Qurani-kərim mövhumatdan doğan dəlilsiz etiqadların müqabilndə qüdrətlə dayanır:

•✍➚⌘⇳⑨⧫③ ♊⬧♑ ☎✃❑➚♑☞⬧♓◆❑
⧫♌♓☒✍ ♊⧫♓ ⬧⬧◆ ⬧❑❑✡◻➚⬂♑☞✃
⬧①▫⬛⬧✍ ▤ ❽⧫❷⬧⬧⬧⧫☼ () ⬀❑❑🕮 ✃⬧⑩❑➔♎
⬀✍➔♓ ▤ ⬀☠→⑨❿⓿⬧☼☞⧫♓❑🕮
♌⬧⬧ ⬀☠→⧗◆☪⬧◻♎⬀❷⬅⬧ ☎✃❑➔✍☞◻♎
⬄⚐⬅☝☪→▤ ⬧▫✓⬧♓⬧⑨⬧⬧⬧

«**Dedilər: «Yəhudi, ya xristiandan başqa heç kəs Cənnətə getməyəcək!»** dedikləri zaman Quran buyurur: **«Bu, sizin arzularınızdır. Əgər (bu dediklərinizdə) haqlısınızsa, dəlillərinizi gətirin!**»[20]

---

[20] «Bəqərə» surəsi, ayə: 111.

Yəni insanları özünə cəzb etmək üçün dinin hökmləri, əqidələri sübut və dəlillərə söykənərək, doğru mənbələr əsasında təbliğ olunub yayılmalıdır. İxtisasçılar deyirlər: «Dindən uzaqlaşmanın səbəblərindən biri də budur ki, bəzi dindarlar onu ağlasığmaz şəkildə göstərirlər. Yaxud da dini və onun hədəflərini əqli və məntiqli şəkildə müdafiə edə bilmirlər. Bunun nəticəsində, bəzi adamlar dinə cəzb olmayıb bir sıra ağılsız məsələlər üzündən dindən qaçırlar.»[21]

## *QURANDA AĞILA ZİDD MƏTLƏB YOXDUR*

İslam əql və məntiq dinidir! Quran da bir kitabdır ki, onda ağıl ilə uyğunlaşmayan və zidd heç bir yazı yoxdur. Quranda olanlar, ya ağıla uyğundur, ya da ağılın fövqündədir. Əlbəttə, bu, təkcə İslam və Qurana aid deyil. Əgər başqa dinləri də uydurma və təhriflərdən təmizləyərək nəzərdən keçirsək, peyğəmbərlərin qeyri-əqli məlumat və ağıla zidd olan bir din gətirmədikləri nəticəsinə gələcəyik. Ustad Şəhid Mütəhhəri deyir: «Peyğəmbərlər öz sözlərini ilk növbədə ağıllara təbliğ etmək istəyirlər. Əgər xristianlığın «İmanın ağıl ilə əlaqəsi yoxdur!»-deyərək bunun əleyhinə qiyam etdiklərini görsək, bu hal, xristianlığın təhrif olması ilə bağlıdır. Həqiqətdə, həzrət İsa ibn Məryəm (ə) heç bir vaxt belə söz deməmişdir! O, nə təslisdən danışa, nə də təslisin heç bir ağılla

[21] «Əvamel və rişehaye-din qorizi», səh: 166.

uyğunlaşmadığını gördükdə, heç bir vəchlə, «İman məsələsi ağıldan ayrıdır!» deyilməsinə yol verə bilməzdi! Bu, xristianlığın təhrif olmasıdır. Heç bir peyğəmbər belə söz deməmişdir!»[22]

## *İNSANLARİN DİNDARLIĞINDA TƏBLİĞATÇILARIN ROLU*

İslam maarifi, dini göstəriş və ilahi əmrlərin bəyanı dinin ağıla zidd olmadığı şəkildə, elm və biliyin önündən qaçmadan, ağılsızcasına süst və düzgün olmayan dəlillərlə təqdim olunmamalıdır. Əks halda inciklik, dinə nifrət, din və dindarlığa ciddi zərərlərin dəyməsi ilə nəticələ bilər. Ustad Şəhid Mütəhhəri bəzi təhsil almış şəxslərin dini inkar etmələrinin, onların dindən incikliyinin bu nöqtə ilə əlaqəli oldugunu deyir: «Bu söz, çox düzgün bir sözdür; bəzi təhsilli şəxslərin dini inkar etmələri və ondan uzaqlaşmalarının səbəbi, məzhəbi və dini təlimlərin onlara düzgün olmayan tərzdə çatdırılmasıdır. Əslində, onların inkar etdikləri Allah və dinin həqiqəti deyil, başqa şeydir...»

Burada dinin təbliğinin əhəmiyyəti və İslam maarifinin necəliyi aydın olur, natiqlərin vəzifəsinin çox həssas olması, yazıçıların və din təbliğçilərinin təhlükəli rolu aşkarlanır. Rahatlıqla, axtarış aparmadan və şəxsi sinfi zövq və anlayışla İslamın adından danışıb, onun saf həqiqətini göstərmək olmaz! İslamın təbliğini Xomeyni, Şəhid Mütəhhəri, Şəhid Behişti və Əllamə

[22] «Seyri dər sireye-nəbəvi», səh: 189.

Təbatəbai kimi böyük alimlərdən, yaxud da imam Musa Sədr kimi alimlərdən öyrənilməlidir. Böyük bilik adamı, yazıçı Corc Cordaq onun haqqında yazır: «Əgər ruhanilər, İslamı Musa Sədr kimi anlatsaydılar, xristianlıq və başqa dinlərdən əsər qalmazdı.»[23]

## *XURAFATIN YARANMASI VƏ İNSANLARIN ONU QƏBUL ETMƏLƏRİNİN AMİLLƏRİ*

Xurafi və səhv adət-ənənələrin yaranıb qəbul olunmasında müxtəlif amillər rol oynayır. Burada onlardan bəzi nümunələrə işarə edirik:

### *1. CAHİLLİK VƏ NADANLIQ*

Təəccüblüdür ki, Allah-Təala ən böyük mövhumat və xurafi əqidələrdən biri olan bütpərəstliyin köklərinin cəhl və nadanlıq olduğunu bildirərək, bizi ibrət almağa dəvət etmişdir: Bəni-İsrail Fironun caynağından xilas olub dəryadan salamatlıqla keçdikdən sonra yol əsnasında bütpərəst olan bir cəmiyyətlə rastlaşdı. Bu səhnəni gördükdə, həzrət Musadan (ə), ibadət etmələri üçün bir büt tanıtmağı istədilər.

قالوا يا موسى اجعل لنا الها كما لهم آلهه
قال انكم قوم تجهلون

Həzrət Musa (ə) onların cavabında dedi: «Siz, cahil və nadan bir cəmiyyətsininiz!»

Yaxşı deyiblər:

Cəhldən ruhunu kim etsə kənar,
Nəğməsi, nübüvvət nəğməsi olar.

---

[23] «Neqahi be zendegiye-mubarezate-imam Musa Sədr», səh: 3.

Nadanlıq və cəhalət, xurafatın yayılıb genışlənməsində ən əsas və mühüm səbəblərdəndir. Onun keçmişdə və hal-hazırkı əsl kökünü bunda axtarmaq lazımdır. Əsl problem də budur ki, nadanlıq və cəhalətin dərmanı asan olmayıb, bəzən peyğəmbərləri aciz və çarəsiz etmişdir. Ondan böyük müşkül və xəstəlik varmı?!

### *CAHİLLİK SAĞALMAZ XƏSTƏLİKDİR*

Rəvayətdə deyilib ki, həzrət İsanı (ə) qaçan halda görürlər və soruşurlar:

– «Nədən qaçırsınız?

– Buyurur:

– «Cahildən!

– «Siz ki, öz ilahi nəfəsinizlə ölünü dirildib ona yenidən həyat bağışlayırsınız, amma cəhl və nadanlığına çarə edə bilmirsiniz?!

– «Yox! Ona çarə edə bilmirəm. Ondan xilas olmaq üçün qaçıram.

عالجت ا لاحمق فلم اقدر على اصلاحه

«Axmaq və nadana çarə tapmaq üçün çalışdım, amma onun dədrinə dərman tapa bilmədim.»[24]

Mövləvi, gözün korluğunu cəhalətlə müqayisələndirərək, bu dastana işarə edir:

---

[24] «Əl-İxtisas», Şeyx Müfid, səh: 221. Cüzi dəyişikliklə rəvayətin davamında axmağın sifətləri də bildirilib.

Allahın qəhridir axmaqlıq dərdi,
Amma korluq isə təkcə bəladır.
Bəlanın zəhməti rəhmə səbəbdir,
Axmaqlıq əzabı yara, yaradır!
Çox qanlar tökübdür axmağın sözü,
Qaç ondan, çün qaçıb İsanın özü.
Yavaş-yavaş hava suyu sovurar,
Axmaq da onun tək dini oğurlar.
Sənə «soyuq» verər, «isti»ni çalar,
Daşı mütəkkənin yerinə qoyar.
İsa qorxusundan qaçmadı ondan,
Qaçdı ki, sən ondan ibrət alasan.

## *2. KORKORANƏ VƏ ƏSASSIZ TƏQLİDLƏR*

Bəzən xurafat elə şəkildə yayılır ki, guya şəxs ona əməl etməsə günah etmiş olur. Sanki buna görə onu təhlükə və zərər gözləyir. Məsələn, bəzi yerlərdə qurbanlıq qanının təzə avtomobilə tökməyi təhlükəsizlik tədbiri sayırlar. Ona əməl etməyənləri isə hər an təhlükə təqib edəcək və onların mütləq avtomobil qəzası keçirəcəyini sanırlar!

Xalqı məhv eylədi öz təqlidləri,
Lənətləyək belə təqlidləri.
Sürüdən bir qoyun ayrılsa əgər,
Hamını azdırıb yoluna çəkər.

İslam dini və bizim səmavi kitabımız olan Quran, düşüncəsiz və nadan təqlidlə mübarizə aparır. Dəfələrlə bildirir ki, cəmiyyətin əksəriyyəti tərəfindən qəbul olunan bir əməl, onun doğrulugunu göstərən amil deyil.

Bəzən cəmiyyətin əksəriyyəti səhv yol tutur. Bizim də qoşulub onların arxasınca getməyimiz böyük səhvdir![25]

Şairin bu iki beytinə diqqət yetirin:

Düşmə xalqın arxasınca, olma bir eşşək, aman!
Çünki xalqdan təkcə eşşəklik gələr bil haman.
Bir inəkdən büt qoyub Allah sayar xalqın özü,
Amma Nuh peyğəmbəri rədd eyləyər, görməz gözü.

## *3. DÜŞÜNCƏ YERİNƏ HİSS*

Xurafatın qəbul olunma amillərindən biri də ağıl, məntiq və dəlillərə əsaslanan davranışın yerinə hiss və duyğunun keçməsidir.

Adətən, insanların əksəriyyəti özünün əqli və məntiqi ehtiyaclarını ödəmək arxasınca getmir. Buna görə də, onları hiss və duyğular yolu ilə ələ alaraq bir işə vadar etmək və ya çəkindirmək olar. Aristotel bunun həqiqətini etiraf edərək deyir: «Elmi və dəqiq (yəqin) dəlillər xalq kütləsi üçün faydasızdır. Onları əqli dəlillərlə qane etmək çətin məsələdir. Ən dəqiq və ən kəskin elmlərlə camaatı bir işə vadar etmək olmaz. Çünki yəqinə söykənən elm, dillərdə dolanan söz-söhbətdən (şüar) və hisslərdən deyil, ağıl və təfəkkürdən qaynaqlanır.»[26]

Məsələn, bir şəxsin mühüm bir problemi olarsa, xəstəlik, yaxud çətin bir iş irəli gələrsə, ona «Aşın qazanı ilə nəzəri uzaqlaşdır», ya «Neçə bağlama şamı filan

---

[25] Nümunə üçün baxın: «Zuxruf» surəsi, ayə: 21-21, «Əraf» surəsi, ayə: 70, 173 və «Hud» surəsi, ayə: 62, 84.

[26] «Əl-Xətabə», c: 1, səh: 95; «Benəql əz usul və məbadiye Suxənvəri», səh: 278.

qəbiristanlıqda yandır», yaxud «Filan qoca falçı arvadın yanına gedib falına baxdır» və s... deyərlər. Bu zaman duyğu və hisslər deyilənləri elə bir şəkidə göstərir ki, ağılla fikirləşmək üçün fürsət belə qalmır. Dinimiz dəlilsiz bir şeyi qəbul etməməyə, əqli və nəqli faktlar olmadan onun həyata keçirilməməsinə göstəriş verir. Bu məsələ təfərrüatı ilə sonrakı bölümlərdə izah olunacaq.

## *DAHA ÇOX KİMLƏR XURAFATI QƏBUL EDİRLƏR*

Görəsən, daha çox kimlər xurafatı qəbul edib ona əməl edirlər?! Hansı qrup adamlar xəstəliklə, problemlə qarşılaşanda daha çox və daha tez falçılara pənah aparırlar?! Çay, noxud və qəhvə falına etiqad bəsləmək, bədnəzərin qarşısını almaq üçün yumurtanı maşının təkəri altında, ya da insanların gözü önündə sındırmaq, əlin içinə baxmaq, kitab açmaq, evin böyüklərinin ölməsinə səbəb olmasın deyə, böyük şam və xurma ağaclarını evdə soymamaq və sair xurafati əməllər, görəsən, daha çox hansı fərdlər üçündür?! Bəxt, şans, xoşbəxtlik ulduzu, ayağı düşməmək və s. bunun kimi fikirləri qəbul etmək, kimlər tərəfindən irəli sürülür?! Bu şerləri kimlər qoşub ona etiqad bəsləyirər:

Hər kimin dönərsə iqbalı, baxtı,
Eşşəyə çevrilər mindiyi atı.
Su üçün səharaya yollansa əgər,
Bir damçı tapılmaz, gövhərə dönər.
Toy edib bəy olsa, o bəxtidönər,
Yel əsib toy günü çırağı sönər.

Burada yoxsul-varlı, elm-cəhl, sağlamlıq-xəstəlik, rahatlıq-çətinlik, həyatdan razılıq, yaxud da narazılıq

rol oynayırmı?! Bir az düşünsək, yuxarıda saydıqlarımızın oynadığı rolu inkar etmərik. Zərbi-məsəldə deyildiyi kimi, təcrübədən keçmişdir ki, «الغريق يتشبث بكل حشيش»; Suda boğulan, hər otun kökünə əl atar. Çox hallarda yoxsulluq, xəstəlik və həyatın problemləri düzgün olmayan etiqad, mövhumat və xurafatın qəbul olmasında güclü amillərdən olmuşdur. Lakin bunları əsas səbəb götürmək olmaz. Məsələnin kökünü başqa yerdə və başqa amillərdə axtarmaq lazımdır.

İndiyədək bəşəriyyətin rəhbər və yol göstərənlərini, – o qədər çətinlik və bəlalarla üzləşdiklərinə baxmayaraq – «bəxt», «şans», «bəxtigətirmə» və s barədə danışan görmüsünüz?! Özlərinin və cəmiyyətlərinin talelərini fələk və qəza-qədərlə bağlamışlar?!

Burada Nəbiyullahın (s) elm qapısı həzrət Əlinin (ə) həkimanə və yolgöstərici bir kəlamına işarə edirik:

اذا قويت نفس الانسان انقطع إلى الراى، و اذا ضعفت انقطع إلى البخت

«İnsanın ruhu (iradəsi) güclənəndə ağıl və düşüncəyə, zəifləyəndə isə bəxt və şansa arxalanır.»[27]

Bəli! Xurafatın qəbul olunub-olunmamasının ən mühüm amili, insanın ruhununu – iradəsinin güclü və ya zəif olması ilə bağlıdır. Buna görə də, cadugərlər, ovsunçular və ruhu ehzar[28] edənlər əvvəlcə onlara müraciət edənləri ölçüb, iradələrinin nə dərəcədə möhkəm və ya zəif olduğunu götür-qoy edirlər.

[27] «Şərhi-Nəhcul-bəlağə», İbn Əbil-Hədid, c: 20, səh: 169.

[28] Ruhları çağırmaq

Müştərinin güclü ruh və iradə sahibi olduğunu gördükdə, hər hansı bəhanə ilə (vaxtın azlığı, zamanın və məkanın münasib olmaması kimi və s.) onun işinin yükünü çiyinlərindən atıb, üzrlü olduqlarını bildirirlər.

Sözün qısası budur ki, fərd, yaxud cəmiyyətin nə qədər ağıl, düşüncə məntiq, təcrübə və dəlil əhli olması, onların təkamülünün hansı səviyyədə olduğunu bildirir. Nəticədə, onların arasında xurafatın qəbul olunub yayılması azalır və ya çətinləşir.

## *XURAFATDA PSİXOLOJİ SƏBƏBLƏR*

Psixoloqlar xurafatın qəbul olunmasının psixoloji amilləri haqqında deyirlər: «Bəzən adamlar həyatın keşməkeşində özlərinə qarşı itirdikləri inamı rəmmallara, taleyəbaxanlara, müxtəlif sehr və cadulara əl atmaqla yenidən bərpa etmək istəyirlər. Çalışıb zəhmət çəkmədən inam tapmaq, iztirablarını azaltmaq, uduzduqlarını əldə etmək və möcüzəvi müvəffəqiyyətə çatmaq istəyirlər. Lakin onun acı nəticələrindən xəbərsizdirlər. Fərdlər arasında konfliktin yaranması, əlin işdən soyuması, iradəsizlik, özünə inamsızlıq, mövhumatdan doğan intizar və ümid, hətta iqtisadi zərərlər də bu qəbildəndir.»[29]

Psixologiya ilə tanışlıq barəsində mütaliələr göstərir ki, gələcəyə ümidin olmadığı ən həlledici anlarda, adamların qorxu və qaranlıq hiss etdikləri vaxt xurafatın qəbul edilib yayılması üçün zəmin yaranır.

[29] «Mahnameye-peyame-zən», № 146, səh: 96.

Yəni nadanlıq (cəhl) və qorxu, xurafatın qəbul olunması üçün iki güclü hərəkətverici amillərdir.

## *ƏRƏB CAHİLİYYƏTİ DÖVRÜNDƏ XURAFAT*

Bəşəriyyətin inkişafında, onun cahillik və xurafatdan xilas olmasında İslamın oynadığı rolun daha da aydın olması üçün İslamdan öncə olan xurafi və cahil əqidələrdən qısa nümunələrə işarə edirik.

– Ərəb cahilliyyəti dövründə səfərə çıxan şəxsin arxaya baxmağa haqqı yox idi. Əks təqdirdə, onun üçün problemlər yaranacaqdı.

– Uşağa qalmayan qadın əgər ölmüş kişinin cəsədinə yeddi dəfə ayaq qoysaydı, artıq onun uşağının ölməyəcəyinə etiqadlı idilər.

– Ərəbin böyükləri özləri ölməmişdən öncə bir dəvəni öz qəbirlərinin kənarında dəhşətli şəkildə öldürüb basdırardılar ki, Qiyamət günü piyada qalmasınlar.

– Əgər səfərdə olanın qayıtmağını istəməsəydilər, onun üçün ocaq yandırardılar.

– Arzulamadıqları qonağı yola salmağı sevmədikləri üçün xəlvətcə onun arxasına kasa qoyardılar ki, bir daha qayıtmasın.

– Cahiliyyət dövründə yaşayan ərəblər getdikləri yerdə qorxu ilə üzləşsəydilər, yüz dəfə eşşək kimi səs çıxarar və ya tülkü sümüyünü bədənlərindən asardılar.

- Əgər bir şəxs çöllükdə (yolu azıb) itsəydi, divləri qorxutmaq üçün öz köynəyini çevirib tərsinə geyərdi.

- Dəvələrinin sayı yüzə çatsaydı, həsəd aparananın bədnəzərinin qarşısını almaq üçün erkək dəvənin bir gözünü çıxarıb kor edərdilər.
- Dişi inəklər su içməyəndə, buynuzlarının arasında olan cinlər uzaqlaşsın deyə, erkək inəklərin üz-gözünə vurardılar.
- Əgər uşaqlarının dişi düşsəydi, onu iki barmaqla səmaya atıb deyərdilər: «Günəş! Ondan yaxşı diş ver!»
- Yağış yağmasaydı, cahil ərəblər tez alışan çubuqları götürüb inəyin quyruğuna bağlayıb, yandırardılar. Yazıq inək də böyürər, aşağı-yuxarı atılardı. Onlar da bunu göyün gurlaması əlaməti sayıb, yağışın yağacağını güman edərdilər.
- Quş uçan zaman onun hərəkləri ilə fala baxardılar. Əgər quş sağ tərəfə uçsaydı uğur rəmzi, sola uçsaydı uğursuzluq sayıb, uduzmaq əlaməti hesab edərdilər.

Qız uşaqlarının diri-diri qəbrə basdırılması, arvadların dəyişdirilməsi, məntiqsiz və ifrat həddində olan şəhvətdən doğan evliliklər və s. adətləri də yuxarıdakı nümunələrə əlavə etmək olar.[30]

## *ELM VƏ İNKİŞAF ƏSRİNDƏ XURAFAT*

Nadanlıq və cəhalət gecə-gündüzmü, xüsusi zaman-məkanmı tanıyır?! Bu gün də – elm, bilik və inkişaf dövründə xurafat və nadanlıq müsibəti bəşəriyyətdən əl

---

[30] İslamdan öncə cahiliyyət dövründə olan xurafatlarla tanışlıq üçün bu mənbələrə müraciət edə bilərsiniz: «Şərhi-Nəhcul-bəlağə», İbni Hədid, c. 19; «Tarixe-təhqiqiye-İslam, c: 1; «Fərazhaye əz tarixi-İslam və furuğe-əbədiyyət», c: 1; «Xorşide-İslam çequne derəxşid», c:1; «Kitabe-cahiliyyət və İslam»; «Təfsirül-mizan», c: 2.

çəkmir. Mövhumatdan doğan əsassız əqidələr bu məğrur bəşərin əllərini bağlayır, atom kəşfini, kosmik nailiyyətini kölgələyərək orta əsrləri, bəzən də cahiliyyət əsrini xatırladır. Əgər buna inanmırsınızsa, bu gün cəmiyyətin qəbul etdiyi xurafata baxıb, yaxşı-yaxşı düşünün və özünüz qərara gəlin!

İnformasiyanın bəzən bizə çatdırdığı müxtəlif ölkə və millətlərin bir sıra xurafi əqidələrini görəndə, insan təəccüblənməyə bilmir. Öz-özünə: «Bunlar, heç də cahiliyyət dövründə olan əqidələrdən geri qalmır!»- deyir.[31]

Görəsən, xurafat, elmi tərəqqinin olduğu vəziyyətlə yanaşı necə və niyə yayılır?! Dünyanı xurafatdan nə uzaqlaşdıra bilər?! Elm-bilik, mal-dövlət, yoxsa sənət?! Bəs niyə uzaqlaşdırmır?! Niyə qərbin bilik adamlarının elm və texnikanın, bəşəriyyətin səadətini təmin etməsinə sadəlövhcəsinə olan inamı, hal-hazırda tükənməkdədir. Buna görə də, sırf maddi inkişafın

[31] «Cumhuriye-İslami» qəzeti, çərşənbə axşamı, 28 fərvərdin, 1385-ci il; Taylandın baş naziri öz çıxışında bildirib ki, keçirilən «su səpmək» və ya «sunk-karan» adlı ənənəvi bayramda indiyədək 441 nəfər ölüb, 5503 nəfərdən artıq şəxs isə yaralanıb. Bu həftə 554 yol hadisəsi qeydə alınıb. Onlardan təkcə biri maşının sürətlə idarə olunması səbəbi ilə baş vermiş, qalanı isə bayramla əlaqəlidir. Taylandlılar, öz ənənəvi bayramlarında müxtəlif vasitələrlə biri-birlərinə su atırlar ki, bu da onların bəzən ölməsi və yaralanması ilə nəticələnir.

Bir ovuc bir anbarın nümunəsidir. Televizor yayınlarında da inək oyunu, öküz minmək, portağal oyunu və s. bayramlarda belə miqyasların verilməsinin özünüz şahidi olmusunuz. Bunların hamısı korkoranə təqlid və ənənəvi bağlılıqlardan qaynaqlanır.

insanın problemlərini həll etməməsi həqiqətini dərk etməkdən başqa çarə qalmır...

Təqribən bütün dünyada indiyidək qəbul olunan ən şirin yalan da elə budur: elm həqiqətə tərəf gedən yeganə yoldur.»[32]

## *İMAM ZAMANIN (Ə) DÖVRÜNDƏ CAHİLİYYƏT*

Sanki cəhl və nadanlıq belə tezliklə bəşərdən əl çəkən deyil, zühura və Sur çalınanadək inkişaf edib bəşəriyyəti azğınlığa və puçluğa sürükləyəcək.

Yaranmış həşrədək belə olacaq,
Şor su şor, şirin su şirin qalacaq.

Təəccüblüsü budur ki, dünyanın yeganə xilaskarı üçün (bütün dünya əhli Ona fəda olsun və Allah, gəlişini yaxınlaşdırsın) atom bombası və hərbi silahlardan çox, insanların nadanlıq və cəhalətinin problem yaratdığını deyirlər!

Fəzl ibn Yəsar deyir: «İmam Sadiqin (ə) belə buyurduğunu eşitdim:

ان قائمنا اذا قام استقبل من جهل الناس اشد مما استقبله رسول الله (ص) من جهال الجاهية

«Bizim Qaimimizin (ə.c) zühur etdikdə, axirəz-zaman camaatının cəhlindən görəcəyi azar-əziyyətləri, Rəsulallahın (s) İslamdan qabaq gördüyü ərəblərin cahiliyyətindən daha çətin olacaq.»

İmamdan soruşdum: «Bu necə olur?!» Həzrət (ə) buyurdu: «Peyğəmbər (s) yonulmuş daş, qaya, çubuq və taxtaya pərəstiş edən camaatın arasına gəldi. Amma

---

[32] «Əsre-imam Xomeyni», səh: 151.

bizim Qaimimiz qiyam edəndə, camaatın hamısı onun üçün Allahın Kitabından dəlil gətirəcək, Quran ayələrini təfsir edib yozacaqlar.»[33]

Baxın! Səhv başa düşmək, əyri anlamaq və cahillərin saf İslam dinini xoşagəlməz tərzdə öyrətmələri işi hara aparıb çıxarır. Məsum İmamın kənarında, Quran ayələrinə ehtiyaclı olduqları halda, öz anladıqlarını düzgün sayırlar!!

## *HİNDİSTAN – QƏRİBƏLİKLƏR DİYARI*

«Cövşən-kəbir» duasında oxuyuruq:

يا من فى البحار عجائبه

«Ey o Allah ki, yaratdığı qəribəliklər dəryalardadır.»

Ustadlardan biri deyirdi: «Dəryaların dibinə getməmişəm, amma Hindistana səfər etmişəm. Orada tayfaların qəribəliklərini görəndə dedim:

يا من فى الهند عجا ئبه

«Ey o şəxs ki, qəribəlikləri Hindistandadır.»

Biz də Hindistanın müxtəlif tayfa və firqələrinin əqidələri, adət-ənənələri haqqında olan kitabları mütaliə etdikdən sonra dedik:

يا من فى الهند خرافاته

«Ey o şəxs ki, xurafatı Hidistandadır.»

Əgər inanmasanız, dəryanın bir nümunəsi sayılan bu kitabları nəzərdən keçirin: «Bərrəsiye əqayid və ədyan», səh: 26; «Ərməğane-hind və pak», Ayətullah Ləngərudi, səh: 106-111.

---

33 «Qeybəte-Nomani», səh: 413, bab: 18, həd: 1. Bu məzmunda əlavə olaraq bir neçə rəvayət nəql olunmuşdur.

Hindistanda bəzi şəxslər supərəstdirlər. Sübh tezdən sahilə və ya su arxının yanına gedir, Günəş doğan zaman bir az su götürüb dörd tərəflərinə səpirlər. Bu iş onlar üçün bir növ ibadətdir. Suyun azalmasını, suyun (yəni allahın), onlardan küsməsi kimi qəbul edirlər. Onun diqqətini çəkmək üçün gözəl bir qızı gəlin kimi bəzəyib cah-cəlalla dərya kənarına aparırlar. Sonra su incikliyi kənara qoyub onlarla barışsın deyə, onu suya atırlar.

Hindistanda insanın tənasül üzvlərinə pərəstiş edən bir tayfa var. Onlar öz ibadətgahlarında qadın və kişinin tənasül üzvülərinin təsvir olunduğu heykəllərə pərəstiş edirlər.

Hindistanda bəzilərinin 33 milyard allahı var. Onlardan «Bunu necə sayırsınız?»-deyə soruşduqda, cavabında deyirlər: «Onları saya bildiyiniz gün, dünyanın axırıdır!»

## *İNƏKPƏRƏSTLƏRİN GÜLÜNC ƏQİDƏLƏRİ*

İnəkpərəstlər, bütün heyvanların inəkdən törədiyini iddia edirlər. Onlar təbərrük məqsədilə inəyin sidiyini üz-gözlərinə, fəzləsini isə evlərinin divarlarına sürtürlər.

Əgər iki-üç inək maşın yolunda oturub yatsa və yolu bağlasa, sürücülərin maşından düşüb onları kənarlaşdırması qeyri-mümkündür. Heç bir maşının siqnal vurmağa haqqı yoxdur. Nəticədə, təəccübləndirici tıxac yaranır.

Bəzən yeyinti çatışmazlığı ucbatından minlərlə şəxs acından ölür. Halbuki, minlərlə kilo inək əti

mənasızcasına zay olur. Heç kəsin inək kəsməyə cəsarəti olmaz!

İnəyin dəfni, bir siyasi şəxsin dəfn mərasimi kimi yerinə yetirilir. Bol-bol dua oxuyub, göz yaşı tökürlər. İnəklə birlikdə bir miqdar nargil də basdırırlar ki, onun azuqəsi olsun, ac qalmasın! Hələ də bu mərasim öz qüvvəsində qalmaqdadır.

## *ÇİNLİLƏRƏ GÖRƏ AYIN DÖRDÜNCÜ GÜNÜNDƏ ÖLÜM HADİSƏLƏRİ*

«Wörd-nyus» informasiya agentliyinin verdiyi xəbərə görə, xurafi əqidələrdən biri də, Çində camaatın 4 rəqəmini nəhs saymasıdır. Amerika San Diyaqo institunun Çin üzrə cəmiyyətşünası, Amerikada məskunlaşan çinlilər və yaponlar arasında təhqiqat aparıb. Bu təhqiqata əsasən, başqa günlərə nisbətən, hər miladi ayın dörüncü günü onlar arasında ürək tutmaları daha çox olur. Bu ölüm hadisələri, (nəhs saydıqları) o günün qorxusundan və (onun təsiri ilə baş verən) ruhi sıxıntı və sarsıntılardan irəli gəlir. Təhqiqatçı, Amerikada 25 il ərzində 47 milyon çinlinin ölümünün ayın dördüncü gününə təsadüf etdiyini məlumat vermiş, bu məlumatı «Medical english» adlı jurnalda dərc etdirmişdir. Bunu araşdıran Cimi Rapsporq deyir: «Bu hesablamalar bir neçə riyaziyyatçı tərəfindən aparılmış və məlum olmuşdur ki, hər ayın dördüncü günü Amerikada yaşayan çinlilərin arasında ürək tutmaları nəticəsində olan ölüm hadisələri, başqa günlərə nisbətən 13% çoxdur. O, bunu da əlavə edir ki,

dörd ədədinin çin dilində «**si**» və yapon dilində də «**shi**» kimi tələffüz olunur ki, bu da hər iki dildə «ölüm» kəlməsinə oxşar məna daşıyır. Onlar 4 rəqəminin nəhs olduğuna o qədər etiqadlıdırlar ki, öz ölkələrində otaqlarda, otellərdə, xəstəxanalarda say kimi 4 ədədidən istifadə etmirlər. Hətta Çinin hərbi hava qüvvələrində, bu xurafi əqidəyə görə, hərbi təyyarələrdə belə 4 ədədindən say kimi istifadə etməkdən çəkinirlər.[34]

## *XURAFATÇILIQ QƏRBLİLƏRDƏ DAHA ÇOXDUR*

Elə düşünməyin ki, bu xurafat və mövhumat, təkcə şərqlilərə mənsub olub Hind qitəsi kimi üçüncü dünya ölkələrinə aiddir. London və Parisin cah-cəlallı küçə və yollarında rəmmallar, falçılar, xüsusən noxud falında «ixtsasçı» qadınlar pul qazanmaqla məşğuldurlar. Onların yaxşı müştəriləri də var.[35]

Son hesablamalara görə, amerikalıların yarısı xurafata uyan şəxslərdir. Etiqadlarına görə, əgər siz dostları ilə körpüdə xudafizləşərlərsə, artıq onları heç vaxt görə bilməzlər. Astroidi gördükləri zaman yubanmadan bir şey arzulayırlar ki, bütün arzuları həyata keçsin.

Fransalılar şiddətli şəkildə taleyəbaxmağa etiqad bəsləyirlər. İnternet vasitəsi ilə o gün haqqında verilmiş proqnozuna baxmasalar, yerlərindən heç bir yana

---

[34] «Məcəlleye-mobəlləğan», № 75, səh: 154-155.

[35] Təkcə İtaliyada cadugərlər, rəmmallar və falçıların hər il 5 milyard yevroya yaxın gəlirləri olduğu bildirilmişdir. «Miqyaslar pərdəni açır», səh: 226; «Ufuqe-hovze», № 26, səh: 6, 26.03.83 (ş).

tərpənməzlər. Səhər yeməyi zamanı qəzetin birinci səhifəsində oxuduqları, gündəlik tale proqnozlarıdır.[36]

Dünyanın sənət və maddi inkişaf qütblərində Avropanın parlayan kilsələri arasında da cahil adət-ənənələr, fikirlər, mövhumatdan doğan əqidələr hay-haray salır!

Necə düşünürsünüz, görəsən, təslisi[37] qəbul etmək, təmid qüslü, günah və tövbənaməni alıb-satmaq orta əsrlərin düşüncə tərzinə daha yaxındır, yoxsa bütpərəstlik və şeytanı Allah qəbul etməyəmi?!

İncil kitabına əl uzadıb mənəvi əxlaqsızlığı ilahi peyğəmbərlərin (ə) adına yazmaq, keşişə günahların bağışlnması üçün pul vermək, qırx günlük orucu dəyişərək iki günlüyə çevirmək, həzrət İsanın (ə) ət-qanını yemək üçün təşkil olmuş uydurma mərasimdə[38] iştirak etmək daha çox gülüncdür, yoxsa supərəstlik və inəyi Allah qəbul etmək?![39]

---

[36] «Məcəlleye-mobəlleğan», № 75, səh: 154.

[37] Üçallahlılığı qəbul etmək və ona etiqad bəsləməyə deyilir; Ata (Allah), oğul (İsa) və ruhul-qüds (Cəbrayıl).

[38] İşa rəbbani, xristianların ən tanınmış mərasimlərindəndir. İncili yazanlardan bəzilərinin etiqadına görə, İsa (ə) həvarilərə yediyi ən axırıncı şam yeməyində çörəyi götürdü, ona bərəkət verdi və kəsib dedi: «Yeyin! Bu, mənim bədənimdir.» Sonra bir qədəh şərabı götürüb şükür etdi, onlara verdi və dedi: «İçin! Bu, mənim qanımdır ki, günahların bağışlanması üçün töküləcək.»

Xristianlar xüsusi məclislərdə keşişin onlara verdiyi, kilsə rəhbərlərinin öz duaları ilə onları İsanın (ə) ət və qanına çevirdiyi çörək və şərabı yeyib-içirlər. Bu mərasimin adı «İşa rəbbanidir» ki, onun rədd olunması hər bir ağıllı, insaflı adam üçün aşkardır (Ayətullah Ustadinin «Müqəddəmeyi bər meləl və nəhl» kitabından götürmələr, səh: 96).

[39] Yeni müsəlman olmuş amerikalı institut müəllimi professor Leqnhauzen özünün müsəlman olması barədə deyir: «Görürdüm ki, xristianlığın sözləri

Buna görə də, Əllamə Təbatəbai (r) kimi böyük şəxslər, qərblilərin xurafatına öz nəzərlərini belə bildirirlər: Bəzi insanlar xurafatı şərqlilərin xüsusiyyətlərindən olduğunu güman edirlər. Əgər qərblilərin xurafata hərisliklərinin daha çox olduğunu deməsək, əslində xurafat nə qədər şərqlilərə mənsubdursa, bir o qədər də qərblilərə mənsubdur...»[40].

### *AVROPA ÖLKƏLƏRİNDƏ «NƏHS 13» DASTANI*

Ustad şəhid Mütəhhəri qərblilərin xurafatı barəsində deyir: «Biz əvvələr elə düşünürdük ki, bu məsələ (13 ədədinin nəhsliyi) bizim millət və ya millətlərə aiddir. Sonradan isə bizə xəbər çatdı ki, necə deyərlər, inkişaf etmiş ölkələr – Avropa və Amerika bizdən yüz dəfə artıq bu ədədə hücum etmişlər...»[41]

Ustadın nəzərinin daha da aydın olması üçün iki fakta müraciət edək:

Sülh Nobel mükafatçısı doktor Luter Kinq (1962-ci il) özünün «Qara nida» adlı tanınmış kitabında belə yazır: «Mən Nyu Yorkun böyük bir otelinin liftində 13-cü mərtəbənin olmadığını başa düşdüm; 12-ci mərtəbədən sonra 14-cü mərtəbə yerləşirdi. Bu barədə liftin

---

ağılla uyğunlaşmır... Hamıdan əhəmiyyətlisi budur ki, müsəlmanların Allah haqqında anlayışları mənim üçün maraqlı idi. Elə bunun üçün keçmiş etiqadımdan əl çəkdim. O etiqadlardan əl çəkəndə başa düşdüm ki, öncə necə xurafatlara bağlı olmuşam («Əsre-imam Xomeyni», səh: 140-141).

[40] «Tərcumətul-Təfsirul-mizan», c: 1, səh: 638

[41] «Panzdəh qoftar», səh: 162. 13 ədədinin nəshliyi barəsində məlumat almaq istəyənlər bu kitaba müraciət etsinlər.

işçisindən soruşdum. O, cavab verdi: «Bu üsul və adətə, bu şəhərrin əksər otellərində riayət olunur. Çünki çoxları on üçüncü mərtəbədə qalmaqdan vəhşət edirlər. Hətta bəzi müsafirlər, 14-cü mərtəbənin 13-cü ilə dəyişdirildiyi üçün, 14-cü mərtəbədə yerləşməkdən də çəkinirlər.»

Aydındır ki, belə əsassız qorxular deyilən yolçular kimi zəif ruhlu şəxsləri gündüz vaxtı vəhşətə salırsa, təbiidir ki, gecə onların ruhunu bütünlüklə sarıb, vahiməyə və azara salacaq.»

Başqa bir nümunə budur ki, bir neçə il bundan öncə, İngiltərə və Almaniya mətbuatında bir xəbər dərc olunmuşdu: «İngiltərə şahzadəsi Qərbi Almaniyanı görmək üçün yola düşür. Duisburq dəmiryol stansiyanın rəisi qatarda şahzadənin 13 saylı vaqonda hərəkət etdiyini görəndə, Şahzadə və onunla birlikdə gedənlər üçün bir hadisə baş verməsin deyə, vaqonun nömrəsini 12 rəqəmi ilə dəyişir.»[42]

Belə məsələlər Avropa ölkələrində bu gün də davam etməkdədir. Hətta bütün xəbərlərdə Birləşmiş Millətlər Təşkilatının binasında 13-cü mərtəbənin olmadığı bildirilir. 13rəqəminin nəhsliyi barədə sözü burada saxlayaq.

Avropanın, necə deyərlər, mədəni və inkişaf etmiş ölkələrində taleyəbaxmaq, gələcəkdən proqnozlar, o xalqların arasında tilsimlərin alınıb-satılması, cahil və azdırıcı fikirlərin təsirləri, onların zahiri ağıl və

---

[42] «Panzdəh qoftar», səh: 26.

düşüncəpərəstlik pərdəsinin arxasından özünü göstərir. Bu da, bəzən orta əsrlərin geridəqalmış cəmiyyətini xatırladır. Bəli!

Ləpəsi dolu badam sanmış idim gördüyüm an,
Qabığ üstündə qabıqmış, içi puç, sanki soğan.

Buna görə də, onların azdırıcı zahirləri, yalançı hay-harayları və səs-küylərinə aldanmayın, özünüzü onların qabağında kiçik saymayın və əbəs yerə təriflərə, şişirtmələrə yol verməyin!

## *MƏZHƏBİ MÖVHUMAT – TƏZƏ EV VƏ MAŞIN ÖNÜNDƏ QAN TÖKMƏK*

Ustad şəhid Mütəhhəri (r) bu məsələnin kökünün cahilliklə bağlı olduğu barədə deyir: «Adətimiz belədir ki, evimizi dəyişəndə, təzə evə gedəndə, bir bulaq açanda, ya da hər hansı təzə bir iş görəndə bir qoyun kəsirik. Şeyx Səduq nəql etmişdir ki, Rəsuli-əkrəm (s) cin qurbanlıqlarını nəhy etmişdir. Məlum olur ki, qədimdə bu adətin adı «zəbihətul-cin» (cin qurbanlığı) olmuşdur. Ev alan, bulaq açdıran və ya hər hansı bunun kimi bir iş tutan şəxs tutduğu iş uğursuz olmamalı, cinlərdən ona zərər gəlməməsi üçün qoyun kəsir (Biz buna «bədnəzər» deyirik). Cahiliyyət dövründə ərəblər, bu zərərləri cinlərin törətdiyini deyirdilər. Peyğəmbər (s), cahiliyyətin bu sünnətini batil sayıb nəhy etsə də, bizim aramızda yenidən yayılmışdır. Həmin hədis (bizim mötəbər hədis kitabımız olan) «Vəsailuş-şiə» kitabında nəql olunub:

نهى عن ذبا ئح الجن و هو أن يشترى الرجل الدار او يستخرج العين و ما اشبه ذ
لک فيذبه له ذبيحة للطيرة مخافة إن لم يفعل أن يصيبه شىء من الجن[43]

Ayətulah Məkarim Şirazi, bu qurbanlığın şəri hökmü barədə belə deyir: «Qurban kəsmək və ehtiyaclılara kömək etmək yaxşı işdir. Amma onun qanını nəqliyyat vasitələrinə və ya yarımçıq tikilmiş evlərə səpmək xurafatdır!»[44]

## *MƏSUMLARIN (Ə) QONDARMA TƏSVİRLƏRİ*

Ustad şəhid Mütəhhəri (r) deyir: «İslamın təsviri şüarları yoxdur. İslamda iki şüar yoxdur: təsviri və ədədi şüar. Bəzi yerlərdə, xristianlıqda xaç təsviri olduğu kimi, təsviri şüarlar gözə dəyir. İslamda xaçın müqabilində qoyulası şüar yoxdur!

Bazarda satılan Peyğəmbərin (s), Əmirəl-möminin (ə) və pak imamlar kimi müqəddəslərin təsvir olduğu şəkilllərin heç bir əsası yoxdur! İslam, tövhid dini olduğu üçün əvvəldən ona yad olan heykəltaraşlıqla, xüsusən də, din övliyaları üçün heykəl düzəldənlərlə möhkəm mübarizə aparıb. O zamanlarda, xüsusən İslam mədəniyyətinin çox inkişaf etdiyi dövrdə də hansısa bir təsviri qələmlə çəkmək istəyənlər var idi. Bununla yanaşı, bu kimi hallar olmamışdır. Əgər peyğəmbər və əimmənin təsviri olsaydı, mütləq biz onu İsanın yerinə qoyub indiyədək pərəstiş edərdik. Bu şəkillərin əsassız olduğu bir yana qalsın, peyğəmbərin

---

[43] «Vəsailuş-şiə», c: 2, səh: 198; «Panzdəh qoftar əz məaniul-əxbar», ustad Şəhid Mütəhhəri, səh: 170 (cüzi dəyişiliklə).

[44] Onun «İstefta»-sından.

(s), həzrət Əlinin (ə) və imam Hüseynin (ə) təsvirlərini qəbul etməyin! O şəkillər haqqında xoşagəlməz söz demək istəmirəm. Həmişə imam Əlini (ə) vəhşətli bir qiyafə ilə və əlində tutduğu ikibaşlı, ilana oxşar ikidilli qılıncla göstərirlər. Həzrət Əli (ə) nə vaxt belə olub?! Düşmənlər imam Əlinin (ə) gülərüz olduğunu deyir və bu xüsusiyyətini xəlifəlik üçün eyib sayirdılar.

Buyurur:

عجبا لابن النابغة! يزعم لاهل شام ان فى دعابة وانى امرؤ تلعا بة

«Təəccüblüdür! Nabiğə oğlunun xilafət üçün mənə tutduğu eyib budur ki, deyir, xoşsima adamam, zarafat edirəm və gülərüzəm...»[45]

## *MƏRCEYİ-TƏQLİDLƏRİN NƏZƏRLƏRİ*

**Sual:** Bazarlarda satılan həzrət Məhəmmədin (s) azyaşlı və yaşlı halda təsvir olunan şəkillərini təsdiq edirsinizmi?

Ayətullah Məkarim Şirazi: «Əlimizdə bu və digər yayılan şəkilləri təsdiqləyən heç bir mötəbər dəlil yoxdur.»[46]

**Sual**: 14 məsumun şəkillərinin çəkilməsi qadağan olunubmu? Bu şəkillər, onların müqəddəs məqamının zəiflədilməsi anlamına gəlmirmi?

**Ayətullah Fazil Lənkərani**: «Məsumların (ə) xəyala əsasən şəkillərinin çəkilməsi, onlara hörmətsizliyə səbəb

---

[45] «Nəhcul-bəlağə», xütbə: 80; «Panzdəh qoftar», ustad Şəhid Mütəhhəri, səh: 207-209.

[46] «İsteftate-cədid», c: 1, səh: 491.

olmadığı təqdirdə, öz-özlüyündə haram deyil. Amma ona etiqad bəsləmək əsassızdır!»[47]

## *QADINLARIN UZUN DIRNAQ SAXLAMALARI*

Görəsən, qadınların uzun dırnaq saxlamarı İslamda deyilib, yoxsa xurafatdandır? «Vəsailuş-şiə» kitabında imam Sadiqdən (ə) nəql olunan bir hədisdə Peyğəmbərin (s) kişilərə belə buyurduğu deyilir:

قصوا اظا فيركم

«Dırnaqlarınızı qısaldın (kəsin)!»

اتركن من اظا فيركن فا نه ازين لكن

Qadınlara isə buyurur: «Bir az dırnaqlarınızdan saxlayın, çünki bu (qadınlar üçün) zinətdir.»[48]

Deməli, qadınların bir az dırnaq saxlamasının eybi yoxdur. Amma başqalarının nifrətinə və əziyyətinə səbəb, yaxud da naməhrəmlərin diqqətini çəkmək həddində olmamalıdır. Bunu, müsəlman qadınların adsanına yaraşmayan şəkildə kafir və yad qadınlar kimi etməməlidirlər. Hədisin (ərəbcə) mətnində olan «من» kəlməsindən məlum olur ki, qadınlar, dırnaqlarını tamamilə deyil və adi qaydadan xaric olmamaq şərtilə bir hissəsini saxlaya bilərlər. Bunu da əlavə etmək lazımdır ki, belə bir göstərişə əməl etmək, onun zərər və mənfi nəticələri olamayan vaxta aiddir.

---

[47] «Cameul-məsail», c: 1, səh: 259, sual: 1013.
[48] «Vəsailuş-şiə», c: 2, səh: 134, həd: 1720.

## *UYDURMA YUXUYOZMA KİTABLARI*

Sual: Bir müddət bu məzmunda vərəqlər paylayırdılar: Şeyx Əhməd Nami Mədinədə (yaxud bir qız, həzrət Zeynəbin (ə) hərəmində) yuxuda Peyğəmbəri (s) görüb. Ona məlum olub ki, göydə bir ulduz görünəcək, tövbə qapısı bağlanacaq. Kim yazarsa belə olacaq, yazmasa elə olacaq... Görəsən, bu vərəqlər etibarlıdırmı? Onlara diqqət etmək lazımdırmı?

**Ayətullah Məkarim Şirazi**: «Bu vərəqlər qondarma və əsassızdır! Neçə illərdir ki, naməlum şəxslər tərəfindən paylanır.»[49]

## *İMAM ZAMANLA (Ə) MÜNASİBƏTDƏ OLMAQ İDDİASI*

İmam Sahibəz-zamanla (ə) əlaqə mövzusunda bir sıra kitablar yazılmışdır ki, axır zamanlar fövqəladə şəkildə yayılmışdır. Bu kitablar, hekayə və dastanlarla dolu mətləblərdən ibarətdir ki, onlardan bəziləri səhvdir və onu yazanın xəyallarıdır!

Bir qoxu hiss olunur! Bu hekayə və dastanlar bir düzgün əqidənin qeyri-düzgünlə qarışmasına, beləliklə də bir xurafi və səhv əqidənin camatın arasında yayılmasına səbəb olur. Belə kitabların yayılması nəticəsində bəzi məntəqələrdə avamcasına xurafi hadisələrin baş verməsinin şahidi oluruq: Bir nəfər imam Hüseynin (ə) başından bir damcı qan düşdüyünü və Həzrətin mübarək başını gördüyünü iddia edir. Bir

---

[49] «İsteftate-cədid», c: 3, səh: 570.

çoban Şahçırağın qulamı olduğunu və ondan göstərişlər aldığını söyləyir. Ərindən qaçmış qadın, bir kəndin məscidinə gedib bu məscidə nəzər olunduğunu iddia edir. Guya bu məscidə gələn xəstələr şəfa tapırlar. Yaxud da bir qız və ya qadına nəzər olunur, onlar camaatın istəklərini yerinə yetirirlər.

Bu xoşagəlməz kitablar, hekayə və yuxudan doğan əqidələrin sferası ağıl və düşüncə əhlini şiə əqidəsinə bədbin edərək, fikri azdırmaq üçün zəmin yaradır. Bu da, nəticə etibarı ilə, şiə aləminin əleyhinə mübarizə aparan müxaliflər üçün əlverişli şəraitə çevrilir. Avamların düzgün olmayan əqidələri şiə aləminin adına yazılaraq digərlərinə də sirayət edir. Əslində, İslamın bütün firqələrindən fərqlənən bir əqidə elə şəkildə göstərilir ki, bu da, İslamdan kilometrlərlə uzaqdır. Belə əqidələr İslamın düşüncəli şəxsləri üçün mübarizə meydanını daraldır.[50]

## *MƏRCEYİ-TƏQLİDLƏRİN NƏZƏRLƏRİ*

Mövhumat İslamın böyük şəxsiyyətləri, ürəkyananları və şiə məktəbi tərəfindən qəti şəkildə inkar olunub, yalan sayılır. Onları təbliğ etmək də haram olunub. Nümunə üçün mərce alimlərdən ikisinin nəzərini diqqətinizə təqdim edirik:

**Sual**: Bəzi adamlar dua və ya əzadarlıq məclislərində məsum imamlarla (ə), xüsusən imam Zamanla (ə.c.) əlaqədə olduqlarını iddia edirlər. Bundan maddi

[50] «Mövludnamə», səh: 81.

mənafeləri üçün istifadə etməklə yanaşı, insanların dini hisslərindən sui-istifadə edirlər. Bu cür məsələlər, xüsəsən qadınların məclislərində çoxalmaqdadır. Bu məclislərdə iştirak etmək, belə şəxsləri hər hansı şəkildə dəstəkləmək barədə nəzərinizi bildirməyinizi xahiş edirik.

**Ayətullah Safi Gülpayiqani**: «Qeybət zamanında həzrət Höccətlə (ə.c.) əlaqədə olmaq iddiası yalandır! Belə iddiada olanların məclislərində iştirak etmək haramdır! Möminlər, gərək belə əsassız iddiaların yalan olduğunu camaata açıqlasınlar ki, onlar yollarını azmasınlar.»

**Ayətullah Məkarim Şirazi**: «Bu iddialar, xüsusən məsumlar (ə) tərəfindən gətirilən bir göstəriş iddiası olarsa, gərək təkzib edilməlidir.»[51]

## *TAXILAN CADULAR – CAHİL XURAFAT*

Yəqin ki, bəzi evlərin girəcəyində, mağazalarda, avtomobillərin qabaq şüşələrində adətən rənbərəng saplardan üzərrik dənələrindən və ya başqa əşyalardan düzəldilmış asılıları görmüsünüz. Bu əşyalar sayəsində bədnəzərdən və başqa təhlükələrdən qoruduqlarını düşünürlər! Görəsən, bunların həqiqəti varmı, yoxsa xürafafatdır?!

Əgər «Əsrimizdəki insanın rəftarları, cahiliyyət əsrinin rəftarlarının təkrarıdır» deyilsə, heç də təəccüb etməyin!

---

[51] «Məsaile-cədid əz dideqahe-uləma və məraceyi-təqlid», c: 3, səh: 225, 226.

İslamdan öncə cahiliyyət əsrində olan əqidələrin necəliyi haqqında tarixdən oxuyuruq: Onlardan birində dəlilik əlaməti görünsəydi, şər ruhları qovmaq üçün ölülərin sümüklərinə və çirkin parçalara pənah aparırdılar. Onları xəstənin boynundan asırdılar. Ana bətnində olan uşağı və (azyaşlı) uşaqları dəlilikdən qorumaq üçün pişiyin və ya tülkünün dişini sapa bağlayıb onların boynuna salardılar.

Onların əqidəsinə görə, əgər özündə mis tikəsi daşıyan bir şəxsi ilan və əqrəb vurub öldürsəydi, onun sağalması üçün boynundan qızıl və gümüş boyunbağı asardılar.[52]

Çöl ərəblərindən bir qrupu cadu asmaqla, daşların və sümüklərin bağlandığı boyunbağılarla öz xəstələrini müalicə edirdilər. Peyğəmbəri (s) görmək şərəfi nəsib olanlar, bitkilərlə və tibbi dərmanlarla müalicə barəsində ondan soruşdular. Rəsulallah (s) buyurdu: «Hər bir xəstəyə lazımdır ki, dərmanın arxasınca getsin. Çünki dərd yaradan Allah, dərman da yaratmışdır.»[53]

## *TAXILANLARDAN ÇOXU ŞİRKDİR*

Rəsulallahın (s) bu növ mövhumat və xurafatla mübarizəsi təkcə onun peyğəmbərliyi dövrilə məhdudlanmır. Həzrət dörd yaşı olanda, – səhrada süd anası Həlimənin himayəsində yaşayırdı – anasından, süd qardaşları ilə birlikdə səhraya getməsini istədi. Həlimə deyir: «Cahiliyyət əqidələrinə uyğun olaraq,

[52] «Tarixe-təhqiqiye-İslam, c: 1, səh: 122, 123.
[53] «Fərazhaye əz tarixe-İslam», səh: 24.

səhra cinlərinin ona zərər yetirməməsi üçün sapa bağlanmış bir Yəmən möhürünü onu qoruması üçün boynuna saldım. Məhəmməd (s) möhrü boynundan çıxarıb belə dedi:

مهلا يا اما ه فان معى من يحفظنى

«Anacan, aram ol, məni qoruyanım (Allahım) həmişə mənimlədir.»

«Səfinətul-bihar» kitabında imam Sadiqin (ə) belə buyurduğu nəql olunub:

ان كسيرا من التمائم شرک

«Qolbağlardan və taxmalılardan çoxu şirkdir!»

İndi isə öz əməlimizə baxaq! Hansı səviyyədə onun tərəfdarıyıq və onların saf göstərişlərinə əməl edirik?! Mövləvi deyir:

Şirin balaları yaraşır şirə,
Sən heç yaraşdınmı o Peyğəmbərə?!

**Diqqət!** Bu rəvayətləri deməkdə məqsədimiz, özümüzlə gəzdirməklə, yaxud oxumaqla pənahına sığındığımız ilahi duaları, tilsimləri və Quranın məxsus ayələrini inkar və rədd etmək deyil. Çünki bunlardan bir çoxu rəvayətlərdə deyilib. İlahi "hirzlərə" (qorunmaq üçün dualara) pənah aparmaq, duanı, Quran ayələrini oxumaq və özündə saxlamaq, təhlükələrdən amanda qalmaq üçün asılan cadu boyunbağı və taxmasından çox fərqlidir.

«Biharul-ənvar»da Ənəsdən nəql olunub ki, Rəsulallah (s) imam Həsən (ə) və imam Hüseyni (ə) iki surə – «Fələq» və «Nas» surələri ilə qoruyardı.[54]

أن النبى (صل الله عليه وآله) كان كثيرا ما يعو ذ الحسن و الحسين (عليه السلام) بها تين السورتين

Başqa bir rəvayətdə nəql olunub ki, Peyğəmbər (s) Həsən və Hüseyni (ə) bu dua ilə qoruyardı:

آعيذ كما بكلمات الله التامة، من كل شيطان و هامة و من كل عين لامة

## *AYƏTULLAH MƏKARİM ŞİRAZİDƏN SORUŞULAN SUALLAR*

1-ci sual: Müsəlmanlardan bəzilərinin əqidəsinə görə, meyitin qəbrini əbədi olaraq açmaq olmaz. Buna münasibətiniz necədir?

Cavab: «Bu əqidə düz deyil! Böyük şəxslərin və övliyaullahın qəbirləri istisna olmaqla, qəbirin əsər-əlamətləri yox olduqdan sonra açılmasının eybi yoxdur.

2-ci sual: Hafiz falına münasibətiniz necədir?

Cavab: Falın etibarı yoxdur.

3-cü sual: Bir şəri iş üçün qəhvə falından istifadə etməyin hökmü nədir? Məsələn, bu vasitə ilə bir itmiş şeyi tapmaq və ya bir məsələni həll etməklə əldə olunan pulun hökmü nədir?

Cavab: Qəhvə və s. fal növləri xurafatdır, şəriətdə etibarsız sayılır. Onun müqabilində pul almaq caiz deyil!

---

[54] «Biharul-ənvar», c: 63, səh: 14.

4-cü sual: Axır vaxtlarda xüsusi namazı və qaydaları olan çərşənbə axşamı «bibi aşı», «bibi nur», «bibi hur» adlanan adət yayılmışdır. Bu süfrənin ununu, halvasını naməhrəm, həddi-büluğa çatmamış uşaq və səma görməməlidir! Buna münasibətiniz necədir?

Cavab: Bunlar xurafatdır və ona əməl etmək şəriətin əksinədir. Camaatı yaxşı dillə məlumatlandırın ki, bu işləri tərk etsinlər.

5-ci sual: Bəzilərinin etiqadına görə, tək halda yerinə yetirilən ümrədən sonra, ya gərək Məşhədə imam Rzanın (ə) ziyarətinə getsinlər, ya da mütə etsinlər. Bu düzdürmü?

Cavab: Belə bir göstərişimiz yoxdur!

6-cı sual: Taleyə baxmağın həqiqəti varmı? Taleyə baxmaq haqqında çap olunmuş çoxlu sayda kitablar həqiqətə əsaslanır, yoxsa xurafatdır?[55]

Cavab: Talenin əsası yoxdur!

7-ci sual: Müxtəlif aylarda və günlərdə dünyaya gəlməyin insanın taleyində təsirlidirmi?

Cavab: Xeyir!

8-ci sual: Gəlini evə aparanda ayağı altında yumurta və ya nar qoyurlar ki, ayaqlayıb əzsin, salamatlıqla evə daxil olub xoşbəxt olsun. Münasibətinizi bildirərdiniz.

Cavab: Bu iş xurafatdır və caiz deyil.[56]

---

[55] Bu işlərin qaynar bazarı təkcə burda deyil. 82-ci ilin miqyasına görə, ərəb ölkələrində 500 min falçı taleyə baxmaqla məşğuldurlar. Ərəb qadınları hər il 5 milyard dollara yaxın fala və taleyə baxmaq üçün xərcləyirlər («Amarha pərde bərmidarəd», səh: 226).

[56] Onun «Nümuneye-istiftat» kitabından. 04.07.84 (ş) tarixində cavab verilib.

## *QOHUMLARIN EVLƏNMƏSİ BARƏDƏ İKİ NƏZƏR*

Xuzistanda olan ərəb tayfaları arasında «nəhvə» adlı bir adət var (Əmiqızının əmioğlu ilə və ya başqa yaxınlarla məcburi evləndirilməsi, başqaları ilə evlənməsinin qarşısının alınması.) Belə bir adətin şəriətdə hökmü nədir?

Cavab: Belə bir adət şəriətin əksinədir, ondan çəkinmək lazımdır. Lakin məcburiyyət olmadan qız və oğlanın razılıqları istisnadır.[57]

**Ayətullah Fazil Lənkərani**: «Qohumların evlənməsi barədə alimlərin arasında iki nəzər vardır:

1. Mərhum ikinci Şəhidin nəzərinə görə, «Məsalik» kitabında Peyğəmbərə (s) istinad olunan bir rəvayətdə Həzrət buyurur:

لا تنكحوا القرابة القريبة فان الولد يخرج ضاويا

«Öz yaxınlarınızla evlənməyin, çünki arıq (zəif) uşaq doğulacaq.»

2. Yusif Bəhraninin «Hədaiq» kitabında (c: 23, səh: 17) sileyi-rəhmə görə qohum-əqraba ilə evlənmənin müstəhəb olduğu deyilib. İkinci şəhid «Qəvaid» kitabında bunu seçərək yığcam şəkildə deyir; yaxınlarla evlənmə haqqında mötəbər rəvayət yoxdur.[58]

Amma bu gün müasir elm, uşaqlarda olan əlillik, fiziki və zehni qüsurun faiz etibarı ilə çoxunu qohumların evlənməsilə bağlayır. Belə uşaqları himayəyə götürüb saxlayan mərkəzlərin çoxu, bu

---

[57] «İstiftate-cədid», c: 3, səh: 243.
[58] «Cameul-məsail», c: 1, səh: 445, sual: 1575.

evlənmələr nəticəsində doğulan uşaqları öz öhdəsinə almaq hədəfini güdür. Bu uşaqların saxlanması və xüsusi təlim-tərbiyyəsinə çəkilən xərclərə əlavə olaraq, deyilən səbəb üzündən bu uşaqlar ata-ana məhəbbətindən də uzaq düşürlər. Əlbəttə, bəzi ixtisasçılar demişlər ki, bir-birinin qohumu olan qız və oğlan, fiziki və ruhi cəhətdən sağlamdırlarsa, onların evliliyinin problemi olmayacaq. Əks təqdirdə, övladlarda bərpa olunmayan problemlərin özünü göstərmə ehtimalı vardır və ya ən azı, onların bir nöqsanı – zehni problemləri olacaq. Bu, dünyanın elmi mərkəzlərində bu gün diqqət olunası bir məsələyə çevrilmişdir.»[59].

Bu nöqtəni də vurğulayırıq ki, hal-hazırda evlənmədən öncə genetik analiz yolu ilə bir çox məsələlər məlum olur, nəticədə problemlərin qarşısı alınır.

### *YAYILMIŞ XURAFATDAN DAHA BİR NÜMUNƏ*

10-cu sual: Aşağıda deyilənlərin ağıl və şəriət əsasında, yoxsa xurafat və şəriətin əksinə olduğunu deməyinizi xahiş edirik.

– Zirehlərə, müqəddəs məkan, hərəm və imamzadələrin qapılarına sap bağlamaq

[59] Bu barədə daha ətraflı məlumat almaq istəsəniz, aşağıdakı mənbələrə müraciət edə bilərsiniz: «Nəqşe-din dər xanevade», Ayətullah Ehsanbəxş, c:1; «Raze-xoşbəxti və ecaze-izdivac», Seyid Məhəmməd Şəfii Mazandarani; «Mahname peyame-zən», № 26.

– Ziyarətgahlarda, seyidlərin, alimlərin və başqalarının qəbri üstündə şam yandırmaq
– Həzrət Xızrın (ə) gəlməsi üçün su səpib, evin qapısını süpürmək
– Ay, əqrəb üstündə olanda nigahın bağlanmaq
– Qəndi, gəlin və bəyin başına tökmək
– Pişiyin üstünə su tökmək, dəridə dənə şəkilli ləkələrin yaranmasına səbəb olur.
– Qayçını biri-birinə vurmaq, ailə üzvlərinin bir-birilə dava-dalaşına səbəb olur.
– Gecə vaxtı qəbiristanlığa getmək məkruhdur.
– Ölülərin paltarlarını atmaq və onlardan istifadə etməmək, bəzən də yandırmaq.
– Şənbə günü yas məclisi təşkil etməyin pis təsiri vardır.

Cavab: Ayətullah Məkarim Şirazi: «Bunlardan heç biri düz deyil! Ay, əqrəb üstündə olduqda əqd siğəsinin oxunması, bəzi rəvayətlərdə nəhy olunmuşdur. Həmçinin, gecə qəbirləri ziyarət etmək də nəhy olunmuşdur.»[60]

Əlbəttə, mərceyi-təqlidin nəzərinə əsasən, meyitin gecə dəfn olunmasının eybi yoxdur.[61]

## *SAXTA ADƏTLƏR*

Camaat arasında mötəbər dəlil və sənədə əsaslanmayan bəzi adətlərin yayılması, üstəlik, onların müqəddəsləşdirilməsi, din-məzhəblə əlaqələndirilməsi

[60] Onun «İstiftat»a cavabı, 04. 07. 1384 (ş).
[61] «Əcvəbətul-istiftat», səh: 47, sual: 236.

təəccüb doğurur. Nümunə üçün onlardan bəzilərinə işarə edirik:

Səfərə çıxan üçün ayaq arxasında aş bişirmək; namazdan sonra görüşmək; "müşkülhəlledən" noxudu paylamaq; istəklərin yerinə yetməsi üçün nəzir olunmuş aş qazanlarını bir-birinə vurmaq; (müəyyən girişlərdə) içəriyə sağ tərəfdən daxil olmağın insan üçün xeyirli olacağına etiqad bəsləmək...[62]

Həccə getmək şərəfinə nail olmağın ildönümünü qeyd etmək üçün qurban kəsmək; qırx cərşənbə gününün axşamı, müqəddəs Cəmkəran məscidinə getmək; müqəddəs zirehlərə qıfıl və bağ bağlamaq; bədnəzərin qarşısını almaq üçün üzərrik yandırıb dolandırmaq; il təhvil olan zaman duanın qəbul və müstəcəb olmasına etiqad bəsləmək; cənazin önündə və evə gəlin apararkən qurban kəsmək; həzrət Xızrın gəlməsi üçün evin qapısının süpürülməsi; «yeddi sin» süfrəsi; doğum gününü qeyd etmək; novruz səmənisi; Mövləvi və Hafiz falını müqəddəsləşdirmək və s.

Bunlardan bəziləri elə bir şəkildə əhəmiyyət və müqəddəslik qazanıbdır ki, onlara qarşı çıxmağı şəriətə qarşı cıxmaq, buna görə cəzalancaqlanırı düşünürlər.

---

[62] İmam Əlidən (ə) nəql olunan bir rəvayətdə deyilir ki, həzrət, dolanışıqdan ona şikayət edən bir nəfərə buyurdu: « لعلک تمشی أمام من هو اکبر منک سنا; «Bəlkə yeriyən zaman böyüklərdən öndə gedirsən ?!» (Yəni, böyüklərələ yol gedərkən onlardan öndə addımlamaqla hörmətsizliyə yol verirsən və bu da sənin yoxsulluğuna səbəb olub.) "Nişan əz binişaniha" (səh: 381) ktabının «Əl-Məxazen»-dan (c: 1, səh: 288) nəqlinə əsasən.

Bu rəvayəti, bəlkə də, özündən daha böyükləri önə çəkmək üçün əsas götürmək olar. Əlbəttə, elm, seyidlik, ustadlıq haqqı və s. məsələləri də bu mövzunun prinsipi kimi qəbul etmək olar.

Halbuki bu, belə deyil. Bəli, yuxarıda deyilənlərin bəzilərinin eybi və zərəri yoxdur, bəzən də onları yerinə yetirmək bəyənilmiş əməl sayılır. Amma gərək diqqət edək ki, bunlar şəriətin göstərişi kimi tanınmasın və məzhəblə bağlanmasın. Məsələnin daha da aydın olması üçün aşağıdakı istiftaya diqqət edək:

**11-ci sual**: Seyidüş-şühədanın (ə) əzadarlıq mərasimlərində ələmdən istifadə etmək, ya onu əza məclisinə vermək, yaxud da əza saxlıyan dəstələrin onu daşımalarının hökmü nədir?

**Ayətullah Xameneyi**: «Öz-özlüyündə bunun eybi yoxdur, amma bu işlər gərək dinin bir hissəsi sayılmasın.»[63]

Yenə də bu nöqtəni vurğulayırıq ki, əgər bir xurafat, ya bir yaxşı sünnət əməl olunub yayılırsa, gərək o, dinin, məzhəbin adıyla bağlanmasın. Belə bir əməl nəhayətdə dinin zərərinə nəticələnəcək. Gərək ... cidiyyətlə və qəti şəkildə onların önündə dayanılsın, onlara əməl edənlər məlumatlandırılsın.

Belə məsələlərin (xurafata məzhəbi don geydirməyin) acı nəticələrindən biri də budur ki, onlara qarşı çıxmağı çətinləşdirir ki, bu da xurafatın möhkəmlənməsinə və dəyişilməzliyinə səbəb olur.

**Diqqət!** (Dini-mənəvi vasitələrdən təbərrük kimi istifadə etməyin maneəsi yoxdur!)

Məsələnin digər mənfi şəkildə başa düşülməməsi üçün diqqət yetirmək lazımdir ki, bəzi müqəddəs

---

[63] «Əcvəbətul-istiftat», səh: 347, sual: 1444.

sünnətlər və adətlət bizim böyüklərimizdən qalmışdır. Onlar pislənilmir, üstəlik o adətlər çox dəyərli və hörmətə layiqdirlər. Belə bəyənilmiş sünnətlərə əməl etmək, böyüklərə iqtida və mərifət sayılır, Allah dərgahında Onun və övliyalarının diqqət və nəzərini qazanmaq üçün vasitə olur. Buna misal olaraq həzrət məsum imamın (ə) həyatından bir nümunayə nəzər salaq. Həzrət imam Rzadan (ə) rəvayət olunub: «Bir gün İmam (ə) özünün yundan hazırlanmış nazik, yumşaq köynəyini mərhəmət edərək Dəbələ verir və buyurur:

احتفظ بهذا القميص، فقد صليت فيه الف ليلة فى كل ليلة الف ركعة، و ختمت فيه القرآن الف ختمة

«Bu köynəyi yaxşı saxla! Mən o köynəkdə min gecə, hər gecədə isə min rəkət namaz qılmışam. Onunla min dəfə Quran xətm etmişəm.»[64]

Bu rəvayətin üzərində diqqətlə düşünəndə aydın olur ki, ilahi ibadətlərin yerinə yetirilməsində istifadə olunan paltar, başqa paltarlardan fərqlidir və o, özündə başqa təsirləri daşıyır.

Başqa bir nümunəni Fatimə binti Əsədin (ə) vəfatı hadisəsində görürük. Rəsulallah (s) öz əbasını həzrət Əliyə (ə) verir ki, əbanı anası ilə birlikdə dəfn etsin.

Hədislərimizdə meyiti dəfn edərkən onun namaz qılıb, oruc tutduğu, həcc yerinə yetirdiyi (ehram bağladığı) paltarla və ya bir miqdar imam Hüseynin (ə)

---

[64] «Biharul-ənvar», c: 49, səh: 238, həd: 7; «Əl-Qətrə»-nin tərcüməsi, c: 1, səh: 608.

türbəti ilə dəfn olunmasının müstəhəbb olduğu təkid olunub.[65]

## *HƏQİQİ VƏ XURAFİ İSTİXARƏLƏR*

Xurafata aid olan başqa bir adət də, istixarəni düzgün başa düşməmək və bununla da, bəzi hallarda uğursuzluğa düçar olmaqdır. Bu mövzunu aydınlaşdırmaq üçün onu qısa şəkildə izah edirik:

İlk olaraq qeyd etmək lazımdır ki, rəvayətlərdə müxtəlif şəkillərdə istixarə etməyə işarə olunur. İstixarənin lüğəvi mənası, Quran və təsbihlə olması deyil. İstixarə, Allahın dərgahından dua vasitəsilə xeyir tələb etməkdir.[66]

Rəsulallah (s) buyurur:

من سعا دة ابن آدم استخا رته الله و رضا ه قضى الله، و من شقا وة ابن آدم تركه استخا رة الله و سخطه بما قضى الله

«Allaha istixarə (xeyir tələb etmək) və öz işlərində ilahi təqdirlə razılıq, insanın səadətindəndir. İstixarəni tərk etmək və ilahi təqdirlərlə razılaşmamaq onun bədbəxtliyindəndir.»[67]

---

[65] «Vəsailuş-şiə», c: 3; «Kitabul-təharə əbvabul-təkfin», bölmə: 4, 5, 12.

[66] Xatırladırıq ki, İslamda Quran və təsbihlə istixarə etmək vardır və o, olduqda faydalıdır. Bu barədə rəvayətləri görmək üçün aşağıdakı kitablara müraciət edin: «Biharul-ənvar», c: 91 və «Vəsailuş-şiə», c: 4, 15.

Alimlərdən birinin dediyinə görə, istixarə haqqında olan ən yaxşı kitab, Seyid bin Tavusun (r) «Fəthul-əbvab» adlı kitabıdır.

[67] «Kənzül-əmal» c: 8, səh: 814; «Cameus-səğir», c: 2, səh: 545.

## *İSTİXARƏNİN İKİ HƏQİQİ ŞƏRTİ*

İkincisi budur ki, insanlar arasında işlədilən «istixarə» termininin həqiqəti, bəzən təhrif olaraq bəzilərinin tənbəllik və süstlük alətinə çevrilir; düşünmək zəhmətinə qatlanmaq, araşdırmaq və məsləhətləşmək yerinə, sadə bir istixarə ilə öz vəzifələrini müəyyənləşdirirlər, Allahdan «göstəriş» alırlar! Halbuki, düzgün və həlledici istixarə odur ki, fikirləşməklə, məsləhətləşməklə nəticə alınmadıqdan sonra olsun. Daha da təəccüblüsü budur ki, bəzilərinin fikrincə, bağlı həqiqətlərdən, gələcəkdən və qeyb aləmindən xəbər almaq üçün istixarə etmək olar. Məsələn: bir şəxs istixarə edir ki, ev və torpağı üçün yaxşı müştəri tapılacaqmı, yoxsa yox; filan mal gələcəkdə bahalaşacaq, yoxsa ucuz olacaq; filan şəxs, filan şəxslə evlənəcək, yoxsa yox... Bunlar dini hökmləri istehza etmək deyilmi?!

## *EVLƏNMƏK ÜÇÜN İSTİXARƏ TÖVSİYƏ OLUNMAYIB*

Baxın! Məsələni düzgün anlamamaq nəticəsində bəziləri istixarə etməyi göydən nazil olan vəhy kimi yerinə yetirir, talelərini bir istixarə ilə müəyyən edirlər! Elə bu şəxslərdilər ki, evlənən zaman öz nəzərlərində tutduqları şəxsi istixarə ilə təyin edib, gələcəklərini düşünmədən, araşdırmadan istixarənin əlinə tapşırırlar!

Ayətullah Əmini deyir: «Qız, oğlan və onların ailələri, onun həyat yoldaşı olacaq şəxsin tanınması

barəsində araşdırma aparmalıdırlar. Əgər yenə də tərəddüddə olsalar, məlumatlı və etimadlı bir və ya bir neçə nəfərlə məsləhətləşsinlər. Nəticə aldıqları təqdirdə, onu həyata keçirsinlər. İstixarə isə o yerdə olur ki, təhqiq və məsləhətləşmə ilə nəticə almayıb, heyrətdə qalsınlar. Təbii ki, təhqiq və məsləhət, istixarədən öncədir. Sizin təhqiqinizin nəticəsi yaxşıdırsa, onu yerinə yetirin. Bu halda istixarə etmək lazım deyil. Biz, İslamda istixarə etməyə sövq olunmamışıq.»[68]

## *İSTİXARƏYƏ ARXA ÇEVİRMƏK OLAR*

Başqa bir nöqtə də budur ki, istixarənin əksinə əməl etmək (istixarəyə arxa çevirmək) şəriətdə haram olunmayıb. Əgər şəxs qəlbən istixarədən narazıdırsa, onun əksinə əməl edə bilər. Bəzi alimlərdən nəql olunub ki, əgər istəsələr, istixarənin əksinə əməl edə bilərlər. Dərhal deyil, əvvəlcə bir müddət səbir etsinlər. Sonra sədəqə verib, işlərini yerinə yetirsinlər.

**12-ci sual**: İstixarəyə əməl etmək vacibdir?

**Ayətullah Əli Xameneyi**: «Şəriətə görə istixarənin nəticəsinə uyğun hərəkət etmək ilazımi (vacib) deyil. Amma yaxşıdır ki, onun əksinə əməl olunmasın.»[69]

## *NƏHS GƏTİRMƏK*

(Təfəül) İşi xeyrə yozmaq (onun baş tutacağı qənaətinə gəlmək) və ya (təyyür) nəhs gətirmək haqqında bir neçə nöqtəyə işarə edirik:

---

[68] «Cəvan və izdivac», səh: 108.
[69] «Risaleye-Əcvəbətul-istiftat», səh: 344, sual: 1434.

Nəhs və yaxşıya yozmaq, təqribən həmişə müxtəlif cəmiyyətlər arasında olmuşdur. Bunlar təbii təsirə malik olmasalar da, onların psixoloji təsirləri inkaredilməz həqiqətdir. İmam Sadiq (ə) buyurub: «Nəhs gətirməyin təsiri, onu qəbul etdiyin miqdardadır. Əgər onu yüngül saysan, təsiri yüngül olacaq. Ağır saysan, ağır olacaq. Ona etina etməsən, heç bir təsiri olmayacaq.»[70]

الطيرة على ما تجعلها ان هونتها تهونت و ان شدد تها تشددت و ان لم تجعلها شيئا لم تكن شيئا

Bu məsələ çox təəccüblü və heyrətamizdir.

İslami rəvayətlərdə nəhs gətirməklə mübarizə və ona etina etməmək yolu göstərilir. Peyğəmbər (s) buyurub:

اذا تطيرت فا مض

«Hər vaxt nəhs gətirsən, işini yerinə yetir (ona etina etmə).»[71]

## *NƏHS GƏTİRMƏK KÜFR VƏ ŞİRK KİMİ*

Nəhs gətirmək, Quranın[72] müxtəlif ayələrində və Əhli-beytin (ə) rəvayətlərində şiddətlə nəhy olub, hətta bəzi rəvayətlərdə nəhs gətirməyin şirk və küfr həddində olduğu göstərilmişdir.

Peyğəmbərdən (s) buyurub:

من رد ته الطيرة عن حاجته فقد اشرك

«Kimin nəhs onu işindən saxlasa, şirk etmişdir»[73].

---

[70] «Təfsiri-numunə», c: 6, səh: 317.

[71] «Mizanul-hikmə», c: 7, səh: 3345, həd: 11343.

[72] «Yasin» surəsi, ayə: 17; «Nəml surəsi», ayə: 47; «Əraf» surəsi, ayə: 131.

[73] «Mizanul-hikmə», c: 7, səh: 3344, həd: 11337.

من خرج يريد سفرا فرجع من طير فقد كفر بما انزل على محمد

«Səfərə getmək üçün evindən xaric olan şəxs nəhs gətirməyə görə qayıtsa, Məhəmmədə nazil olana küfr etmişdir.»[74]

كفارة الطيرة توكل

«Nəhs gətirmənin kəffarəsi, Allaha təvəkkül və Ona etimad etməkdir.»[75]

Bəzi adamlar qarğanın uçmağını, asqırmağı, bayquş görməyi, bəzilərinin ayağını düşərsiz sayır və nəhs əlamət kimi qəbul edirlər. Qərblilərin arasında nərdivanın altından keçmək, duzqabının düşməsi, bıçağı hədiyyə vermək şiddətli nəhs əlamət sayılır ki, bunların da hamısı xurafatdır.

### *PEYĞƏMBƏRİN (S) İKİ XEYİR YOZMASI*

Nəhsə yozmanın əksinə olaraq, xeyrə yozmaq, İslam rəvayətlərində nəhy olmamışdır. Həzrət Əlidən (ə) nəql olunan bir hədisdə buna tövsiyə olunur:

تفأل با لخير تنجح

«Xeyrə yoz, arzuna çat»[76]

Bizim məsum rəhbərlərimiz bəzən əməli olaraq bunu təbliğ edib, bizə göstərmişlər. Məsələn, Hudəybiyyə vadisində müsəlmanların Məkkə kafirləri ilə qarşıdurması barədə oxuyuruq: «Sühəyl ibn Ömər kafirlərin nümayəndəsi olaraq Peyğəmbərin (s) yanına gəldi. Həzrət onun adını bildikdən sonra buyurdu:

---

[74] «Mizanul-hikmə», c: 7, səh: 3344, həd: 11338.
[75] «Mizanul-hikmə», c: 7, səh: 3344, həd: 11346.
[76] «Mizanul-hikmə», c: 9, səh: 4490, həd: 15581.

قد سهل عليكم امركم

«Mən «Sühəyl» adından işi xeyrə yozuram ki, işiniz asan olacaq.»[77]

(Ərəb dilində «Sühəyl» kəlməsinin kökü «səhl» kəlməsidir ki, bunun da mənası «asan» deməkdir.)

Peyğəmbər (s) Pərviz Xosrova, onu İslama dəvət etmək üçün məktub göndərdi. O, məktubu cırdı və cavab olaraq Rəsulallaha (s) bir ovuc torpaq göndərdi. Həzrət bunu yaxşı mənaya yozub buyurdu: «Tezliklə, möminlər oranın torpağını ələ keçirəcəklər.»[78]

Qədim dövrdə insanların belə bir əqidəsi var idi: insanların bir-birlərinə ünvanladıqları məkubları çatdırmaq vəzifəsi olan «Buduvvuh» adında bir mələk var. Onlar məktubların yuxarı tərəfində «Ya Budduvuh» yazardılar ki, indi də bəziləri onun yerinə, əbcəd hesabına uyğun olaraq, o kəlmənin sayını (2468) yazırlar. Bunu, məktubun ünvana çatması üçün yaxşı bir iş sayırlar. Budduvuh kəlməsi, əbcəd hesabına görə aşağıdakı şəkildə hesablanır: ب = 2, د = 4, و = 6, ح = 8. Bunların yan-yana düzülüşü 2468 raqamini əmələ gətirir. Əlbəttə, təhqiqat aparıldıqdan sonra «Budduvuh» adında mələk, hədis kitablarında tapılmadı. [79]

---

[77] «Təfsiri-numunə» ,c: 6, səh: 318; «Mizanul-hikmə», c: 9, səh: 4505, vərəqaltı yazı.

[78] Həmin mənbə.

[79] «Çera?» (110 sual və cavab), səh: 174.

## *NƏHS GÜNLƏR*

Görəsən, bəzi günlərin nəhs olmasının həqiqəti varmı?

Böyük təfsirçi, filosof Əllamə Təbatəbai (r) deyir: «Etimadlı rəvayətlərə görə, həzrət Seyidüş-şühədanın (ə) və ya Peyğəmbərin (s) şəhadəti günü nəhs,[80] Əimməyi-ətharın (ə) doğum günlərin isə səadətli günlər hesab olunub. Bunun isə şəriətə bağlılığı vardır. Amma o günün aydınlığı ilə (iki) gecənin qaranlığı arasında (nəhslik) uğursuzluq yoxdur.»[81]

Ustad Əllamə başqa bir yerdə deyir: «Əqli cəhətdən filan günün, filan vaxtın nəhs və ya səadətli olduğu sübut edən dəlil yoxdur. Necə ki, günlərin nəhs və uğurlu olmasını inkar edən dəlil də yoxdur. Onda, həqiqətinin olması qeyri-mümkündür. Amma qeyri-mümkün olması, onun mahal olması demək deyil. Lakin şəriət baxımından Quranda günlərin nəhs və xoşbəxt olması xatırlanmışdır...»

Belə nəticə alırıq ki, gün, öz-özlüyündə nəhs və səadətli deyil, hadisələr, təsadüflər və biz insanların əməlləri bu mövzunun əsl amilidir. Allah-Təala Quranın iki yerində günahkar tayfaya əzabın nazil olduğu (yovmü-nəhs) günü, nəhs gün olaraq xatırladıb.

---

[80] «Biharul-ənvar», c: 45, səh: 944, rəvayət: 39, c: 100, səh: 140, rəvayət: 10.

[81] «Dər məhzəre Əllamə Təbatəbai», səh: 254.

## *ÇƏRŞƏNBƏ GÜNÜNÜN NƏHS OLMASINI İNKAR EDƏN İKİ RƏVAYƏT*

Deməli, özümüzün yaratdığı nəhslik, məsələn, bu gün çərşənbə olduğu üçün çölə çıxmamaq, filan gün filan hadisə baş verdiyinə görə o günü nəhs bilmək... və s. bu kimi məsələlər xurafat sayılır. və Əiməyi-əthar (ə) da məhz bunlarla mübarizə aparmışdır.

Məhəmməd ibn Əhməd Dəqqaq deyir: «İmam Hadiyə (ə) məktub yazıb, ondan ayın axır çərşənbə günü səfər etmək haqqında soruşdum. Həzrət, cavabında yazdı:

من خرج يوم الربعاء لا تدور خلافا على أهل الطيرة وقى من كل آقة، و عوفى من كل عا هة، و قضى الله له حاجته

«Kim nəhsə etiqadlı olanların əksinə olaraq, ayın axırıncı çərşənbəsi səfərə getsə, bəlalardan amanda qalar, xəstəlik və təhlükələrdən (qurtulub) salamat olar və Allah onun istəyini yerinə yetirər.»[82]

O şəxs, başqa bir məktub da yazıb, ayın axırıncı çərşənbəsində həcamət etmək barəsində soruşdu. Həzrət, cavab yazdı: «Kim nəhsə etiqadlı olanların əksinə olaraq, ayın axırıncı çərşənbəsində həcamət etsə, bütün təhlükə, bəla, xəstəliklərdən amanda qalar... [83]»

---

[82] «Mizanul-hikmə», c: 9. səh: 4494.
[83] Həmin mənbə.

## *BƏZİ GÜNLƏRİN NƏHS OLMASI BARƏDƏ HƏDİSLƏR*

Bəzi rəvayətlərdə, bəzi günlərin nəhs olması barəsində deyilən sözlərin şahidi oluruq. Belə günlərdə səfərə getmək, həcamət etmək və başqa işlərdən çəkindirilib. Məsələn, ayın axırıncı çərşənbəsi səfərə getmək, qarğanın sağ tərəfə uçması, itin quyruğunu tərpətməsi, bayquşun səsi, canavarın ulaması[84] və s. səfərə getmək və başqa işlər üçün nəhs sayılmışdır. Sayı heç də az olmayan belə rəvayətlər oduğu halda nə edək?

Bu sualın cavabında bir neçə nöqtəyə işarə edirik:

**1.** Bu rəvayətlərin əksəriyyətinin əksinə olan çoxlu rəvayətlər vardır. («Vəsailuş-şiə» kitabında nəql olunan hədis, belə hədislərdəndir.)

**2.** Əllamə Təbatəbai deyir: «Hədis mənbələrində həddən ziyadə çox olan bu hədislərin əksəriyyəti,[85] zəif, mürsəl və mərfu növündəndir. Hərçənd ki, onların arasında sənəd baxımından etibarsız sayılmayan hədislər də vardır.»[86]

**3.** Ustad Əllamə deyir: «Rəvayətlərdə dini aspektdən ayın həftə və günləri, bu günlərdə baş verən xoşagəlməz, acı hadisələrə görə nəhs sayılmışdır. Məsələn, Peyğəmbərin (s) vəfatı, imam Hüseynin (ə)

---

[84] «Vəsailuş-şiə», c: 11, səh: 363, 15024-cü hədis.
[85] «Biharul-ənvar»ın 4-cü cildində çoxlu sayda bu hədislərdən verilmişdir.
[86] «Tərcumeye-Mizan», c: 19, səh: 117.

şəhadəti, həzrət İbrahimin (ə) oda atılması, filan ümmətə əzabın nazil olması, odun yaradılması və s.»

**4.** Yenə də Əllamə Təbatəbai deyir: «Bəzi alimlər, bəzi günlərin nəhsliyini həqiqət sayır, o günlərə təqiyyə ilə yanaşırlar. Bunun belə olacağı da qeyri-mümkün sayılmaz. Çünki məkanları, zamanları, vəziyyətləri və halları nəhs və ya uğurlu qəbul etmək əhli-sünnətin (ammə) xüsusiyyətlərindəndir. Belə etiqadların çox miqdarı qədimdən indiyədək müxtəlif tayfa və millətlərin arasında olub, indi də vardır.»

**5.** Ustad Şəhid Mütəhhəri deyir: «Təəssüflər olsun ki, bəzi böyük alimlərimiz günlərə aid bəzi yazılar yazmışlar. Bu yazıları nəzərdən keçirib gördük ki, onlar da, öz fikirlərincə, camaatı münəccimlərdən döndəriblər; quyudan çıxarıb çalaya salıblar, bəzi sənədiz sözlər nəql ediblər. Amma bizim bu barədə çox mötəbər olan məlumatlarımızda: «Belə sözlərin arxasınca heç vaxt getməyin!»-deyilib.

Ulduzların vəziyyəti nəyə dəlalət edir?! Filan şeyin ehtimalı var və ya yoxdur! Bunlar İslamda yoxdur və dinimizin ziddinədir! Mötəbər hədislərimizin mətnində belə sözlər yoxdur!»[87]

## *GÜNLƏRİN NƏHS VƏ YA UĞURLU OLMASI ƏHLİ-BEYT NƏZƏRİNDƏ*

Ustad şəhid Mütəhhəri deyir: «... Gəlin Peyğəmbərin (s) davranışına əvvəldən axıradək baxaq! Şiə və

---

[87] «Panzdəh qoftar», səh: 169, 170. Bu kitabda Ustad belə hədislərin tapılma səbəblərini də açıqlamışdır.

sünnilərin yazdığı bütün kitablara baxaq, sünni və şiələrin Rəsulallah (s) haqqında yazdıqları tarixi kitabları mütaliə edək! Peyğəmbərin (s) öz həyat yolunda istifadə etdiyi məsələlər içərisində günlərin nəhs və ya uğurlu olması mövzusunu görəcəyikmi?!

Məsələn, O, deyibmi ki, bu gün bazar ertəsi günü olduğu üçün səfərə getmək yaxşı deyil; yaxud bu gün novruz bayramının 13-cü günüdür. Kim gəzməyə getməzsə, boynu sınacaq, həm də bir yerdən deyil, 13 yerdən?!

Belə xurafatmı olar?! Əlinin (ə) həyatında necə?! İmamların (ə) həyatında necə?! Biz heç vaxt Peyğəmbər (s) və İmamların (ə) həyatlarında, bir zərrə də olsun, bu sözlərdən əməli olaraq istifadə etdiklərini görmürük! Bunun tamamilə əksini görürük...

Əhli-beytdən (ə) bizə çatmış rəvayətlərin toplusundan belə bir qənaətə gəlmək olar: bu məsələlər, ya mütləq olaraq təsirsizdir, ya da təsiri olsa belə, Allaha təvəkkül, Peyğəmbər (s) və Əhli-beytə (ə) təvəssül etmək onu aradan qaldırır. Buna görə də, həqiqi müsəlman və şiə, əməli olaraq bunlara etina etmir. Səfərə getmək istədikdə sədəqə verib, Allaha təvəkkül və övliyalarına təvəssül edərək, bunlardan heç birinə əhəmiyyət vermir.

Ən əhəmiyyətlisi də tarıxdə Peyğəmbər (s) və İmamların (ə) bu məsələlərə əməl etmələri barədə heç bir mətn yer almamışdır!»

## *CAHİLİYYƏT DÖVRÜNƏ QAYIDIŞ*

Bəziləri də asqırmağı uğursuz əlamət sayıblar: «Bu, səbir əlamətidir. Əgər bir yerə getmək, ya bir işi yerinə yetirmək istəyəndə asqırsan, ya dayan, ya da bir neçə an yerindən tərpənmə!»

Bu əqidə də xurafat və əsassız adətlərdəndir. Onun heç bir əqli və şəri bünövrəsi yoxdur. Təəccüblüdür ki, bu xurafatın başlanğıcı İslamdan öncəyə, yəni cahiliyyət dövrünə aiddir. Cahiliyyət əsrini əhatə edən tarixi mənbələrdə yazılıb: «Ərəblər asqırığı nəhs əlamət olaraq qəbul edib, onu mütləq baş verəcək təhlükənin başlanğıcı sayırdılar. Buna görə də, asqırıq səsi eşidən zaman: «بکلابی; onun bəlası itlərimin canına düşsün»-deyərdilər. Əgər öncədən şəxsi münasibətləri pozulmuş şəxs asqırsaydı, «بک لابی; mənə yox, öz canına düşsün»-deyərdilər.

Yazılanlara görə, ərəb padşahlarından birinin nağıl-dastan danışanı var imiş. Bir gecə nağıl danışan şəxs birdən şiddətlə asqırır. Padşahın bərk qəzəblənir. Nağılçı, padşahın əl-ayağına düşüb: «Mən bu işdə iradə sahibi deyildim və bu, soyuqladığım üçün oldu»-deyir. Qəzəb alovunda yanan padşah deyir: «Əgər asqırmağının həmişə bu cür olduğuna sübut gətirməsən, öldürüləcəksən!» Nağılçı da sabahı gün onun asqırığının həmişə şiddətli olduğuna şahidlik etməsi üçün bir nəfərə çoxlu pul verib padşahın yanında gətirir. Şahid təzim-ehtiramdan sonra deyir: «Mən

şahidəm ki, o, bir gün şiddətli şəkildə asqırdı. Hətta asqırığının şiddətindən bir dişi də düşdü!»[88]

## *ASQIRMAĞIN MADDİ VƏ MƏNƏVİ TƏSİRLƏRİ*

Bu xurafatın əksinə olaraq, pak imamlardan (ə) olan rəvayətlərdə asqırmaq, afiyət və salamatlığın amili adlanmış, onun insan cismi və ruhu üçün bərəkətli olduğu bildirilmişdir:

التثا وب من الشيطا ن، و العطا س من الله عز و جل

«Əsnəmək şeytandandır, asqırmaq isə Allah-Təala tərəfindəndir.»[89]

Əsnəmək süstlüyə, yuxulu olmağa və bədənin fəaliyyətə hazır olmamasına işarədir. Amma asqırmaq Allahın rəhmət və lütfünün müjdəsi olub, insanı işə fəaliyyətə şövq edir. İslamın əziz Peyğəmbəri (s) bir hədisdə buyurub:

العطا س للمريض دليل على العافيه والراحة البدن

«Xəstənin asqırmağı, onun üçün salamatlıq nişanəsi, bədən üçün xeyir və rahatlıqdır.»[90]

İmam Sadiqdən (ə) rəvayət olunub:

و صاحب العطسة يأمن الموت سبعة ايّام

«Asqıran şəxs yeddi gün ölümdən amandadır.»[91]

Asqırmağın mənəvi təsiri haqqında İmam Rzadan (ə) nəql olunub: «Allah-Təala, bəndəsinə bir nemət versə və

---

[88] «Xurşide-İslam çegune derəxşid?», səh: 80.
[89] «Biharul-ənvar», c: 76, səh: 80.
[90] Həmin mənbə.
[91] «Biharul-ənvar», c: 60, səh: 363.

o, nemətin şükrünü unudsa, Allah onun bədənində (ag ciyərdə) bir yel yaradır ki, bu da asqırmaq vasitəsilə onun burnundan xaric olur. O, asqırdıqdan sonra «Əl-həmdulillah» deyir və Allah da onu, bəndənin unutduğu şükrü olaraq qəbul edir.»[92]

فيكون حمد ه عند ذلک شكرا لما نسى

## *ÜZƏRRİYİN FAYDALARI VƏ TÜSTÜSÜNÜN TƏSİRİ*

«Səfinətul-bihar» kitabında Xatəmul-ənbiyanın (s) belə buyurduğu rəvayət olunur:

ما انبت الحرمل من شجرة و لا ورقة ولا ثمرة الا و ملک موكل بها حتى تصل إلى أو تصير حطاما، و انّ فى حبّها الشفا ء من اثنين و سبعين داءً فتدا و وابها و با لكندر

«Bir üzərrik bitmir ki, birinin əlinə düşüncə, yaxud çürüyüncə onun hər bir buta, yarpaq və dənəsində bir mələk vəkil olmasın. Onun kökündə və budaqlarında bir sirr gizlənmişdir, dənəsində yetmiş iki dərdin şəfası vardır. Elə isə onunla buxur[93] edin, özünüzü üzərriklə müalicə edin.»[94]

Başqa bir rəvayətdə deyilir: «Peyğəmbərlərdən biri öz ümmətinin qorxaqlığından Allahın dərgahına şikayət etdi. Allah ona belə vəhy göndərdi:

مر امّتک بأ كل الحرمل

«Ümmətinə əmr et ki, üzərrik yesinlər.»[95]

---

[92] «Əl-Usul min əl-kafi» c: 2 səh: 304, həd: 3671, bölmə: Etas vəl-təsmit.
[93] Dini ayinlər zamanı yandırılan ətirli qətran.
[94] Səfinətul-bihar, c: 2, səh: 160; həmçinin, Daneşname-ye əhadis-e pezeşki, c: 2, səh: 283. Bundan başqa rəvayət də vardır
[95] Həmin mənbə.

İmam Sadiq (ə) üzərriyin olduğu ev haqqında buyurub:

انّ الشيطان ليتنكّب سبعين داراً دون الدّار التى هو فيها، و هو شفاء مَن سبعين داءٍ اهونه الجذام فلا تغفلوا عنه

«Şeytan, üzərriyin olduğu evdən, yetmiş ev qədər uzaqlaşar. Üzərrik yetmiş dərdin dərmanıdır ki, onlardan ən kiçiyi cüzamdır. (Elə isə) Ondan xəbərsiz olmayın!»[96]

Bu hədislərdə üzərriyin yeyilməsi və onun dərman bitkisi olduğu haqqında söhbət gedir. Tibb də bitkilərlə müalicə üsulunda onun təsirini söyləyir, xəstəliklər üçün ondan istifadə edir. Görəsən, üzərriyi tüstülətmək insanı bədnəzərdən qoruyur, yoxsa bu, xurafatdan qaynaqlanır?

Ayətullah Məkarim Şirazinin cavablandırdığı yeni «İstiftat»-da (xurafata aid olan məsələlər) bu sualın da cavabı deyilib:

Sual: Üzərriyi bədnəzərdən qorunmaq üçün yandırıb tüstülətməyin həqiqəti varmı?

Cavab: Həqiqəti yoxdur. Amma deyirlər ki, havanın çirkini təmizləyir və faydalıdır.[97]

## *ƏQİQƏ HAQQINDA XURAFAT*

«Əqiqə», doğulan körpənin ilk günlərində qoyun və ya dəvənin onun üçün qurbanlıq kəsilməsinə deyilir. Yeddinci gün yerinə yetirilməsi müstəhəbdir. Əgər

---

[96] Həmin mənbə.

[97] «İstiftate-cədid», c: 3, səh: 569, sual: 1593.

yeddinci gün də təxirə düşsə, yerinə yetirilməsi yenə də müstəhəbdir. Hətta övlad həddi-büluğa çatsa, müstəhəbdir ki, özü üçün «əqiqə» etsin.[98]

Əqiqənin müstəhəb omasının sənəd və dəlillərə söykənməsində heç bir şübhə yoxdur. Amma onun üçün əl-ayağı bağlayan xürafat uydurublar ki, bu da insanları zəhmətə salmışdır. Belə görünür ki, bu xurafat bizim dövrümüzlə məhdudlanmayıb, hələ qədim zamanlarda var imiş. Bunu, imam Sadiqdən (ə) olan rəvayətdə görürük:

كان ناس يلطفون رأس الصبىّ بدم العقيقة، و كان أبى يقول: ذلک شرک

«Camaat əqiqənin qanını (yeni doğulmuş) körpənin başına sürtürlər. (Halbuki) Atam isə həmişə deyərdi: «Bu əməl şirkdir!» (Sanki bu qanın öz-özlüyündə qoruyucu olduğuna qail olublar.)

Başqa bir rəvayətdə həzrət bu əməli cahiliyyət sünnətlərdən sayıb ki, İslam da onu nəhy etmişdir.

Bəzilərinin etiqadına görə, əqiqənin əti xüsusi qayda ilə bişirildikdən sonra qonaqlara verilməlidir. Bu da düzgün fikir deyil. Xomeyni deyir: «Əqiqənin ətini bişirilməmiş və ya bişirib paylamaqda ixtiyarlıdırlar. Onu bişirib möminlərdən ən azı on nəfəri dəvət edirək yemək versinlər.»[99]

Bu barədə Ayətullah Fazil Lənkərani deyir: «Əqiqə qurbanlığının sümüklərinin dəfn olunmasının müstəhəb

---

98 «Amuzeşe-fiqh», səh: 366.
99 «Amuzeşe-fiqh», səh: 366.

olması və bəzi yerlərdə bəzi işlərin adət və məşhur olması sübuta yetməyib, sənədə əsaslanmır.»s[100]

## *CAHİLİYYƏTƏ AİD BAŞQA BİR SÜNNƏT – MÜSİBƏTƏ DÜŞMÜŞLƏRİN YEMƏYİNDƏN YEMƏK*

Bu gün müşahidə olunan adətlərdən biri də budur ki, bir müsəlman dünyasını dəyişəndə, dünyadan getmiş (cavan və ya qeyri-cavan) əzizlərinin müsibətindən bir ailənin qəlbi dağlanır və bir sıra yersiz adətlər icra olunur. Bu adətlər şəriətin və əqlin əksinə olmaqla yanaşı, bəzən də zülmə və günaha çevrilir. Misal olaraq:

– Toyu olmamış cavan qız və ya cavan oğlanın cənazəsi kənarında toy xonça və büsatının düzülüb daşınması.

– Ölənin cənazəsi önündə qoyun və ya qurbanlıq kəsmək.

– Əza əhlinin süfrə açıb qonaqlıq verməsi və camaatın o məclisdə iştirakı. Halbuki, dəfndən sonra üç gün əzaya düşən ailəyə yemək göndərmək müstəhəbdir və onların yanında, evlərində yemək məkruhdur. Hətta imam Sadiqdən (ə) olan bir hədisdə nəql olunub:

الاكل عند أهل المصيبة من عمل اهل جاهلية، و السنت البعث اليهم با لطعا م...

«Müsibət əhlinin yanında (süfrəsində) yemək, cahiliyyət əməllərindəndir. İslamın sünnəti odur ki, (onların yeməyini yeməyib) müsibət əhlinə yemək aparsınlar.»[101]

---

[100] «Cameul-məsail», c: 2, səh: 389, sual: 1028.

[101] «Vəsailuş-şiə», c: 3 səh: 237, həd: 3504.

Cəfər ibn Əbu Talibin şəhadət xəbəri çatan zaman Peyğəmbər (s) göstəriş verdi ki, onun ailəsi üçün yemək aparsınlar.

– Camaatın bir-birlərinin nəzərlərini çəkmək üçün əza məclislərini dəm-dəstgahlı təşkil etmələri, beləliklə də, qəm-kədər məclisinin şadlıq-fərəh məclisinə bənzəməsi.

– Cənazənin aparılmasında (şərəfləndirmə) onun qəbri üstə şan-şərəf nümayişi və nəhayət, qəbirin (ad-san üçün) cah-cəlalla düzəldilməsi.

– Mədh deyənlərin, mərsiyəxanların qəlbi dağlanmışlara başsağlığı vermək, səbirlərini artırmalaq yerinə, ürəkparçalayan rövzələr, şeirlər və ağılar oxuması; meyitin keçmiş xatirələrini yada salmaq; dağlanmış qəlbləri yenidən göynədib, müsibət əhlinin dərdini daha da artırır. Sonra da «vaveyla» bərpa olmasına görə xoşlanırlar!

### *ÜÇ GÜNDƏN SONRA BAŞSAĞLIĞI VERMƏYİN!*

Dinimizin əhkamı müsibət əhlinin dərdini təzələyən, qəm-qüssəsini artıran hər bir şeyi, hətta başsağlığı verməkllə də olsa, qadağan etmişdir.

Xomeyninin «Tozihul-məsail» kitabında oxuyuruq: «Dəfndən sonra matəmə düşmüşlərə başsağlığı vemək müstəhəbdir. Amma vaxtı keçdikdə, başsağlığı vermək, onların müsibətini yada salır. Onu tərk etmək daha yaxşıdır.[102]

---

[102] «Amuzeşe-fiqh», səh: 392.

Başsağlığı vermək haqqında əmirəlmöminindən (ə) rəvayət olunub:

التعزيه بعد ثلاث تجديد للمصيبة، و التهنئة بعد ثلاث استخفا ف با لمودّة

«Üç gündən sonra başsağlığı vermək, (əza sahibləri üçün) müsibəti təzələməkdir. Üç gündən sonra təbrik etmək isə dostluğu (azaltmaq) yüngül saymaqdır.»[103]

Çoxlu sayda hədislərdə Allahın həyati əhəmiyyət daşıyan (əlbəttə, məxfi) nemətlərindən biri də, müsibət əhli üçün baş verəni unudmaq xüsusiyyətidir. Bununla da o, baş vermiş müsibətin acısına və qüssəsinə daha rahat dözür, özünün təbii həyatına davam edir!

İmam Baqir (ə) bu barədə buyurur:

انّ ملكا موكلا با لمقابر، فا ذا انصرف اهل الميّت من جنازتهم عن ميّتهم أخذ قبضة من تراب فرمى بها فى آثاريهم، فقا ل: أ نسوا ما رأ يتم، فلو لا ذالک ما نتفع أحد بعيش

«Qəbirlər üçün bir mələk təyin olunub: Meyitin yaxın adamları dəfndən sonra onun cənazəsindən uzaqlaşında, (o mələk) bir ovuc torpaq götürüb onlara səpir və deyir: «Hər nə (ölənə aid xatırələri) görmüsünüzsə, unudun!»

Əgər müsibətdən sonra bu (unutqanlıq) olmasaydı, heç kəs həyatdan faydalanmaz və həyata davam edə bilməzdi.»[104]

---

[103] «Şərhi Nəhcul-bəlağə», İbni Əbil-Hədid, c: 20, səh: 340, həd: 888. Əlbəttə ehtimala görə var ki, üç gün misal olaraq deyilib və məqsəd, səs-küy yatdıqdan sonra (məsələn, bir həftədən sonra) başsağlığı verməməkdir.

[104] «Vəsailuş-şiə», c: 3, səh: 278, həd: 3647.

İndi isə öz vəziyyətimizi nəzərdən keçirək; məclislərimizi neçə təşkil edirik, necə başsağlığı veririk, necə qəlbidağlanmışların qəlbini ağradırıq?!

Bu söhbətin üstündən keçək! bu müxtəsər mövzu onun yeri deyil.

Bir ciyər qanırdır bu şərhi-hicran,
Dayan! Danışarıq bir başqa zaman!

## *İMAM HÜSEYNİN (Ə) ƏZA MƏCLİSLƏRİNDƏ XURAFAT VƏ ƏSASSIZ RƏVAYƏTLƏR*

Həzrət Hüseyn (ə) şiə və aşiqlərinin hər birinin qəlbini ağrıdan əza məclislərində xurafatın və Kərbəla hadisəsi haqqında çoxlu sayda təhriflərin əmələ gəlməsi, insanı incidən, təəssüf doğuran məsələlərdəndir. İş o yerə çatıb ki, böyük alimlər deyiblər: «... Yeri var ki, Aşuranın özü üçün bir aşura tutulsun.»

Xoşbəxtlikdən İslam aləminin ürəkyanan, uzaqgörən böyük alim və mütəfəkkirləri bu rəva olmayan məsələlərə qarşı sakit davranmamış, müxtəlif yollarla onunla mübarizə aparmışlar. O cümlədən;

Əllamə Mirzə Hüseyn Nuri Aşura hadisəsi barəsində xəbərsizcə danışanların dilindən deyilmiş yalanlarla mübarizə mövzusunda «Lölö və mərcan» kitabını yazmışdır.

Böyük islamşünas ustad şəhid Mütəhhəri «Həmase-ye Hüseyni» kitabının «aşura təhrifləri» bölməsində ən yaxşı açıqlama və dəlillərlə bu əyri səmtə yönəlmələrlə mübarizə etmişdir. İnsafla desək, onun bu işi öz

üslubunda az tapılan, yaxud da misilsiz nümunələrdəndir.

### *SEYİD MÖHSİN ƏMİNİNİN AŞURA TƏHRİFLƏRİ İLƏ MÜBARİZƏSİ*

Böyük islahatçı alim Əllamə Seyid Möhsün Əmin Amili (r) bu mübarizə meydanının fəryada səsləyənlərindəndir. Əzadarlıq məclislərində çoxəhatəli hərakata başlamışdı:

1. İslamın şəninə uyğun olmayan məclislərdə iştirak etməkdən çəkinir və bu çəkinmənin səbəbini də bildirirdi.
2. Aşura vaqiəsi və imam Hüseynin (ə) şəhadətini mötəbər rəvayətlərlə bir neçə kitab qələmə almışdı: «Ləvaicul-əşcan», «Əsdəqul-əxbar», «Əd-Durrun-nəzid» və «Əl-Məcalisus-sunniyyə».[105]
3. Şiəni böhtandan müdafiə etmək üçün «Tənziyə» kitabını yazmışdı. Bu kitab, mərhum Cəlal Ali-Əhməd tərəfindən fars dilinə çevrilib, «Əzadarihaye-naməşru» adı ilə Teranda çap olunmuşdur.
4. Məşriqdə olduğu zaman, cavan xətiblər və mərsiyəçilərin tərbiyyəsi ilə məşğul olmuşdur. Bu məqsədlə təhsil almış istedadlı cavanları seçib, onlara düzgün şəkildə mərsiyyə oxumağı öyrətmiş və zəif

---

[105] Kitabların adlarının tərcüməsi: «Yandıran qəmlər,» «Ən düzgün rəvayətlər,» «Nizamlı dəstələr» və «Yaxşı məclislər».

rəvayətlərə əsaslanan qədim mərsiyyə oxuyanların qarşısını almışdı.[106]

Deməli, təhrif, yalan və əsassız dastanlar ilə tanış olmaq üçün bu kitablara müraciət edərək onları tanıyıb çəkinmək lazımdır.

Bu nöqtəni də qeyd etmək lazımdır ki, aşura vaqiəsilə bağlı bu təhrif və əsassız rəvayətlərin yayılmasının məsuliyyəti birinci növbədə alimlərin, rövzəxan, mərsiyyəxan, məddah şair və Kərbəla tarixçilərinin öhdəsinə düşür. İkinci dərəcəli isə məsuliyyəti, bu yalanların, təhriflərin əksinə heç bir münasibət bildirməyən, öz sükutu ilə bu təhriflərin yayılmasına səbəb olan dinləyicilər daşıyır. Halbuki, həqiqi müsəlman əql, məntiq, fərasət gücü və özünün düşüncəsi ilə təhrifləri tanıyıb bacardığı qədər onların qarşısında dayanmalıdır. Buna əlavə olaraq, təkcə məclislərə yüksək səsli deyil, hadisələri düzgün faktlar və sənədlər əsasında danışan məddahlar dəvət olunmalıdır. Əhli-beytin (ə) simasını (Allah eləməsin) həqir, zəlil və ya o böyüklərin şənindən uzaq olan yersiz təriflərlə canlandıranların, o Şəxsiyyətlərin (ə) müqəddəsliyindən özlərinin maddi bazalarını böyütmək üçün bazar açanların yanında deyil, əksinə, Onları düzgün tanıdanların, izzət və əzəmətini xatırladanların yanında oturmalıdırlar.

---

[106] «Tərcumətul-Məcalisus-sunniyyə», müqəddimə, səh: 12. Bu deyilən dörd mübarizə üsulu bizim üçün nümunə ola bilər.

## *2-Cİ BÖLMƏ: BƏZİLƏRİNİN XURAFAT SAYDIQLARI HƏQİQƏTLƏR*

### *SADƏLİKLƏ BİR ŞEYİ QƏBUL VƏ YA İNKAR ETMƏYİN!*

Fitri paklıq, Allahın verdiyi sağlam ağıl insana, kifayət qədər dəlil, etibarlı sənəd və faktlar olmadan, bir şeyi inkar və ya qəbul etməyə icazə vermir. Yersiz və dəlilsiz təsdiq-təkzib etmək, şəriət və əql baxımdan pislənilmişdir.

İnsanın kifayət qədər məlumatı olmadığı, yaxud hiss olunmayan, onun üzləşmədiyi bəzi məsələləri inkar etməsi əqli və şəri baxımdan pislənilib, nəhy olunub. Kifayət qədər araşdırma aparmadan və təhqiq etmədən, əsassız olaraq inkar və təkzib edənlər haqqında Allah-Təala buyurur:

⬀✍♦✉ ☎✃❑⇦✉⊙⓿☒✍ ✍✍☺⍉✉ ⇔⚐⬧⌘
☎✃❑⬈➲⑩⍉♦⬈⑥
🕐⍉❍⍉☺▫🖬⍉➔⍉✉ ✍❍☺⬧⌘◆❒
⬀☠⍉&⌧☜▫🕯♦③ ⬉📖⬆✃③⍉❒▫🕯⬧✍

«(Onlar elm üzündən Quranı inkar etmədilər) Haqqında məlumatları olmadıqları həqiqəti, onlara aydın olmayan bir şeyi təkzib etdilər.»[107]

Əmirəl-möminin (ə) bir rəvayətdə buyurur:

لا تعادوا ما تجهلون؛ فإنّ أكثر العلم فيما لا تعرفون

«Bilmədiyinizlə düşmənlik etməyin! Çünki çox biliklər vardır ki, sizin bilmədiklərinizdədir.»[108]

---

107 «Yunis» surəsi, ayə: 39.

Bu hədisdən belə məlum olur ki, yersiz inkar, insanın inkişafının qarşısını alır və geridə qalmasına səbəb olur. Bundan başqa, bəşərin qürur və təkəbbür üzündən çoxlu məsələləri qəbul etməməsi hələ ilkin təcrübələrdə özünü göstərmişdir. Bir neçə müddətdən sonra isə qəbul etmədiklərini boynubükük, utancverici şəkildə qəbul etmişdir. Bir neçə il bundan öncə dənizin çəkilməsi və çoxalmasının Ay işığı ilə bağlılığına kim inanardı?! İndi isə bu, kamil şəkildə qəbul olunub. Yüzlərlə başqa bu kimi nümunələr göstərmək olar.

## *ƏBU ƏLİ SİNADAN İKİ HİKMƏTLİ SÖZ*

İslamın aləminin və dünyanın böyük filosofu Əbu Əli Sinaya istinad edilmiş dəlilsiz və yersiz təsdiq və inkar etmək haqqında insanı düşünməyə vadar edən iki düşündürücü və hikmətli söz nəql olunmuşdur. O, dəlilsiz təsdiq etmək haqqında deyir:

من تعود أن يصدّق بغير دليل فقد انخلع عن فطرة الانسانيّة ؛

«Hər kəs ona deyiləni dəlilsiz olaraq qəbul etməyə adət etsə, insanlıq fitrətindən xaric olub (ona insan demək olmaz).»

Dəlilsiz və yersiz inkar etmək haqqında deyir:

كل ما قرع سمعک من الغرا ئب فزره فى بقعة الامكا ن ما لم يذد ک عنه قا ـم البرها ن

108 «Mizanul-hikmə», c: 2, səh: 878, həd: 2882.

«Qulağına çatan hər bir qəribə mətləbi inkar etmək üçün düzgün dəlil və elmi sübut olmadıqca, onun həqiqət olacağını mümkün bil.»[109]

Mövləvi bu barədə gözəl deyib:

Belə bir həqiqət vardır, bunu bil,
Nə hər şey haqq deyil, nə batil deyil.
Hər şeyə həqiqət deyən əhməqdir,
Hər şeyə yalan da deyən bədbəxtdir.[110]

Nəticə budur: bir söz, ya nəzər eşitdiyimiz zaman onu tələsik, düşünmədən qəbul və ya rədd etməməliyik. Onu ağıl və dəlillərin işığı ilə müşahidə etməli, nə yüzdə-yüz qəbul, nə də rədd etməliyik. Çünki dünən inkar etdiyimizi sabah qəbul və ya əksinə, bu gün qəbul etdiyimizi sabah inkar edə bilərik.

## *HƏDİSLƏRİ YALAN SAYMAQ ÜÇÜN TƏLƏSMƏYİN!*

Süfyan ibn Səməd deyir: «İmam Sadiqə (ə) ərz etdim: «Canım sizə fəda olsun! Yalançı tanınmış bir şəxs sizin tərəfinizdən yanımıza gəlib bir hədisi nəql etsə, biz onu xoşagəlməz sayıb qəbul etməsək, əməlimiz nə şəkildə olar?» İmam (ə) buyurdu:

يقول لك: إنّى قلت لليل: إنّه نهار، أو للنهّار: إنّه ليل؟

«O sizə deyirmi ki, gecə gündüzdür və ya gündüz gecədir?» Dedim: «Xeyr!»

[109] «Bist qoftar», Şəhid Mütəhhəri, səh: 381.
[110] «Məsnəvi Mənəvi», səh: 304, «İqbal» çapı.

Həzrət buyrdu: «Əgər o, mənim bir söz dediyimi sizə desə, onu yalan saymayın; Əks halda, mənim sözümü yalan saymış olcaqsınız.» [111]

فإن قال لک هذا إنّى قلته فلا تكذّب به، فإنّک إنّما تكذبنى

İmamın (ə) məqsədi, bizim, bir-birinin əksinə olan sözləri tez qəbul etməyimiz deyil. Ehtimala görə məqsəd budur ki, rəvayətin zahircə əqli baxımdan düzlüyü-əyriliyi məlum olsa, onu qəbul və ya rədd etməyə tələsməyək. Çünki mümkündür ki, İmamların (ə) o rəvayətdəki məqsədi, bizim dərk etmədiyimiz, həqiqətini anlamadığımız bir mətləb olsun. Həzrətin (ə) özü də bu buradə İbrahim Kərxiyə buyurur:

ان الكلمة من كلامنا لتنصرف على سبعين وجها لنا من جميعها المخرج

«Bizim dediyimiz hər bir cümlənin yetmiş mənası var ki, onların hər birinin çıxışı (mənası) bizə məlumdur.»[112]

Buna görə də, tələm-tələsik, düşünmədən və kifayət qədər araşdırmadan rəvayət və hədisləri, yaxud da başqa şəriətə aid məsələləri rədd etmək, «ənəl-həqq» deyərək dad-aman etmək olmaz. Şair demişkən:

Bax sözün sirrinə, bax bu bəyanə,
Ağa deyirdi, din deyil əfsanə!

## *HƏDİSLƏRİ TƏKZİB ETMƏYİN AQİBƏTİ*

Böyük hədisçi, mərhum Əllamə Təbatəbai (r) özünün məşhur kitabı «Biharul-ənvar»da [113] «ان حديثهم صعب

---

111 «Biharul-ənvar», c: 2, səh: 211, həd: 110.
112 «Məaniul-əxbar, c: 1, səh: 5, həd: 3.

«مستصعب... و النهی عن ردّ اخبارهم» ünvanında bir bölmə ayırmışdır. Bu bölmədə nəql olunmuş 116 sayda rəvayətlərin məzmunu belədir: «Əhli-beytin (ə) hədislərinin çoxlu mənaları vardır; onları anlamaq çətindir və hədislərin inkar edilməsi şiddətli şəkildə nəhy olmuşdur.»

Bu mövzu əhəmiyyətli olduğuna görə, bir-neçə qısa rəvayətə işarə edirik:

Peyğəmbərdən (s) buyurub:

من كذب علی متعمدا أو ردّ شيئا أمرت به فليتبوّأ بيتا فی جهنم

«Kim qəsdən mənim adıma yalan danışsa və ya mənim əmr etdiyimi inkar etsə, onun üçün Cəhənnəmdə ev hazırlanar.»[114]

Başqa bir rəvayətə buyurub:

من بلغه عنّی حديث فكذب به فقد كذب ثلاثة: الله و رسوله و الذی حدث به

«Məndən bir kəsə bir hədis çatsa və onu təkzib etsə, (hədidsi təkzib etməklə) üç nəfəri inkar etmişdir: Allahı, Onun Rəsulunu (s) və hədisi nəql edəni.»[115]

Əbazər Sadiqeyndən (ə) rəvayət etmişdir ki, buyurub:

لاتكذب بحديث أتاكم به مرجئی و لا قدری و لا خارجی نسبه إلينا، فانكم لا تدرون لعله شیء من الحق فتكذبون الله عز و جلّ فوق عرشه

«Bizə istinad edilən heç bir hədisi; hətta onu sizə mürcii, qədəri və ya xarici nəql etsə də, təkzib etməyin.

---

[113] «Biharul-ənvar», c: 2, səh: 182.
[114] Həmin mənbə, səh: 212, həd: 111, 115, 116.
[115] Həmin mənbə.

Çünki siz onun həqiqətdə bizim hədis olmamağını bilmirsiniz. Mümkündür, bu hədislə yanaşı bir haqqı inkar edəsiniz ki, nəticədə Allahı ərşdə təkzib etmiş olarsınız.»[116]

## *RƏSULALLAHDAN (S) BİR GÖSTƏRİŞ*

Bəzən mütaliə zamanı məsumlardan (ə), yaxud bir şəxsin Peyğəmbərə (s) və ya Əimməyi-əthara (ə) istinad etdiyi hədis və ya rəvayətlə qarşılaşırıq. Onu dərk etmək, inanmaq və qəbul etmək bizim üçün çətin olur, onu qəbul etmək ruhiyyəsinə sahib olmuruq. Buna görə Rəsulallah (s) bu zaman onu dərhal, diqqətsiz, düşüncəsiz və bu fənn üzrə ixtisasçılara müraciət etmədən, inkar etməkdən çəkindirmiş və buyurmuşdur:

من ردّ حديثا بلغه عنّى فأنا مخاصمه يوم القيمة، فإ ذا بلغكم عنّى حديث لم تعرفوا فقولوا: الله اعلم

«Məndən nəql olunan bir hədisi bir kəs inkar etsə, Qiyamət günü onun düşməni olacağam. Məndən sizə bir hədis çatsa və onu anlamasanız, (mənim olub-olmamasını bilməsəniz) onda belə deyin: «Daha doğrusunu Allah bilir!» [117]

Belə hədislərin bu şəkildə vurğulanıb açıqlanmasında, əiməyi-əthərın (ə) məqsədlərindən biri, bəlkə də cahilliyin nişanəsi olan inkar və təkzib ruhiyyəsini müsəlmanlardan uzaqlaşdırmaqdır. Çünki belə bir ruhiyyə ilə Əhli-beytin (ə) həqiqətini, elmini,

---

[116] Həmin mənbə.

[117] «Biharul-ənvar», c: 2, səh: 212, həd: 113.

xüsusən də onların məqam və kəramətlərinə aid olan bölmələri qəbul etmədən, səadət və qurtuluş mənzilinə çatmaq olmaz.

## *QURAN TƏƏCCÜBLƏR VƏ QƏRİBƏLİKLƏRLƏ DOLUDUR*

Əgər insan adi, təbii və gündəlik məsələlərin əksinə olanları inkar edərsə, çox sayda şəri, əqli məsələlərdən, həmçinin kamil və sağlam əqlin heç şübhəsiz qəbul və təsdiq etdiyi din ayinlərindən, həqiqətlərindən əl çəkib uzaqlaşar.

Peyğəmbərin (s) ölməz möcüzəsi olan Qurani-kərim insanı təəccübləndirəcək şəkildə ağıla və təfəkkürə dəvət edən ilahi kitabdan düşüncəsizlik üzündən faydalanmayanları heyvanlar sırasında hallandırmış, hətta ondan daha da alçaltmışdır...

Bəli, əgər Quranı açıb varaqlayaraq onu ötəri mütaliə etsəniz, bu nümunələri oarada müşahidə edəcəksiniz:

– Bəni-İsrail kəsilmiş inək ətini ölünün bədəninə vurdu və o, dərhal dirilib öz qatilini tanıtdı![118]

– Həzrət Musanın əsası dəryanı yardı və oradan keçmək üçün yol açıldı![119]

– Məryəmin pak oğlu İsa atasız dünyaya gəldi![120]

– Yandırıcı od, həzrət İbrahim (ə) üçün sərin olub gülüstana çevrildi![121]

---

118 «Bəqərə» surəsi, ayə: 67-73.
119 «Şuəra» surəsi, ayə: 63.
120 «Ali-İmran» surəsi, ayə: 47.
121 «Ənbiya» surəsi, ayə: 69.

– Üzeyir (ə) peyğəmbər ölümündən yüz il sonra dirildi. Halbuki, onun yüz il bundan öncə olan yeməyi saf və təmiz qalmışdı. Amma mindiyi ulağ çürüyüb dağılmışdı![122]

– Həzrət İsa anasının qucağında hələ doğulduğu ilk günlərdə söhbət edib, camaata möizə oxudu və özünü Allahın peyğəmbəri saydı![123]

– Həzrət Yəqub ömrünün qoca, bədənin süst vaxtında və arvadının doğum qabilliyəti olmadığı halda ( و امرتی عاقرا) Yəhya (ə) adlı övlada sahib oldu[124]

– Əshabi-kəhf 309 il mağarada yatdı və bədəni salamat idi![125]

– Həzrət Süleyman (ə) şanapipik və qarışqa ilə söhbət etdi![126]

– Möhkəm dəmir həzrət Davudun (ə) əlində yumşalırdı və o, öz əli ilə ondan zireh (döyüş paltarı) düzəldirdi! (Səba, 10.)

– Ay, həzrət Məhəmməd (s) üçün iki parça oldu![127]

– Bilqeysin taxtı uzaq ölkədən bir göz qırpımında həzrət Süleymanın (ə) qarşısında hazır oldu.[128]

– Həzrət Nuh (ə) öz tayfasının arasında 950 il təbliğ etdi.[129]

---

122 «Bəqərə» surəsi, ayə: 259.
123 «Məryəm» surəsi, ayə: 30-33.
124 «Məryəm» surəsi, ayə: 4-7.
125 «Kəhf» surəsi, ayə: 25.
126 «Nəml» surəsi, ayə: 18, 19 və 27.
127 «Qəmər» surəsi, ayə: 1.
128 «Nəml» surəsi, ayə: 40.
129 «Ənkəbut» surəsi, ayə: 14.

– Həzrət İbrahim (ə) qoca ikən, əldən düşmüş qoca arvadından övlad sahibi oldu![130]

- Nuhun (ə) tufanında göydən və yerdən elə şəkildə su qaynadı ki, təndirdən çölə od yerinə su daşırdı![131] (و فار التنور)

- Həzrət İsa (ə) ölünü dirildir, kor doğulmuşlara şəfa verir, çarəsiz xəstəliklərə çarə edir, palçıqdan düzəldilmiş quşa üfürməklə onu həqiqi quşa çevirir, qeybdən və camaatın gizlətdiklərindən xəbər verirdi və...[132]

- Səmud qövmü üçün o möhkəm dağın içindən yenicə doğmuş balası ilə birlikdə dəvə çıxdı! (Əraf, 73.)

- Həzrət İbrahimin (ə) daşı kəsən kəskin bıçağı İsmayılın (ə) boğazını kəsmədi! (Saffat, 100-110.)

- Həzrət Musa (ə) əsanı daşa vurdu və daşdan bəni-israil üçün 12 su çeşməsi qaynadı![133]

- Küləyin ixtiyarı həzrət Süleymanın (ə) əlində idi. Onunla uzaq məsafələri qət edib şəhərlərə gedirdi![134]

## *QEYBƏ İMAN – QURANDAN FAYDALANMAĞIN ŞƏRTİ*

Əgər Quran ayələrində, mötəbər rəvayətlərdə, ənbiya və övsiya haqqında sənədə əsaslanan və tarixdə baş vermiş onlarla belə nümunələri saymaq istəsək, Mövləvinin sözü ilə desək:

---

[130] «Hud» surəsi, ayə: 72.
[131] «Hud» surəsi, ayə: 40.
[132] «Ali-İmran» surəsi, ayə: 49.
[133] «Bəqərə» surəsi, ayə: 60 .
[134] «Sad» surəsi, ayə: 36.

Çoxalar, Məsnəvi saydıqca bunu,
Qırx dəvə daşıyıb qurtarmaz onu.

Yaxşı! "Qeyri-adi və qeyri-təbiidir" bəhanəsi ilə onları dərk etmək tutumu olmadığı üçün ağlımızın bu həqiqi, sənədli və dəlilli məsələləri inkar etməyə haqqı varmı?! Bizim ağlımız külli ağıldırmı?! Bütün məsələləri dəqiq, kamil, aydın şəkildə dərk edirmi? Ümumiyyətlə, hər şeyi ağılmı dərk etməlidir.[135]

Əgər belədirsə, niyə Əmirəl-möminin (ə) tövsiyələrində belə buyurur?!:

اتهموا عليه آراءكم ، و و استغشوا فيهِ أهواءكم

«Öz nəzər və rəylərinizi Quranın qarşısında səhv sayın! Quranı deyil, özünüzün saf olmayan təşəbbüs və həvəslərinizi (nəfsani fikirlərinizi) naqis bilib, ittiham edin.[136]

---

[135] Ustad, doktor Əhməd Abidi sinifdə dərs zamanı dedi: «Hər şeyi anlamaq üçün ağlı gərəkli saymaq da xurafatdır. Xurafat haqqında ingilis dilində 90 cildli bir kitab çap olub. Onun müqəddiməsində yazılıb: «Bu 90 cildli kitabı oxuyan kəs, orada yazılmış "Hər şey ağıla əsaslanır" sözünü bu kitabın ən axmaq sözü olacağını deyəcək! Hər şeyin ağıla əsaslandığına etiqadı olan kəs, bütün axmaqlardan da axmaq və nadandır! Biz ruhanilərin mühüm vəzifələrindən bir də budur ki, xurafat və həqiqət arasında olan fərqi aydınlaşdıraq.» («Məbaniye-irfane-İslami» dərsi, Şəhid Səduqi mədrəsəsi, 07.03.1384 (ş))

Təbatəbai də belə deyir: «Hamıdan təəccüblüsü budur ki, dünyanın mədəni və müasir xurafatpərəstləri deyirlər: «Bu gün elmin əsasını hiss və təcrübə təşkil edir!» Bundan başqalarını isə rədd edirlər...» (Tərcumətul-mizan, c: 1, səh: 639)

[136] «Nəhcul-bəlağə», Feyzül-İslam, səh: 639.

Apar bu gözünü satmağa bu dəm,
Çünki görmək üçün deyildir möhkəm.
Elə bir qüsursuz göz gətir ələ,
Qeybi də görməyi bacarsın belə.

Allah kitabının əvvəlində ondan yararlanmanın, faydanlanmağın və hidayət olmağın şərti qeybə iman olduğu da aydın olur:

⌂⌨♉♑◷⬩❶ ➲◨◷⧫☝⬀⌛⬂♑✍✁ ⬧⬥
❀◨⬁③◆❻ ○ ♉❍⓿♉⬝ ○ ❽⯐⑨➔♎
⌘♊⑩✌☽✸☞⟵☺▫◨♉♏♑ . ⧫✗⇦♉♔⯅✐✍✁
⧫♌❑⬉☪♉✌⬁⬩⬉③ ⬯◨⬂⓿⧫⬄⬂♑✍✍⬊✉
⧫ . . .

«O (Quran), bir kitabdır ki, onda heç bir şübhə yoxdur! Pərhizkarları üçün hidayətdir; o şəxslər üçün ki, qeybə iman gətirirlər...»[137]

Qeybə iman gətirmək, zahiri hisslərimizin hüdudundan kənarda olan həqiqətlərə iman gətirmək deməkdir. Məsələn: Allah, məad, dua, vəhy, qeybdən gələn köməklər və s. etiqadlar kimi. Sanki qeybə iman, müsəlmanlıq meydanına daxil olmağın birinci şərtidir. Onsuz ilahi kitabdan, vəhy biliklərindən bəhrələnmək və səadətə çatanların sırasına daxil olmaq olmaz.

## *BƏZİLƏRİNİN XURAFAT SAYDIQLARI HƏQİQƏTLƏRİN BƏYANI*

Başlanğıcda xatırlatdıqlarımızdan sonra bu nəticəyə çatırıq ki, heç bir məsələ, kifayət qədər düzgün sənəd və fakt olmadan rədd və ya qəbul olunmamalıdır.

---

[137] «Bəqərə surəsi», ayə: 2, 3.

## *İLAHİ ÖVLİYALARIN KƏRAMƏTLƏRİNİ XURAFAT GÜMAN ETMƏYİN!*

Bəzilərinin: «Biz heç bir şeyi dəlilsiz qəbul etmirik»-deyə özlərini ağıl və məntiq tərəfdarı saymaq bəhanəsi ilə böyük insanların və övliyanın teyyül-ərz, xəstəyə şəfa vermək, heyvanların dilini anlamaq, gizli olan məsələlərdən xəbər vermək və s. bu kimi kəramətlərini inkar edir, bəzən də onları yalan sayır, hətta məsxərə belə edirlər. Belə şəxslərin cavabını vermək üçün iki filosofun və böyük arifin kəlamına işarə edirik:

Filosof, böyük İslam və dünya alimi Əbu Əli Sina, özü ağıl, məntiq və dəlil müdafiəçilərindən olduğu halda, ilahi övliyanın kəramət və məqamının inkaredilməz olduğu barədə yazır: «Tənbeh» Ariflərdən sənə adət (etdiyimiz) qaydaları alt-üst edən bir xəbər – bir arif, Allahdan yağış istədi və yağış yağdı, yaxud bir xəstəyə şəfa verdi və xəstə sağaldı və ya nifrin etdi və yer, camaatı özünə çəkib uddu... – gəlib çatsa, onu açıq şəkildə qəbul etməmək üçün yolun yoxdursa, dayan və tələsmə! Çünki təbiətdə, bütün bunların baş verməsinə səbəb ola biləcək sirlər vardır. Bəlkə onlardan bəzilərini sənin üçün sayaq?!»[138]

Hafiz necə də gözəl deyib:

---

138 «Cəbr və ixtiyar», Əllamə Məhəmməd Təqi Cəfəri, səh: 305 («Əl-İşarat vəl-tənbihat» kitabından nəql edib, c: 3 səh: 413.

Sən sirr məqamına aşina olsan,
Onda bu pərdədən sirri duyarsan.
Xəbərin yerini soruş sən haman,
Naməhrəmə qulaq olma sən aman.

O böyük irfan və İslam alimi imam Xumeyni (r), irfani məktubunda öz gəlininə yazır: «Qızım! Əgər (onun) əhli olmasan və olmadınsa, arif və salehlərin məqamlarını inkar etmə! Onlarla inadkarlıq etməyi öz dini vəzifələrindən sayma! Onların dediklərinin çoxu, Quranda rəmz və bağlı (şəkildə), əhli-ismətin (ə) dualar və münacatlarında daha aydın deyilib. Biz cahillər onlardan məhrum olduğumuz üçün onların əleyhinə qalxdıq ... Sənə tövsiyə edirəm: qalın hicabdan kənara çıxmağın ilk addımı inkardır ki, o, hər bir qədəm və inkişafına maneədir.»[139]

Əllamə Həsənzadə Amuli də şerin şirin dili ilə belə bəyan edir:

Bu mətləb həm nazik, həm incədir bil,
Gün kimi aydındır, həm aydın deyil.
Allahın qoy versin sənə görən göz,
Tap öz müddəanı budur doğru söz.
İynə dəliyi tək darısqaldır söz,
Sap kimi incədir, onu görsə göz.
Elə nəhəngdir ki, məna cüssəsi,
Yer və göy olubdur onun kölgəsi.
Qurtula bisəydin həva-həvəsdən,
Mənanı seçərdin o xəzinədən.[140]

---

[139] «Rəhe-eşq, nameye-irfaniye-imam be Fatimə Təbatəbai», səh: 35,36.
[140] «İnsan dər orf və irfan», səh: 94. İlahi övliyaların məqamlarını inkar etmək ruhiyyəsində olan kəslərə bu kitabları mütaliə etmələrini tövsiyə

## *TEYYÜL-ƏRZ*

Sual: İnsanlar, «teyyül-ərz» dərəcəsinə necə nail olurlar?! (Məsələn, Qum şəhərində olan bir şəxs imam Rzanın (ə) hərəmini ziyarət etmək üçün Allahdan, onu Məşhədə aparıb çatdırmasını istəyir. Bir neçə addım atır və Allahın köməyi ilə hərəmə çatır!)

Ayətullah Məkarim Şirazi: «Nəfsi təmizləyib özünü kamil şəkildə (mənəvi) düzəltdikdən sonra belə bir kəramət hasil olması mümkündür.

İnsan Allaha qulluq etmək, təqvalı olmaq, günahlardan pərhiz etmək və özünü (mənəvi) düzəltmək uğrunda irəli getsə, həqiqəti görməkdə onun gözü daha da açıq olar. Onlar adi adamlar üçün əlçatmaz olan məsələlərə həll tapırlar.[141]

Əziz Peyğəmbər (s), əshabın arasından bir qrup insan bəzi kəramətlərə təəccüb etdikləri üçün buyurdu:

لو عرفتم الله حق معرفته لمشيتم على البحور و لزالت بدعائكم الجبال

Əgər Allahı tanınması lazımi qədər tanısaydınız, mütləq dəryalar üzərində yeriyib, dua ilə dağları parçalayardınız.[142]

Arif şəxs olan Ayətullah-üzma Behcətin belə dediyi nəql olub: «Keçmişdə Nəcəfdə teyyül-ərzi olmayan

---

edirik: «Məhəbbət iksiri» (Şeyx Rəcəbəli Xəyyatın avtobiografiyası), «Nişansızlardan nişan», «Lahutilərin hüzurunda», «İnsan ürf və irfanda», «Ariflərin demədikləri», «Canan söhbəti»və s.

141 «İstiftate-cədid», c: 3, səh: 610, sual: 1753, 1754.

142 «Kənzul-ummal», həd: 43001. Məhəmməd Rey Şəhrinin «Xudaşünasi» kitabının 488-ci səhifəsindən nəqlən.

tələbə barmaqla göstərilərdi; belə xarüqəladə hadisələr tələbə və alimlər üçün adi hal olmalıdır»[143].

Gözlərin qaralıb, tapıbsa əngəl,
İncə nöqtələrə eyib tutma gəl.

## *İSMİ-ƏZƏMİN HƏQİQƏTİ*

Çoxları ismi-əzəmin hərf və kəlmədən ibarət olduğunu düşünürlər. Guya kim onu tapsa, xarüqəladə işlər görüb, özündən kəramətlər göstərə bilər. Əhli-məna və ariflər, illərlə çəkdikləri riyazət və səylərdən sonra ismi-əzəmi (kəramət və mükaşifələri) əldə edib ondan istifadə edirlər! Amma məsələnin həqiqəti başqa cürdür. Əllamə Təbatəbai deyir: «Hər şeyi dəyişikliyə məruz qoyan ismi-əzəmin kələmlərdən və ya müəyyən anlam daşıyan sözlərdən ibarət olması mahaldır.»[144]

Ayətullah Cavadi Amuli bu barədə belə deyir: «Düşüncənin təsəvvürü ilə meydana gələn və təsəvvür olmadıqda yoxa çevrilən zehni anlam daşıyan və havada dalğalanmaqla yaranan bir kəlmə (və ya adı) ilə xəstənin şəfa tapması, quşun yaranması, ölülərin dirilməsi, əsanın əjdahaya çevrilməsi və bunun kimilər arasında uzlaşma yoxdur. Buna görə də, ismi-əzəmi kəlmələr və anlayışlar arasında axtarmaq nəticəsiz, əziyyət və səmərə verməyən zəhmətdir...»

---

[143] Dər məhzəre-bozorqan», ustad Möhsün Qərəviyan, səh: 74. Teyyül-ərzin həqiqəti və necəliyi barədə bu mənbələrə müraciət edə bilərsiniz: «Yadnameye-Əllamə Təbatəbai (Mehrtaban), «Ariflər və təsəvvüfçülərin sual-cavabları», Məhəmməd Rza Kaşifi, səh: 125.
[144] «Tərcumətul-Mizan», c: 15, səh: 517, 518.

İsmi-əzəm kəlmə və zehnin anlayacağı bir şey deyil, kamil insanın məqamlarından biridir.[145]

Ali-Məhəmməd (s) alimi həzrət Əli ibn Musər-Rza (ə) buyurur:

انّ "بسم الله الرحمن الرحيم" أقرب إلى اسم الله الأعظم من سواد العين إلى بيضاه

«Bismillahir-rəhmanir-rəhim», ismi-əzəmə gözün qarasının ağına olan yaxınlığından da yaxındır.»[146]

Bu hədis, yuxarda deyilənlərin sədaqətli şahididir. Çünki çoxları «Bismillah» deyirlər, amma o mənəvi məqama sahib olmadıqarı üçün ismi-əzəmin təsirlərini müşahidə edə bilmirlər.[147]

Bu mövzunun sübutu üçün başqa bir nümunə, həzrət Musanın (ə) əsrində yaşamış Bələm Bauradır. O, elm və təqva nəticəsində ismi-əzəmi anlamış və duası qəbul olmuşdu. Nəfsani istəklərinə görə bu məqam ondan götürülmüş və daha duası qəbul olmamışdı. Qurani-kərim onu itə bənzədib:

فمثله كمثل كلب

«İlahi adları və sifətləri bilmək (öz-özlüyündə) fayfdasızdır və heç bir şeyi həll etmir.»[148]

Üzük Süleymanın deyilsə əgər,
Gümüş nəqşləri daşımaz dəyər.

---

[145] Əlbəttə, bəzi rəvayət və dua və s.-in zahiri elə şəkildədir ki, onların müəyyən bir tərzdə izah olunması lazımdır. «Ədəbe-fənaye-muqərriban», c: 3 səh: 356.

[146] «Nurus-səqəleyn», c: 1, səh: 8.

[147] «Ədəbe-fənaye-muqərriban» («Cameyi-kəbirə» duasının şərhi) c: 3, səh: 352-355. «Pəyame-Quran», c: 4, səh: 56.

[148] «Əraf» surəsi, ayə: 176.

Başqa bir təsdiqləyicisi (Bir alim, bir arifdən nəql edir) Hacı şeyx Həsənəli İsfahani soruşdu: «Camaatın həll olmayan müşkülləri və çarəsiz xəstəlikdən sağalmaları üçün qəndə, nabata və başqa əşyalara oxuduğunuz duanı bizə öyrədə bilərsiniz?!»

Hacı Şeyx dedi: «Fövqəladə və təzə bir şey deyil, təkcə bir «Həmd» oxuyuruq!» [149]

Hamının əzbər bildiyi və hər gün neçə dəfə oxuduğumuz «Həmd» surəsini oxuyurlar! Bəli!

Baharın adıyla güllər ki, bitməz,
Çırağın adıyla qaranlıq getməz.
Onun adını yox, özünü axtar,
Ay göydə, ney isə sularda olar.

## *BƏZİ CƏSƏDLƏRİN ÇÜRÜMƏMƏSİ*

Filan alimin və arifin, şəhidin və ya imamzadənin cəsədinin saf-salamat,, təzə qalmasını; məsələn, Şah İsmayılın, imam Hüseynin (ə) tövbəkar və fədakar əskəri olan Hürr ibn Yəzid Riyahinin cəsədini qəbirdən saf çıxarması və bu qəbildən hekayələri bəlkə də kitablardan oxumusuş və ya alimlədən, moizə edənlərdən eşitmişsiniz.

Görəsən, bu kimi söhbətlərin düzlüyü barədə dini mənbələrdə dəlil və sənəd varmı?! Belələrinin bədəni digərlərindən fərqlidirmi?! Onların əməlləri bədənlərinin saf qalmasında təsirli olmuşdurmu?!

Bəzilərin əqidəsinə görə, bunlar da xurafatdır, həqiqət hesab olunmamalıdır. Biz bu mənəvi

---

[149] «Nişani əz bineşanha», c: 2, səh: 46.

söhbətlərin həqiqət olmasını sübuta yetirmək üçün bir neçə rəvayətə istinad edirik:

İmam Sadiq ələyhis-salam buyurub:

انّ الله عزّ و جلّ حرّم عظامنا على الأرض و حرّم لحومنا على الدّود ان يطعم منها شيئاً

«Allah bizim sümüklərimizi yerə, ətlərimizi qurdlara haram edib (ki,) ətimizdən heç vaxt bir şey yeyə bilməzlər.»[150]

Biz şiyələrin və əhli-sünnənin hədis mənbələrində bunu təsdiqləyən başqa hədislər də vardır ki, onlardan təkcə biri ilə kifayətləndik.

## *ON DƏSTƏ ADAMIN CƏSƏDİ QƏBİRDƏ ÇÜRÜMÜR!*

Məsumdan başqa şəxslərin də bədənlərinin çürüməməsi barədə bir rəvayəti nəql etməklə kifayətlənirik:

(Qütbuddin Əbul-Həsən) Səid ibn Həbbətəlah Ravəndi[151] dəyərli «Ləbbul-lubab» kitabında məsumdan (ə) nəql edir:

لا تبلى عشرة:

On qrup adamın cəsədi qəbirdə çürümür:

1. Cihad edənlər (الغازى)
2. Azan deyənlər (والمؤّذن)
3. Alimlər (والعالم)
4. Quranı əzbər bilənlər (وحامل القرآن)

---

[150] «Mən la yəhzuruhul-fəqih», c: 1, səh: 191, həd: 581, bölmə: Ən-Nəvadir.

[151] 573-cü ildə (h) vəfat etmişdir. Məzari-şərifi həzrət Məsumənin (ə) pak hərəmində xassə və ammənin ziyarətgahına çevrilmişdir.

5. Şəhidlərin (والشهيد)
6. Peyğəmbərlər (و النّبىّ)
7. Doğuş zamanı ölən qadın (و المرأة اذاماتت فى نفاسها)
8. Zülm ilə (məzlumcasına) öldürülən şəxs (ومن قتل مظلوما)
9. və 10. Cümə günü və ya cümə axşamı ölən şəxs ( و من مات يوم الجمعه أو ليلتها)

**Diqqət:** Nübüvvət istisna olmaqla, bu hədisdə işarə olunanlar (mütləq onların çürüməməsi) üçün tam səbəb (illəti-tammə) sayılmır. Bunlar «müiddat»-dır, yəni bunlardan biri olsa, şəxs özünün pis əməlləri ilə bu keyfiyyəti aradan qaldırmadığı təqdirdə onun bədəni qəbirdə çürüməyəcək.[152] Məsələn, alimin, azan deyən və cihad edənin bədənləri elm, azan və cihadın mahiyyətinə görə qəbirdə çürümür; bu şərtlə ki, bu mahiyyəti aradan qaldıracaq bir günah etməmiş olsun. Bir çırağın nefti iki saat yanıb işıq və istilik verə bilər. Amma bu şərtlə ki, külək əsib bu keyfiyyəti aradan qaldırmasın.

Quranda da cəsədlərin çürüməməsinə şahidlik edən ayələr vardır. Məsələn, Əshabi-kəhfin və Üzeyir (ə) peyğəmbərin dastanı. Öldükdən yüz il sonra Allah-Təala ölüləri necə dirildəcəyini göstərmək üçün onu dirildir. Təəccüblüsü budur ki, bu yüz ildə onun yeməyi dəyişməmiş və çürüməmişdi.

فانظر إلى طعامك و شرابك لم يتسنّه

[152] «Əcsade-cavidan», səh: 21. Bu kitabda peyğəmbərlərin və övliyanın (ə) cəsədlərinin saf qalması haqqında 136 fakta işarə olub.

«Xörək və içməyinə bax! Xarab olmamışdır»[153].

## *İNSAN NÜTFƏSİNİN BAĞLANMASI ƏRKANI XURAFAT DEYİL!*

İnsan, Allahın yaratdıqlarının və varlıq aləminin ən təəccüblüsüdür. Onun başdan-başa sirlər və təəccüblərlə doğumu, həyatı və ölümü hamını heyrətə salır. Bu sirlərdən ən mühümü insanın ana bətnində, o xüsusiyyətdə olan nütfədən yaranmasıdır. Allah-Təala Quranda dəfələrlə bizi onu xatırlamağa və ibrət almağa çağırıb:

▪☠♉✌ ⇦♊🕔❁○☼💣❝🕶✂ ❖❷⇧➔✡◆⓿▫🖬⬧▫
🕮⬀✏🕶☐✌ ♊♉✌ ⧫📪♐🖬⬀⌘ ⧫📪♐🖬⬀⌘
⇗✗⇖✓⧫📨 📭♊♉✌ ⇦●⬉❷⬂③⬧⑥ ♒📪♉▫✂⬜⑩
🖬⬀✶✏✂◆❸⅄✋♒🕶✂ ⇗ ⇗🖬▫🖬❺🕐♒🕶✂
. . . ◆❒

«İnsan baxmalıdır ki, nədən yaranıb?! Bir sıçrayan sudan yaranıb. (O su) Bel və sinənin arasından xaric olur».

İnsanın yaranışı və onun nəslinin davamı məsələsi bəzilərinin təsəvvür etdiklərinin əksinə olaraq asan deyil, təkcə şəhvəti söndürməklə xülasələnmir. Bu mövüzunun əhəmiyyətini Xacə Əbdullah Ənsari kimi şəxslər yaxşı anlayıblar. O, deyir: «Hamı axırından qorxur, Abdullah əvvəlindən.»

---

[153] «Bəqərə» surəsinin 259-cu ayəsində Üzeyr (ə) peygəmbərin dastanı kamil şəkildə verilmişdir.

## *İNSAN TƏMƏLİNİN ƏHƏMİYYƏTİ*

Mərifət əhli deyir: «Kim hər nədirsə və olmalıdırsa, işin əvvəlindən məlumdur...» Çünki hər şəxsin kitabı elə əvvəldə yazılıb-bükülmüşdür ki, onlar, onun ömrünün axrınadək üzə çıxıb aydın olur; bunun cəbr və ixtiyarın olmamasına olan inancla çox təfavütü vardır. Məsələn: bir ağac kimi; onun səmərəsinin necəliyi, toxumundan asılıdır.

Bil ki, hər körpənin ilk ibtidası,
Göstərir necədir onun siması.
Ata-anasının tapdığı xislət,
Onun nütfəsini bəzəyər əlbət.
Atası qazansa, süd versə ana,
Ya zəhər, ya şəkər tökərlər ona.[154]

Dinimizdə bu mövzuya əhəmiyyətli dərəcədə diqqət yetirilidiyinə görə, onun bütün qayda-qanunları, o cümlədən; nütfənin bağlanması, vaxtının təyin edilməsi açıqlanmışdır. Təəssüflər olsun ki, bəziləri onu xurafat və lağlağı sayır, ona əməl etməyi ağılsızlıq hesab edirlər. Onu orta əsr adamlarına aid edirlər. Halbuki, bu, İslamın diqqətini, həssaslığını və uzaqgörənliyini gösrərir. Onun bir çox məziyyətlərinin həqiqət olduğu müasir elm və bilik tərəfindən qəbul olunur və təsdiqlənir.

Bu mövzunun həqiqətini və əhəmiyyətini daha da aydınlaşdırmaq üçün bu barədə təkcə iki elm əllaməsi ustad Ayətullah Həsənzadə Amulinin bir sözünə işarə

[154] «Şərhe-dəftəre-dele Həsənzadə Amuli», c: 2, səh: 382.

edirik: «Zamanların fərqliliyi, müxtəlif bəlalar, ulduzların vəziyyəti, valideynlərin əhvalı, yeməklər, içməklər və minlərlə başqa amillər nütfənin mizacında dəxalətlidir...»[155]

## *NÜCUM (ASTROLOGİYA) ELMİNİN HƏQİQƏTİ*[156]

Məhəmməd ibn Yəhya Xəsəmi imam Sadiqdən (ə) nücum elminin həqiqətinin olub-olmaması barəsində soruşdu. Həzrət (ə) cavabında buyurdu: «Bəli, həqiqəti vardır.» Başqa bir rəvayətdə buyurub: «Nücum elmi ilahi peyğəmbərlərin elmlərindəndir.»[157]

هـو علـم مـن علـم الانـبـيـاء

Həzrət Əli (ə) də bir rəvayətdə buyurub:

ايّا كم و التكذيب بالنّجوم فانّه من علوم النبوّه

“Nücum elminin həqiqətini inkar etməyin! Çünki o, peyğəmbərlik elmlərinədir.”

Qurani-kərimdə də bu barədə söhbət açılıb. O cümlədən, «Saffat» surəsinin 88-89-cu ayələrində və İbrahimin hekayəsində (ə) deyilir:

❼⍉× ☪❑♦❷⇳→♦☼ ♦❷⬧→❑✡⬧◻
❼⍉❑❄⍉☽ ♦✌☺⬧☽⬧◻ . ⍣✈❑→☓☞✡⚙☺✁
⮘☹⬈✍☽⍓☞

«**İbrahim ulduzlara xüsusi (bir baxışla) baxdı və dedi: «Mən xəstəyəm.**»

---

155 «Xəyrul-əsər dər rədde-cəbr və qədər, səh: 144.

156 Nücum elmi iki qismdir: Birinci riyazi nücumdir ki, (heyət) ulduzların və planetlərin hərəkət və vəziyyəti, həmçinin bu qəbildən olan məsələri araşdırır. İkinci əhkami nücumdur ki, onun öyrənilməsi nəhy olunmuşdur. Eyni zamanda onun həqiqəti də qəbul olunub.

157 «Tərcumətul-Mizanul-hikmə», c: 13, səh: 6234, həd: 20017, 20018.

Ustad Əllamə Təbatəbai bu ayənin təfsirində deyir: «Şübhəsiz ki, bu iki ayənin zahiri, sanki İbrahimin (ə) öz xəstəliyindən xəbər verməsinin onun ulduzlara baxması ilə bağlılığı vardır və bu baxışa əsasən belə bir sözü deyir. Bu baxış, ya saat və vaxta görədir. Məsələn, malyariyaya yoluxmuş şəxs, hərarətinin başlanmasını bir ulduzun çıxması və ya batması ilə, yaxud ulduzların xüsusi durumuna əsasən müəyyən edir. Yaxud da gələcəkdə baş verəcək hadisələri müəyyən etmək üçündür; münəccimlərin etiqadına əsasən, səmanın durumu bunları bildirir...»

## *MÜNƏCCİMLƏRİN SÖZÜ ETİBARLIDIRMI?!*

Deməli, nücum elminin həqiqət olması və peyğəmbərlərin (ə) elmindən sayılması şübhəsizdir. Məsum olmayan və bu elmi öyrənmiş münəccimlərin sözünə etina edib onların gələcək proqnozlarını qəbul etmək olarmı?! Əllamə Təbatəbai bu sualın cavabında deyir: «Münəccimlərin bəzi mətləbləri, (o cümlədən, zahiri baxımdan şəriətlə zidd sayılan günlərin nəhs və uğurlu olması) etibarsızdır. Əmirəlmömininə (ə) mənsub bir divanda («Nəhcül-bəlağə») deyilir: «Həzrət (ə) Siffeyndən qayıdanda və Nəhrəvana getmək istədikdə bir münəccim İmama belə dedi: «Bu gün (səfərə) çıxmaq olmaz». Həzrət (ə) beytlər (şer) qoşdu və onun sözünə etina etmədi."[158]

---

[158] «Nəhcul-bəlağə», xütbə: 79; «Biharul-ənvar», c: 33, səh: 362, rəvayət: 596, c: 58, rəvayət: 257.

Münəccimlər öz təcrübələri üzündən müəyyən məsələləri deyir, tarixi hekayə də nəql edirlər.

Mərhum Xacə Nəsrəddin Tusi səfərlərinin birində bir dəyirmana çatdı və gecə orada qalmalı oldu. Hava münasib olduğu üçün göstəriş verdi ki, onun yerini çöldə salsınlar. Dəyirmançı ona dedi:

– Bu axşam yağış yağacaq. Yaxşıdır ki, dəyirmanın içində yatasan.

Xacə dedi:

– Haradan bilirsən?

– Mənim bir itim var; yağış yağacağı axşamlarda dəyirmanın içində yatır. Bu axşam da dəyirmanın daxilin də yatıb.

– (Nücum elminə əsasən bir hesablama apardı) Xeyr, bu axşam yağış yağmayacaq.

O, dəyirmanın çölündə yatdı. Gecədən bir qədər keçdikdən sonra buludlar aşkar oldu və yağış yağdı. Xacə dəyirmanın içinə keçməyə məcbur oldu. Dedi: «Allaha şükür ki, bir it qədər də elmimiz yoxdur.»[159]

### *DUA YAZANA MÜRACİƏT ETMƏK*

Bəziləri öz problem və çarəsiz dərdlərinin həlli üçün dua yazana müraciət edib, xüsusi dualar alır, əvəzində də duayazana zəhməthaqqı verirlər! Görəsən bu, şəriətdə qəbul olunurmu?! Bunda heç bir eyib yoxdurmu?!

---

[159] «Əllamə Təbatəbainin hüzurunda», səh: 252, 253.

İlk olaraq xatırlatmaq lazımdır ki, müxtəlif məqamlarda duanın təsirə malik olmasında şəri və əqli baxımdan heç bir şəkk-şübhə yoxdur.

Ziraə nəql edir: «İmam Baqir (ə) mənə belə buyurdu: «İstəyirsən, sənə elə bir (yol) göstərim ki, (hətta) Rəsulallah (s) da ondan istisna deyil?» Dedim: «Bəli.» Buyurdu:

الدّعا يردّ القضاء و قد ابرم ابراما و ضم اصابعه

«Dua, (baş verəcəyi labüd olan) qəza-qədəri qaytarır (dəyişir).»

Sonra Həzrət (ə) mütləq qəzanı bildirmək (vəsf etmək) üçün barmaqlarını bir-birinə yapışdırdı.[160]

## *HƏKİMLƏRİN BAXIŞINDA DUANIN TƏSİRİ*

Müasir elm və bilik, xəstəlik və bəlalar zamanı dua və münacatın təsirini qəbul edir və təsdiqləyir. Amerkanın Boston əyalətində yerləşən institut doktoru Hobert Neyson «Dua ilə dərman etmək» mövzusu barədə olan konfransda deyib: «Dua etmək beyini işə salır, insanda immun çatışmamazlığı virusunun mənfi nəticələrini azaldır, qan təzyiqini aşağı salır və sonsuzluğu müalicə edir. Duanı təkrar etmək zərərli fikirləri beyindən çıxarır və bununla da, çoxlarını özündə fizioloji dəyişilik yaratmağa nail edir.»[161]

---

[160] «Mizanul-hikmə», hədis: 5545. Dua, onun təsir və necəliyi barədə ehtimal olunan suallar «Cənge-Sərneveşt» kitabında təfərrüatı ilə izah olunub.

[161] «Həftenameye-sobhe sadeq», № 109, 23.04.1382-ci il (şəmsi).

Elm və bilik inkişaf etdikcə, İslam dinin göstərişlərin daha da aydınlaşmasına görə xoşhalıq.

Çünki zaman keçir, təzə köhnəlir,
İslam dövr-dövr hey təzələnir.

## *DUA YAZMAĞIN MƏRCEYİ-TƏQLİD NƏZƏRİNDƏKİ HÖKMÜ*

**Sual:** Fal və (onların nəzərincə) problemi həll etmək üçün müəyyən məbləğ pul almaqla dua yazmaq cayizdirmi? Onun şəri əsası varmı?

**Cavab:** Fal, xurafat işlərindəndir. Amma dua, bir qrup adamın yazdığı qondarma dualar deyil, rəvayətlərdə deyildiyi surətdə təsirə malikdir.

**Sual:** Əgər bir şəxs bəzi kitablarda deyilən baş ağrısı şəfaı və s. üçün dua yazıb, qarşılığında pul alsa, hökmü nədir?

**Cavab:** Deyilən iş üçün pul almağın eybi yoxdur. Amma öncə müəyyən olunması lazımdır və ya zəhməthaqqından çox olmamalıdır.[162]

## *ŞÜBHƏLİ DUALAR VƏ ONLARIN MƏZMUNU*

Dua kitablarında olan bütün dualara etimad etmək olarmı?! Bəlkə bu duaların hamısının sənədi lazımi qədər araşdırılmayıb və ya araşdırılıbsa da, xəbərimiz yoxdur. Lakin duanın ən yaxşı şahidi onun məzmunudur...

---

[162] Bu sualın cavabını Ayətullah Həmədanidən nəql etdik. "Dini suallara cavab", c: 1, səh: 107

Məzmununu dərk edə bilməyəcəyimiz dua ilə üzləşdikdə, ixtisasçıya müraciət olunmalıdır. Əgər onda İslamla ziddiyyət tapılmasa, onu oxuyuruq. Çünki duanın sənədinə bundan artıq diqqət yetirməyimizə ehtiyac yoxdur. Bu məzmunda çox sayda rəvayət vardır:

«Xeyir əməl tövsiyə edən bir rəvayət gördüyünüz zaman onu savab ümidi ilə yerinə yetirə bilərsiniz.»[163]

**Sual:** Yazıçıların «Qədim kitablarda nəql olunub»-deyə iddia etdikləri duaların hökmü nədir? Bu dualar şəri baxımdan etibarlıdırmı? Mərceyi-təqlidlərin bu barədəki hökmləri nədir?

**Cənab Xamenei: «**Əgər dualar Məsumlardan (ə) nəql və rəvayət olubsa və ya məzmunu haqq olsa, onlara təbərrük etməyin eybi yoxdur. Həmçinin, məsumdan (ə) olması ümidi ilə şübhəli dualara təbərrük etməyin də eybi yoxdur.»

## *QƏRİBƏ ELMLƏR*

Qəribə elmlər, elm və biliyin bir növünə deyilir ki, başqa elmlər kimi öyrənilib əldə olunmur. Onların həqiqətini əldə etmək üçün xüsusi şərəait ehtiyac vardır ki, bu da nadir fərdlərdə ola bilir.

Bu elmlərin daha çox beş qismi yayılmışdır: Simiya, Limiya (Təsxirat), Himiya (Tilsimat) Rimiya və Kimya.

Əllamə Təbatəbai (r) bu elmlərin alimlərindən və ixtisasçılarından biri olan Şeyx Bəhaiyə istinad edərək

---

[163] «İddətud-dai», səh: 9; «Risaleye-Əcvəbətul-istiftat», səh: 344, sual: 1433.

deyir: «Bu beş fənn haqqında olan ən yaxşı kitabı Heratda gördüm. Adı «Kəlləsər» idi, yəni bu elmlərin qısaldılmış şəkildə adları (baş hərfləri): Kimiya, Limiya, Himiya, Simiya və Rimiya.[164]

Qəribə elmlərə aid olan digər bir qism elmlərlərə bunları misal göstərmək olar: Ədad, Hüruf (Cefr), Ovfaq, Meqnatik-tənvim (hipnotizm), Əhzari-ərvah, Zəbər və binat, Nucumi-Əhkami, Rəml, Elmi-təksir və s.[165]

## *QƏRİBƏ ELMLƏRİN ÖYRƏNİLMƏSİ HÖKMÜ*

Bu elmlərin həqiqəti inkarolunmazdı. Amma onları öyrənməyin və istifadə etməyin eybi varmı? Sualının cavabını məraceyi-təqlidlərdən alırıq:

Əli Xameneyi: Hal-hazırda bu elmlərin insanların əlində olan miqdarı, qeybi məsələləri kəşf etmək və onlar haqqında xəbər vermək cəhətdən etimad olunası deyil. Amma cefr və rəml elmlərinin, bir fəsada səbəb olmayacağı təqdirdə, öyrənilməsinin eybi yoxdur.[166]

Cənab ustad Səmədi Amuli «Şərhe-dəftəre-dele-Əllamə Həsənzadə Amuli" kitabında deyir: «Bu qəribə elmlərin «ədad» və başqa cəlbedici şöbələri vardır ki, onların nəhayət nöqtəsinə qədər arxasınca getmək istəyən, gərək külli olaraq hər bir şeydən əlini üzsün.

---

[164] «Tərcumətul-mizan, c: 1,səh: 368; «Bəqərə» surəsi, 102-ci ayənin təfsiri.

[165] Qısa məlumat əldə etmək üçün müraciət edə bilərsiniz: «Kəşkul», Şeyx Bəhai, bölmə: «Ulum və fünun», «Şərhe-dəftəre-dele-Əllamə Həsənzadə Amuli» c: 1, səh: 442, «Təfsirul-mizan», c: 1, səh: 367.

[166] «Risaleye-Əcvəbətul-istiftat», səh: 291, sual: 1231.

Bu sahəyə əl atan şəxslər, onun arxasınca düşərək hər bir şeydən əlləri üzmüşlər; yəni bu bölmələr adamı çəkib aparır."

## *İDDİAÇILARA ALDANMAYIN!*

Mühüm nöqtə budur ki, özünü bu fənnlər üzrə alim adlandıran hər bir şəxsin iddiasına etimad olunmamalı, onlaral sirlər bölüşdürülməməli və kömək istənilməməlidir. Bu şəxslərin əksəriyyəti aləmə car çəkir, öz biliyini kartof-soğan kimi küçə-bazarlarda xərraca qoyurlar. Onlar hiyləgər, dolandırıcıdırlar! İnsanları soymaqla, şumda vədə verməklə öz bazarlarını istiləşdirirlər. Saib Təbrizi deyir:

Kim ki, namərdə açıb əl, dəva alsa əgər,
Nişi-əqrəblə ayaqdan tikanı rəf eylər.

Əgər onlara qarşı çox nikbin olub, Mövləvi demişkən, onları «abırsız cahillər» adlandıraq. Qədimdən deyirlər: «Bilikli düşmən nadan dostdan yaxşıdır! Nadan dost xeyir vermək yerinə, nadanlığı üzündən zərər verər.

Cahil həmdəm olsa sənə yaxından,
Səni yaralayar nadanlığından.

Belə adamlara etimad etməyin, onlara müraciət etməkdən çəkinin!

## *SEHR OYRƏNMƏYİN CƏZASI ÖLÜMDÜR*

Qurani-kərimdə «sehr» kəlməsi və onunla tərkiblənmiş kəlmələrlə rastlaşırıq. Onun həqiqət olması təsdiq olunmuşdur. Misal üçün «Bəqərə» surəsində oxuyuruq:

←♊︎🕐︎⍓︎☺︎⬂︎⓿︎■︎🖬︎←︎♒︎ ♦︎❷︎⌧︎🏙︎•︎🗎︎ ♐︎♦︎✌︎◆︎❐︎
♓︎▫︎✓︎♑︎⮌︎🕐︎◆︎⓿︎⦿︎⌖︎♍︎♐︎✃︎ ⚫︎♊︎⬁︎🗏︎🕐︎⬩︎♍︎◆︎❐︎
♦︎♌︎❑︎←︎☺︎♑︎♋︎🖬︎⍓︎➔︎⬉︎③︎ ☎︎✃︎❒︎⬉︎❷︎⌧︎🏙︎⌧︎✍︎
. . . ♦︎❷︎⬄︎⬩︎⬁︎♌︎❍︎♍︎♐︎✃︎ “□︎♐︎□︎✡︎♍︎♐︎✃︎

«Süleyman heç bir vaxt (əlini sehrə bulaşdırmadı) kafir olmadı; lakin şeytanlar küfr etdilər və camaata sehr öyrətdilər...»

Bu ayədə insanlara sehr öyrətmək, şeytanların kürf etməsinin dəlili kimi tanıdılmışdır.

Sehr elminin öyrənilməsi və istifadəsi oluması İslamda haram sayılır. Əlbəttə, belə bir işlə məşğul olan üçün ağır cəza təyin olunmşdur.

Əmirəl-möminin Əli (ə) buyurur:

من تعلم شيئا من السحر قليلا او كثيرا فقد كفر و كان آخر عهده بربه، وحده القتل الاّ ان يتوب

«Hər kəs az, yaxud çox sehr öyrənsə, karif olar və onun Allahla əlaqəsi bir dəfəlik kəsilər. Tövbə etdiyi hal istisna olmaqla, onun cəsası ölümdür.»[167]

Əlbəttə, sehr elminin öyrənilməsi və istifadəsinə o zaman icazə verilir, hətta bəzən vacib olur ki, sehrbazların sehrini batil və başqalarını xilas etmək üçün olsun.

Bir kişi imam Sadiqin (ə) yanına gəlib dedi: «Mənim sənətim serhbazlıqdır və (bununla) camaatdan pul alıram. Amma indi tövbə etmişəm. Mənim üçün nicat yolu varmı?» Həzrət onun cavabında buyurdu:

حَلِّ ولا تَعقد

---

167 «Vəsailuş-şiə», c: 17, səh: 146; həd: 22207, 22213, bölmə: ticarət.

«(Camaatın düyününü) Aç! Amma (camaatı sehr və cadu ilə) düyünləmə!»

Sual: Sehr öyrənmək və ona əməl etmək caizdirmi? Cinləri, ruhları və məlaikələri ehzar etmək caizdirmi?

Əli Xameneyi: Sehr elmi və onun öyrənilməsi haramdır! Ağıla söykənən və şəri bir hədəflə olduğu halda, istisnadır. Amma ruh, məlaikə və cinlərin ehzarının müxtəlif hökmləri vardır».

### *BƏDNƏZƏRİN HƏQİQİ OLMASINA AİD DƏLİLLƏR*

Qəti olaraq həqiqəti olan, Quran ayələrinin və İmamlardan (ə) nəql olunan rəvayətlərin də təsdiqlədiyi mövzulardan biri də, bəzi insanlarda bədnəzərin olması və onun təsiridir. Misal üçün: «Yusif» surəsində həzrət Yaqubun (ə) qədd-qamətli övladları Misirə hərəkər edərkən onlara belə tövsiyə etdiyi nəql olunur:

•◆ ○⌀⌀♉♦⌛🕔♦③ ♦✌🕶⬩🔔◆❒
🗄☢🕶♦📨 📨♊♌👌 ☎✂❑➔🖬⬀⌘⇳⑨⬩✍
⇳♊♌👌 ☎✂❑➔🖬⬀⌘⬃⑩🕶✂◆❒ 🖮⑨♌■🕔◆❒
... 🖮☐⬩🔔⯐♒❷☒🖽♦☝⑩👌 🗄☢🕔◆❑⬀📨❒🕮

«**Mənim övladlarım! Bir qapıdan daxil olmayın; ayrı-ayrı qapılardan daxil olun!**»[168]

Biharul-ənvarda yazılıb: «Həzrət Yaqubun (ə), övladlarına etdiyi tövsiyə, onların, gözəl və qədd-qamətli olduqlarına görə, gözə gəlmələrindən qorxduğu üçün idi.»[169]

---

168 «Yusif» surəsi, ayə: 67.

169 «Biharul-ənvar», c: 63, səh: 17, rəvayət: 4 ( أنّ يعقوب خاف على بنيه من العين لجمالهم)

Peyğəmbərin (s) sünnəti və Əhli-beytin (ə) hədisləri də, bədnəzərin həqiqət olması barədə başqa bir sənəddir.

Misilsiz hədisçi Əllamə Məclisi, rəvayətləri, alim və hikmətli adamların sözlərini nəql etdikdən sonra bu mövzu barədə belə qənaətə gəlir:

وبالجملة لا يمكن إنكار ذلك رأسا

«Faktlar; Quran ayələri və kifayət qədər hədislərin olması, bədnəzər məsələsinin inkarını mümkünsüz edir. Allah və Onun xəlifələri məsələlərin həqiqətindən agahdırlar.» [170]

Təfsirçi və böyük filosof Əllamə Təbatəbai deyir: «Bədnəzər nəfsani təsirlərin bir növüdür və onun əksinə əqli bir dəlil yoxdur; onu dəstəkləyən hədislər və rəvayətlər vardır. Buna görə də, onu inkar etməyə dəlilimiz yoxdur. Ona, «Bir xurafi əqidədir» deyə bilmərik.»

## *BƏDNƏZƏR – ƏKSƏR ÖLÜMLƏRİN SƏBƏBİ*

İndi isə bədnəzər və onun təsirləri haqqında olan rəvayətlərə işarə edirik:

Rəsulallah (s) buyurub:

إنّ العين لتدخل الرّجل القبرو الجمل القدر

«Bədnəzər insanı qəbrə daxil edər, dəvəni qazana salar.» [171]

İmam Sadiq (ə) buyurub:

---

[170] «Biharul-ənvar», c: 63, səh: 42.

[171] «Təcümətul-təfsirul-mizan», c: 19, səh: 648, «و إن يكاد» ayəsi barəsində yazılanlarda.

لـو كـان شئ يـسبق الـقـدر لـسبقـه الـعـين

«Əgər qəza-qədəri qabaqlayan bir şey varsa, o da bədnəzərdir.»

Başqa bir hədisdə deyilir: «Cəbrayıl (ə) nazil olub Peyğəmbərin (s) yanına gəldi. Onu qəm-qüssəli gördükdə, bunun səbəbini soruşdu. Rəsulallah (s) buyurdu:

«Narahatlığım, Həsən və Hüseynə (ə) göz dəydiyindəndir.»

انّ الـحسنـيـن اصابـتـهـمـا عـيـن

Cəbrayıl (ə) dedi: «Bədnəzər həqiqətdir. Onları bu cümlələrlə qoru...»[172]

Səvfan Cəmmalın imam Sadiqdən (ə) nəql etdiyi bir hədis daha təəccüblüdür:

لـو نـبـش لـكـم مـن الـقـبـور لـرأيـتـم أنّ أكـثـر مـوتـاكـم بـا لـعـين لانّ الـيـن حقّ

«Əgər qəbirlər açılıb həqiqətlər üzə çıxsa, ölənlərin əksəriyyətinin bədnəzərdən öldüyünü müşahidə edərsiniz. Ona görə ki, bədnəzər həqiqətdir.» [173]

## *RƏVAYƏTLƏRDƏ BƏDNƏZƏRİN DƏRMANI*

Bədnəzərin həqiqət olmasını sübut etdikdən sonra onun dərmanını və qarşısını almaq üçün mümkün yolları açıqlayırıq. Bu barədə Əhli-beytdən (ə) çox sayda rəvayət vardır. Onlardan bəzi nümunələrə işarə edirik[174].

---

[172] «Biharul-ənvar», c: 95, səh: 132, həd: 12. Təvizin cümlələri orada deyilmişdir.

[173] «Biharul-ənvar», c: 95, səh: 127, həd: 7.

[174] Təfsilatlı şəkildə məlumat əldə etmək üçün mənbələrinə müraciət edin.

– «Nas» və «Fələq» (müvəzzəteyn) surələrini surələri oxumaq. Bu surələri tilavət etmək, sehr və bədnəzəri dəf etmək üçün təsirli bildirilmişdir.

– Bir şəxsə nəsib olmuş nemət sizi təəccübləndirsə, bu zaman bədnəzərin qarşısını almaq üçün təkbir deyin və Allahı yad edin.[175]

– İmam Sadiq (ə) buyurub: «Hər vaxt bədnəzərdən qorxsanız, deyin:

ما شاء الله لا حول ولا قوّة الاّ بالله العليّ العظيم

(Maşaəllah, la hövlə və la quvvətə illa billahil əliyyil əzim)[176]

– İmam Rza (ə) göstəriş vermişdir ki, bədnəzərin qarşısını almaq üçün «Həmd», «İxlas» və «Müvəzzəteyn» surələrini və «Ayətəl-kürsü» duasını yazıb bədnəzərindən qorxduğu şəxslə öz arasında qoysun.[177]

– İmam Rza (ə) bədnəzər barəsində soruşan adama buyurmuşdur: «Bədnəzər həqiqətdir. Əgər sənə göz dəysə, əllərini üzünün qarşısına tut, ona «Həmd» «İxlas» surələrini və «Müvəzzəteyn»i oxu və əlini üzünə çək ki, bu iş Allahın izni ilə faydalıdır.»[178]

– Başqa bir rəvayətdə nəql olunur ki, evdən çıxan zaman müvəzzəteyni oxumaq, «Və in yəkadul-ləzinə kəfəru» ayəsini tilavət etmək, «Allah, Allah, ma şəallah,

---

[175] «Biharul-ənvar», c: 63, səh: 24, həd: 18.
[176] «Biharul-ənvar», c: 26, səh: 24, həd: 22.
[177] «Biharul-ənvar», c: 26, səh: 26, həd: 23.
[178] «Biharul-ənvar», c: 95, səh: 129, həd: 9.

la həvlə və la quvvətə illa billah» zikrini demək və başqa dualar bədnəzərin qarşısını almaqda təsirlidirlər.[179]

– Bəzi rəvayətlərdə deyilir: «Bədnəzərin qarşısını almaq üçün gözə gəlmiş adam qüsl etsin və əgər göz vuran məlumdursa, dəstamaz alsın.[180]

امر الرسول صلى الله عليه وآله اعيان با لوضوء ، و من أصابته العين بالاغتسال

Bu nümunələri ona görə açıqladılar ki, bir yerdə bu barədə görüb, yaxud eşitdiyiniz zaman onu xurafat saymayasınız.

## *BƏDNƏZƏR HAQQINDA XURAFAT*

Bir qrup adamlar da vardır ki, bədənəzərin qarşısını almaq üçün bir sıra, heç bir etibarlı dəlilə əsalanmayan və əql və vicdanın təsdiqləmədiyi, göstərişlərə bel bağlayırlar. Məsələn, üzərriyi yandırıb tüstülətmək, yaxud da onu bir dəstə halında evin qapısının yuxarısından, maşın və binalardan asmaq, şorluğu vasitəsilə gözün şorluğunu aradan qaldırmaq üçün duz qoymaq, yumurta sındırmaq[181] və gözvurmaları ehtimal olunan şəxslərin adlarını saymaq, bədnəzərin qarşısını almaq üçün maşının təkərləri altına yumurta qoymaq və s...

Bu qondarma məsələlər, bəbnəzərin qarşısını almaqda təsirsiz olub, bəzən də başqalarına böhtan

---

[179] «Biharul-ənvar», c: 95, səh: 133, həd: 12, 13.

[180] «Biharul-ənvar», c: 63, səh: 9, 10.

[181] Mümkündür bu cür işlərlə bəzi məsələlər barəsində xəbər versinlər. Amma bu, şəriətin əksinədir, caiz deyil! («İstiftat əz məhzəre-imam Xomeyni», c: 2, səh: 22 )

atmaq, lazımsız yerə pul xərcləmək, mübahislərin meydana gəlməsi və s. kimi mənfi hallarla nəticələnir.

Xatırladaq ki, bədnəzər çox deyil; belə şəxslər çox azdır. Buna görə də, insan bədnəzərin həqiqət olması bəhanəsi ilə başqalarını günahlandırmamalı və dözülməz əməllər, adətlərlə özü və yaxınları üçün həyatı çətinləşdirməməlidir.

### *BELƏ HƏDİSLƏRİ XURAFAT SAYMAYIN!*

Dəfələrlə bir qrup insan müxtəlif cümlələrlə belə hədislərin həqiqətinin olub-olmadığını, həmçinin xurafatdan sayılıb-sayılmadığını soruşurlar. İbn Əlaqə İmam Əlinin (ə) belə buyurduğunu nəql edir:

ترک نسج العنکبوت فی البیت یورث الفقر

«Hörümçəyin torunu evdə saxlamaq yoxsulluğa səbəb olar».

و البول فی الحمام یورث الفقر

«Hamamda bövl etmək yoxsulluğa səbəb olar».

و الأکل علی الجنابة یورث الفقر

«Cənabət halında yemək yemək yoxsulluğa səbəb olar».

و الیمین الفاجرة یورث الفقر

«Yalandan and içmək yoxsulluğa səbəb olar».

کثرة استماع إلی الغناء یورث االفقر...

«Musiqiyə çox qulaq asmaq yoxsulluğa səbəb olar...»

Peyğəmbəri-əkrəm (s) buyurub:

من سرّه ان یُمدّ ان له فی عمره، و یزاد فی رزقه فلیبرّ والدیه ولیصل رحمه

«Hər kəs ömürünün uzanmasını və çoxlu ruzi istəyirsə, ata-anasına yaxşılıq etsin və sileyi-rəhm yerinə yetirsin.»[182]

Həzrət imam Rza (ə) buyurur:

العقيق ينفى الفقر

«Əqiq (üzük taxmaq) yoxsulluğu aradan qaldırır.»

İmam Sadiq (ə) buyurur:

العقيق أمانٌ فى السّفرِ

«Əqiq (üzük taxmaq) səfərdə əmin-amanlıqa səbəb olar.»

Başqa bir hədisdə buyurur:

مَن تَخَتَّمَ بالعقيق يوشكُ أن يُقضَى لهُ بالحُسنَى

«Əqiq (üzük) taxanın işlərinin xeyirli olacağına ümid vardır».

## *BEŞ AMİL QARŞILIĞINDA BEŞ NƏTİCƏ*

Hədislərdə zəlzələ, ölüm və digər hadisələ, zəkat verməməyin, tərəzidə aldatmağın, zinanın yayılmasının və s. bu kimi əməllərin nəticəsi kimi əlaqələndirilir. Məsələn, «Mutəfəffin» surəsinin ilk ayələri haqqında İbn Abbas belə nəql edir: «Mədinəlilərin çoxu tacir olub, öz aralarında tərəzidə aldadırdılar. Onlardan çoxunun alveri haram idi. Bu ayə nazil oldu. Peyğəmbər (s) onu mədinəlilər üçün tilavət etdikdən sonra buyurdu:

خَمسٌ بخَمسٍ

«Beş şey,beş şeyin müqabilindədir.»

[182] «Mizanul-hikmə», c: 14, səh: 7090, həd: 22671.

Soruşdular: «Ey Allahın Rəsulu! Hansı beş şey, hansı beş şeyin müqabilindədir?» Həzrət buyurdu:

ما نقض قوم العهد الاّ سلّط الله عليه عدوَّهم

1. Heç bir tayfa olmayıb ki, öz əhdini sındırsın, amma Allah onlara öz düşmənlərini həvalə etməsin.

و ما حكموا بغير ما أنزل الله الاّ فشافيهم الفقر

2. Qeyri-ilahi hökmlə hökm edən qrup arasında yoxsulluq çoxalar.

و ما ظهرت فيهم الفاحشة الاّ فشافيهم الموت

3. Heç bir millət olmayıb ki, aralarında zina zahir olduğu halda, aralarında ölüm çoxalmasın.

ولا طفّفوا الكيل الاّ منعوا النّبات و اخذوا بالسّنين

4. Heç bir qrup olmayıb ki, tərəzidə aldatdıqları halda əkinləri məhv olmasın və qıtlığa düşməsinlər.

ولا منعوا الزّكات الاّ حُبِسَ عنهم المطر

5. Heç bir qövm olmayıb ki, zəkat verməyi qadağan etdikləri halda, yağışları kəsilməsin.[183]

Rəvayətə əsasən İmam Sadiq (ə) buyurub:

اذا فشت أربعة ظهرت: إذا فشا الزّنا كثرت الزّلازل...

«Hər vaxt dörd şey çoxalsa, dörd şey üzə çıxar: ... Hər vaxt zina yayılsa, zəlzələlər çoxalar...»[184]

---

[183] «Təfsirul-numunə», c: 26, səh: 243. «Mutəfəffin» surəsinin 1-ci ayəsi barədə.

[184] «Vəsailuş-şiə», c: 8, səh: 13, həd: 10007 (Əbvabu səlatul-istisqa). Xatırladırıq ki, bu hədislərdən bir çoxu Qurana əsaslanır və vəhy məntiqindən qaynaqlanır: Qurani-kərim, Lut qövmünün duçar olduğu ölüm və əzabı onların fisq və fücurları səbəbi ilə baş verdiyini bildirir: ⮵✍⬃♎❐🕮 ✂❼■✍⧫⇖ ☙♍❑⇗♑✆❽ॐ⇖👌 👓✵☼✆✆ ☙⮳✆♓👌 ✂✡❽⇳♉✆❻ ✆❑⧫③⬀❷⬧✆⬂♑✆👓✂ ✆■⬃⓿🕔⏶♎

## *İNSANIN TALEYİNDƏ ROL OYNAYAN İKİ AMİL*

İnsanın həyatına (ruzi, ömür, sağlamlıq və s. baxımdan) təsir edə bilən iki amil vardır:

1. Maddi amillər: İş, çalışmaq, tibbi tövsiyələrə riayət, idmanla məşğul olmaq, üç «ağ şeydən»; duz, xalistrol və şirniyyatdan çox istifadə etməmək.

Əlbəttə, matrialistlər bu və digər maddi amilləri insan taleyinə təsir edə bilən yeganə amil sayırlar.

2. Mənəvi amillər: Sədəqə, yaxşılıq, dua, ata-anaya yaxşılıq, sileyi-rəhm, ilahi neməırlərə şükür etmək və s.

İslam, maddi amillərin insan həyatında daşıdığı təsirləri qəbul edir və onlara riayət etməyə göstəriş verməklə yanaşı, eyni zamanda mənəvi amilləri də insanın taleyində təsirli sayır ki, bu da, qeybə olan imanla bağlıdır.

Əgər bir kəs sağlamlıq və uzun ömür üçün idman, tibbi qaydalara riayət və yeyib-içməyində ehtiyat etməklə yanaşı, ata-anasından küsüb onlara rəhm etməzsə, uzun ömür sürməyə nail olmayacaq. Çünki mənəvi amillər də insanın uzun ömürlü olmasında təsirlidir.

Məşhur bir əhvalat vardır: Mütəvəkkil Əbbasi, bir gecə eyş-işrət məclisində həzrət Fatiməyə (ə) və mövlalar mövlası Əliyə (ə) (nalayiq sözlərlə)

---

☎✁❑🡐☼🕭☒🖏 ✍⍓☺🙲🖅 🙵🡕✐✍⍓☺○○🏵✍✁
♐♍❑🡒◑◐○🡖▦♦③

«Biz bu (şəhərə) yerə, onların günahlarına görə göydən bir əzab nazil edəcəyik!» Bu ayələr də fəsad və zəlzələ ilə nəticələnmişdir: «Ənkəbut», surəsi, ayə: 34, «Nəml», surəsi, ayə: 47-52, «Əraf», surəsi, ayə: 74-78.

hörmətsizlik nümayiş etdirdi. Onun oğlu bu hörmətsizliyə şahid idi. O, olanları imam Hadiyə (ə) danışdı və atasını öldürmək barəsində olan qərarını ərz etdi. Həzrət buyurdu: «Atasını öldürənin ömrü qısalar.» O da cavab verdi: «Mən bu rüsvayçı ömürü, belə bir atanın sayəsində yaşamaq istəmirəm!»

Axşam atasının məclisinə gəldi və onu, vəziri Fəth ibn Xaqan ilə birlikdə Cəhənəmmə vasil etdi. Həzrətin buyurduğu kimi o, altı aydan artıq yaşamadı.»[185]

Bir şair bu barədə belə demişdir:

Böyüklərə hörmət göstərsən əgər,
Sənin uzun ömrün olmaz müxtəsər.

## *ƏTRAFIMIZDAKI GÖZƏGÖRÜNMƏZ VARLIQLAR*

Nəfəs aldığımız mühitin ətrafında gözlə görə bilmədiyimiz, lakin onların mövcud olması həqiqətinə heç bir şəkk-şübhə olmayan varlıqlar yaşayır. Onlardan mələklərə[186] cinlərə və şeytanlara işarə etmək olar. Onları aydın şəkildə təsdiqləyən Quran ayələri vardır. Bəzən o varlıqların bizimlə də işləri olur.

Sən öz aləmində edirsən güman,
Bu yer-göydən başqa yoxdur bir cahan.
Buğdada gizlənmiş bir qurd ki, vardır,
Onun da yer-göyü elə oradır.

---

[185] «İnsan və tale», səh: 77-78; «Məcmueyi-asar» c: 1, səh: 406.

[186] Bir rəvayətə görə, mələklər Allahın yaratdıqları arasında çoxluq təşkil edir, ilahi məxlqatın əksəriyyəti hesab olunur. («Minhacul-bəraət» c: 6, səh: 381; "Məktəb-e kəlam-e Qum"-a istinadən, səh: 143)

«Səhifətus-səccadiyyə» kitabının 3-cü duasında imam Səccad (ə) mələklərin növlərini də saymışdır.

Quranın Qiyamət, vəzifə, cəza və mükafatdan söhbət açılan hər bir yerində Allah-Təala cin və insin adlarını birlikdə demişdir.[187] «Cin» surəsində cinlərdən bir qrupunun müsəlman olmasından, digər bir qrupun iman gətirməməsindən, həmçinin onların yaxşı-pis olmasından söhbət açılıb. Cinlərin cinsi atəşdən olub, erkək və dişiyə bölünürlər. Onlar da başqa canlılar kimi evlənir, doğur, çoxalır və öz nəsillərini davam etdirirlər.

Quranda mələklərin mövcudluğu, onların növləri və necəliyi barədə söz açılıb. Eyni zamanda «şəyatin» adlı məxluqun olması da xatırlanmışdır. Mühüm nöqtə budur ki, Allahın bu məxluqlarının yaradılış və həyatında sirlər vardır. Çox şeydən xəbərimiz olmadığı kimi, onlardan da kifayət qədər xəbərimiz yoxdur. Amma mütləq onların yaradılışında faydalar və təsirlər vardır. Onlar, öhdəliklərində olan vəzifələri yerinə yetirirlər.

Ustad Əllamə Həsənzasə Amuli bu barədə incəliklə çox gözəl deyir: «İlahi! Günəş, Ay və uluzlardan xacələt çəkirəm! İns-cindən xəcalət çəkirəm! Hətta şeytandan xəcalət çəkirəm! Hamı öz işində möhkəm durduğu halda, bunun (mənim əhdim) əhdi süst və davamsızdır!

---

[187] «Zariyat» surəsi, ayə: 56; «Rəhman» surəsi, ayə: 33.
“▪☼💣҉“🙥✂◆❒ ⭘♊⬗♑⬂💻🙥✂ ➔💣⬂☽■🖪⌧⌘ 🙥⧫✌◆❒
⮳♌❒🡐⑨🡐🖮⬀➔◆⓿⍛⍩ ⬩⧫♐☽
⬂▪☼💣“🙥✂◆❒ ⬗♎♊⬗♑⬂💻🙥✂ ◆❸❁⌑⬀➔⌧☺🕔⧫③
☎✂❒⬈⓿➔▦☪⬩✍ ♌❒🕮 ⬃☠🡐☞⬀➔⬩➲⧫✌⬄♋🙥✂ ⮳♌♐☽
...

İlahi! Şeytanın yaradılışında o qədər faydalar və məsləhətlər olanda, mələklərin xilqətində nələr olar?!»[188]

Əlbəttə, xatırladaq ki, cinlərin varlığını sübut etməkdə məqsədimiz, qondarma xurafatı təsdiqləmək; qədim anbarlarda, qaranlıq qəbiristanlarda xəyalən quyruqlu, çəpiş və s. şəkildə təsəvvür olunan kimi tanıtdırmaq deyil. Məqsəd budur ki, xurafat adı ilə reallıq unudulmasın, səbəbsiz yerə həqiqət inkar olunmasın. Mələk və cinlərin vəzifələri barədə çox sayda hədis vardır. Hətta İmamlar (ə) onların dilindən bizim üçün çoxlu moizələr nəql etmişlər.

## *XURAFATI ÖLÇƏN TƏRƏZİ*[189]

Həqiqi və şəri hökm və əqidələri xurafi adət-ənənələrdən ayırmaq üçün etibarlı və düzlüyünə əmin olduğumuz mənbə və faklara müraciət olunmalıdır. Mübahisə doğuran və şübhəli mövzuları onlarla uyğunlaşdırmalı və heç bir vaxt Allah dininin saf həqiqətindən və İslamın düz yolundan irəli və geridə durmamalıyıq. Nə (ifrat) əlavəni qəbul edək, nə də onun bəzi həqiqətlərini kənara qomalıyıq (təfrit etməyək). Ona bir hökm artırmalı və şəri sünnətlərini xurafat saymamalıyıq.

Əgər insanın öz əməl və rəftarını ölçmək üçün etibarlı bir tərəzisi olmasa, düz yolu əyridən, dostu düşməndən, həqiqəti xurafatdan, səhih və doğru hədisi

---

[188] «İlahinamə», səh: 9-14.

[189] Burada deyilən «tərəzi» (mizan) kəlməsi, əşyanı ölçən hər hansı bir miqyas mənasındadır.

yalan və düzgün olmayan rəvayətdən ayıra bilməz! Nəhayət, azğınlıq və puçluğa sürüklənib səadətin aydın yolu və nicatdan məhrum olar.

Miqyasla mizanla qızıl ölçülər,
Mizansız etibar daşımaz heç zər.

Bu barədə İmamlardan (ə) çox sayda rəvayət vardır. Şərəfli kitab olan «Usulul-kafi»-dən bir neçə nümunəni diqqətinizə təqdim edirik:

İmam Səccad (ə) buyurur:

إنّ افضل الأعمال عند الله ما عُمِلَ بالسّنة و إن قلّ

«Allah dərgahında əməllərdən ən yaxşısı, az da olsa, sünnətə uyğun olan əməldir.»[190]

Peyğəmbər (s) buyurub: «Əməlsiz heç bir söz həqiqi dəyərə malik deyil! (Eyni zamanda) Heç bir söz və əməl, niyyətsiz (həqiqi dəyərə malik deyil). Sünnət mizanına uyğun olmayan heç bir söz, əməl və niyyət, həqiqi dəyərə malik deyil!»

لا قول إلاّ بالعمل و لا قول و لا عمل الاّ بنيّة و لا قول ولا عمل و لا نيّة إلاّ بإصابة السنّة

Nəticə budur ki, insanın öz əməl və rəftarı üçün bir mizan və ölçüyə ehtiyacı vardır. Yerinə yetirilən əməl deyilən ölçüyə uyğundursa, az olsa belə, o əməlin dəyəri və qiyməti çoxdur və insanı əyrilikdən, doğru yoldan azmaqdan saxlayır.

---

[190] «Əl-Kutubul-ərbəə», c: 1 səh: 16, hədis: 207.

## *ƏGƏR MİZAN OLMASA, AZARSINIZ*

Hər tərəfdən hücuma məruz qalmış iman və dinin kasad bazarında mizana və etibarlı bir ölçüyə olan ehtiyac barəsində Mövləvinin hikmətli və nəsihətli gözəl bir şeri vardır ki, ondan bir parçanı burada veririk:

Ey könül, tap munisin kim, onda qəlbindən xəbər var,
Bir ağac altında əyləş yarpağında tazə tər var.
Böylə bir əttar bazarı ki, qamış var hər dükanda,
Öylə bir tüccari axtar ki, dükanında şəkər var.
Aldadacaqdır səni hər kəs, yoxundursa tərəzı,
Öylə bir halda bəzərlər, sən sanarsan onda zər var.
Qaynayan hər bir qazandan bir kasa aş gözləmə sən,
Qaynayan hər bir qazanda kim bilirmiş ki, nələr var?!
Olmaz hər yerdə şəkər, zirdə zəbər, gözdə nəzər həm,
Hər məkanda dərya varsa, kim deyir orda gövhər var?!
Bülbüli-şeyda! Yenə məstanələr tək sən fəğan et!
Xar ilə daşlar arası, nalə etsən, çox əsər var.

Diqqət olunmalıdır ki, bu misilsiz şerin üçüncü beytində ölçü üçün tərəziyə sahib olmaq, azğınlıqdan qurtarmağın ümumi bir formulu kimi tanıdılmış və onsuz insanın üzləşəcəyi zərərlər qeyd edilmişdir.

## *SƏQƏLEYN – XURAFAT ÖLÇÜSÜNÜN HƏQİQİ MİZANI*

İndi isə görək doğru yolu göstərən, bizi ifrat və təfritdən qoruyan dəyərli mizan hansıdır?! Aydındır ki, belə bir mizan hər bir xəta və səhvdən uzaq, kifayət qədər etibar daşımalıdır ki, o, bütün müsəlmanların əqidə və əməllərini əminliklə ölçən ülgü olsun. Belə bir

mizan, deyilən şərtlər və qeydlərlə hər biri məsum, səhv və xətalardan pak olan Qurandan və imamlardan (Qurani-natiq) (ə) başqası ola bilməz.

Allah-Təala, bir məsələ üstündə mübahisəyə düşdüyümüz zaman onları həqiqi mizana Allaha (Onun kəlamı olan Qurana) və Peyğəmbərə (s) müraciət edərək və həqiqəti üzə çıxarmağı göstəriş vermişdir:

فإن تنازعتم فى شىء فردّوه إلى الله و رسوله

«.Bir məsələ üzərində mübahisə etsəniz, onu Allahın və rəsulunun kəlamı ilə yoxlayın»[191]

### *QURTULUŞ ZƏMANƏTNAMƏSİ VƏ İSLAM ÜMMƏTİNİN SƏADƏTİ*

Aydın oldu ki, əqidə, hökm və şəri göstərişlərimizin düzlüyünün ülgü və sənədi Peyğəmbərin (s) iki misilsiz yadigarı olan Quran və itrətdir. Sənainin sözü ilə desək:

Bilmək istəyirsən həqiqət budur,
Allah və Rəsulun sözü doğrudur!
Quranda olmayan hər bir söhbəti,
Bil ki, əfsanədir, yalandır qəti.

Biz dinimizi filan film, serial, mətbuat, arif, mədhçi, dərviş və yoqadan deyil, səqəleyndən öyrənirik və onunla ölçürük. Məsumdan, onların təsdiqlədiyi və ya onların yolu ilə addımlayandan başqa heç kəsdən bir şey qəbul etmirik. Qurtuluş və səadət yolunu təkcə bunda görürük.

Rəsulallahın (s) vəd etdiyi kimi, Quran və Əhli-beytdən (ə) ayrılmayınca, azmayacaqsınız:

---

[191] «Nisa» surəsi, ayə: 60.

انّى قد تركت فيكم الثقلين، ما إن تمسكتم بهما لن تضلّوا بعدى...

«Mən sizin aranızda iki qiymətli şey qoyuram, hər nə qədər onlardan yapışsanız, məndən sonra azmayacaqsınız...»

Oğrudan, quldurdan pak deyil yollar,
Şare-şəriətlə nə qorxun olar!
Yolda olmamaqçün ayaqaltı sən,
Ged Rəsula söykən, əhlinə söykən!
Hər növ axtarışı sən daha unut,
Quran və itrətin sorağını tut![192]

Rəsulallahun (s) göstərişlərinə əməl etmək, Quranı, Peyğəmbəri və imamları mizan və ülgü qəbul etmək nəticəsində İslam ümməti təhrif və azğınlıqdan sığortalanır, müsəlmanlar öz dininin həqiqi göstəriş və hökmlərindən ayrılmırlar. Nə zaman bir məsələdə şəkk-şübhə ilə qarşılaşsalar, – mövzumuz barəsində hər hansı bir göstərişin həqiqi və ya saxta olmasında tərəddüd keçirərlərsə – Qurana, Əhli-beytin (ə) kəlam və sünnətinə müraciət etsinlər. Bu zaman məsələnin həqiqətini anlayıb azmaqdan xilas olarlar.

## *ÖZÜNÜZÜ FARUQİ-ƏKBƏRLƏ TUTUŞDURUN*

Pak İmamlar (ə) və məsum rəhbərlər dəfələrlə bu nöqtəni vurğulamışlar. Rəvayətə əsasən, bir gün Rəsulallah (s) öz önündə bir xətt çəkdi və buyurdu:

هذا صراطى

«Bu, mənim yolumdur.»

---

192 «Xavərnamə», İbn Hisamın (vəfatı, 875 (h)) «Məsnəviyyat»ı.

Sonra o xəttin sağ-sol tərəflərinə başqa xətlər çəkdi və buyurdu:

فلا تتبّعوا السبل، على كل سبيل منها شيطان يدعوا إليه

«Bunlar başqalarının yollarıdır. Bu yolların arxasınca getməyin! Bilin ki, bu azdırıcı yolların hər birində Şeytan vardır və sizi dəvət edir.»[193]

Əmirəl-möminin (ə) buyurmuşdur:

نحن النمرقة الوسطى الّتى يلحقى بها التالى و إليها يرجع الغالى

«Biz yollarası sığınacağıq (etidal xəttiyik). Yolda düşüb-qalanlar özlərini ona çatdırsınlar və çox irəli gedənlər ona tərəf qayıtsınlar.»

Nüdbə duasında oxudumuz kimi:

فكانُوا هُمُ السّبيلَ اليكَ

Əhli-beyt (ə) Allaha çatmaq üçün yoldur. Əmirəl-möminin (ə) (mizanül-əmal) əməllərin mizanı kimi tanıdılmışdır. Bir rəvayətdə özünü belə vəsf edir:

انا الفاروُقُ الاكبرُ

«Mən (faruqi-əkbər) (haqq və batili ayıran) ən böyük ayırıcıyam.»[194]

Peyğəmbər (s) də, Əlini (ə) haqq və həqiqətin mehvəri kimi tanıtdırır. Həzrət Əbdül-Əzim Həsəni (ə) öz etiqadlarını təsdiqləmək üçün imam Hadiyə (ə) bidirərdi.

Bütün bunlar, dindarlıq yolunda azğınlıq, ifrat və təfritdən xilas olmaq üçün hər an Quran və Əhli-beytə

---

[193] «Əl-Mizan», c: 7, səh: 385; «Hədisi-minbər», Ayətullah Ustadi, səh: 139; «Əqvalul-əimmə»-dən nəqlən.

[194] «Tərcumətul- Mizanul-hikmə», c: 1, səh: 268, həd: 1044.

(ə) müraciət etmək, məsumun mizanı ilə yol getməyin zəruriliyinə dəlildir. Bu da, təkcə xurafat bəhsində tətbiq olmaqla xülasələnmir.

## *QURAN İSLAMIN MİZANIDIR*

İslamın səhih hökmlərini, həqiqi göstərişlərini və məlumatlarını əldə etməyin yeganə yolu, Quran, Rəsulallahın (s) sünnəti[195] və onun məsum Canişinlərinə müraciət etməkdir.[196] Bunlar (Quran və sünnət), misilsiz dəyərli olub, İslam göstərişlərinin düzgün sənədi kimi tanıdılmışdır. Onlara söykənmək qurtuluş və səadətin yeganə yoludur. Allah-Təala bu məsələyə dəfələrlə işarə edərək buyurmuşdur:

⅄✎👓✂ ☎✂❑⇖➔⓿🙰⮈❒🕮

... ⇖🕮⧫✎❑🡐🙪◆❻◆❒

«Allaha və Allahın Rəsuluna itaət edin!»

---

[195] Müsəlmanların yerinə yetirməli olduqları və Allahın Qurani-kərimdə də əmr etdiyi hökm və göstərişlərini aydınlaşdıran Rəsulallahın (səlləllahu ələyhi və alih) söylədiyi sözlərə və rəftarının (hədis və siyrə) toplusuna «sünnət» deyilir. («Yüz əlli qondarma səhabə», Əllamə Əskəri, c: 1, səh: 15)

[196] Aydındır ki, Quran, Allah dinində hidayətçiliyi təkcə öz öhdəsinə götürə bilməz. «Bizə Allahın kitabı kifayətdir!» (كفانا كتاب الله) şüarı ilə Peyğəmbərin (səlləllahu ələyhi və alih) sünnətini kənara qoymaq olmaz! Bu, Quran və sünnətdə olan qəti dəlillərə görə nəhy olmuşdur. İkincisi, Quranda hökmlər və məsələlər ümumi şəkildə deyilib və sünnətə müraciət etmədən onlara əməl etmək olmaz. Məsələn: Quranda «Namaz qılın!» deyildiyi halda, onun rəkət, rüku və səcdələrinin sayı, qiraət və s. kimi cüziyyət və xüsusiyyətlərindən söhbət açılmayıb. Hətta bəzi qəti məsələlər və İslamın yəqinliklə qəbul olunan füruatı (şaxələri) (meyit qüslu, meyitin üzü qibləyə dəfni, itin nəcisliyi və s.) Quranda deyilməmişdir.

Buna əlavə olaraq Quran bir kitabdır və hər kitabın onu aydınlaşdırana – təfsirçiyə ehtiyacı var. Peyğəmbərin (s) buyurduğuna əsasən, imamlar (ə) Quranın həqiqi təfsirçiləridirlər.

Sünnətə, Peyğəmbər (s) və Əhli-beytin (ə) hədislərinə müraciət etdikdə bəzən təhriflərə, dəyişiklərə uğramış saxta hədislərlə üzləşirik ki, bu da işimizi çətinləşdirir. Bunu da deyək ki, düşmənlər və fürsətaxtaranlar bu iki böyük əmanətə (Quran və sünnət) zərbə vurmaq üçün bütün səylərini qoymuş, heç bir hiylədən çəkinməmişlər. Onlar Quranla mübarizədə heç bir müvəffəqiyyətə nail olmayıblar. Allahın vəd etdiyi kimi,[197] o, təhrif və dəyişikliklərdən amandadır. Bu gün də haqq və batili ayıran yeganə ölçü və mizan nüsxəsidir! Amma sünnətə gəldikdə, düşmənlər, az da olsa, bəzi müvəffəqiyyətə nail olmuşlar. Hədislərə toxunmaqla və saxta hədis düzəltməklə öz yalan, təfrih və iftiralarını işə salıb, bu qiymətli mirasa zərbələr vurmuşlar.[198] Amma din rəhbərləri də onların müqabilində sükut etməmişlər.

### *RƏVAYƏTİN QURANLA TUTUŞDURULMASI*

Əimməyi-əthar (ə) düşmənlərin planını ifşa etmək və Allahın dininin əsl və saf maarifini saxlamaq üçün hikmətli bir tədbirlə meydana varid olub, hədis və rəvayətləri Fürqanla[199] – heç bir vaxt saxtakarlığa

---

♦❷⍃✍︎♑♏♎✐♋✁ ♋♦☪⍃♑◙❑❽♦☼ ♋☀☼⍄☽ ←♊⍃♦⬧♰ ♦♌❑⍈→♑▦◷❑♦❍💻 [197]. ◷←❍⬧♑ ♋☀☼⍄☽◆❐
«Biz Quranı nazil etdik və (qəti olaraq da) biz onun qoruyanıyıq!» («Hicr» surəsi, ayə: 9)

[198] Nümunə üçün: İbn Əbi Əl-Uca ələ keçdikdən sonra ölümündən öncə etiraf etmişdir: «Allahın haramını halal və halalını haram etmək üçün 4000 hədis qondarmışam.» («Dairətul-maarife-bozorge-İslami», c: 2, səh: 688)

[199] «Fürqan» kəlməsi, haqq və batili ayıran bir ölçü mənasındadır. Allah-Təala Quranı bu adla tanıtmışdır.

uğramayan, heç bir batilə özündə yer verməyən Quranla tutuşdurmaq göştərişini verdilər. Müsəlmanları, dəyişikliyə uğramayan əbədi mizana yönəltdilər.

خطب النبی بمنی ، فقال ایها الناس ما جاءکم عنی یوافق کتاب الله فانا قلته و ما جاءکم یخالف کتاب الله فلم اقله

Peyğəmbər (s) Minada buyurdu: «Ey camaat! Mənim tərəfimdən sizə gəlib çatanlar Allah kitabı ilə uyğun olsa, onu mən demişəm; Allah kitabı ilə uyğun olmasa, onu mən deməmişəm.»[200]

İmam Sadiq (ə) buyurur: «Bütün mövzular Allahın kitabı və sünnət ilə tutuşdurulmalıdır; Allah kitab ilə uyğunlaşmayan hədis batildir!»[201]

کل شیء مردود إلی الکتاب و السنة و کل حدیث لا یوافق کتاب الله فهو زخروف

## *ƏQL – XURAFATI AYIRIB ÖLÇƏN MİZAN*

Xurafatı və uydurmaları həqiqət və saf elmdən ayıran digər bir mizan, sağlam əql və təfəkkür qüvvəsidir. O, ilahi nemətlərin ən böyüyü olub, insan və heyvanın ayırıcısıdır.

Şeyx Bəhai nə gözəl demişdir:

---

[200] «Əl-Usul min əl-kafi», c: 1, səh: 16, həd: 205, bölmə: Əxzun bis-sunnə və şəvahidil-kitab.

[201] «Əl-Usul min əl-kafi», c: 1, səh: 16, həd: 203, bölmə: Əxzun bis-sunnə və şəvahidil-kitab.

Ey oğul fikir və ibadət ki, var,
İnək və eşşəkdən bizi ayırar.
Əgər düşüncədən faydalanmasan,
«Kəl-ənam bəl əzəl» onda olarsan.
Din üçün bir saat düşünsən əgər,
Min il ibadətdən üstün ölçülər.

Allah-Təala özünün ən pis mövcudat və məxluqatını belə tanıtdırır:

✍♌☸✏✂◆❐●⑨♑◉☞✂ ▪❸•⌖ ❐♌☎☽ ❿💣❺⏲♑◉☞✂ ★✏☞✂ ⍓⑨☪☎⬉ •◆ ☙▫⇦☎🔔⅄✏☞✂ ⬉☠⬁▤⬅⌛⬂♑◉☞✂ ♦♌❑➔🖬✍☽⬀➔♦③

«Allah yanında ən pis varlıqlar kar, lal və düşünməyən şəxslərdir.»[202]

«Ağıl kimi bir nemətin üstünlüyü üçün Allah-Təalanın yuxarıda buyurduğu kifayət edər.

İslamın əziz Peyğəmbəri (s) ağlın üstünlüyü barəsində buyurur:

مـا قـسـم الله لـلـعـبـا د شـيـئـا ًً افـضـلُ مـن الـعـقـل

«Allahın, bəndələr üçün böldükləri arasında ağıldan üstünü yoxdur.»

Tanrının bəndəyə bəxş etdiyi nemət içrə,
Bir görən göz ilə huşyar könüldən olmaz.

Allah-Təala ağılı insana əta etdiyi zaman ondan istifadə etməyi ona vəzifə etdi. Qiyamət günü Allah-Təalanın hüzurunda cavab verəcəyimiz suallardan biri də budur: «Öz düşüncə və ağlınızın gücündən nə üçün düzgün və kamil şəkildə istifadə etmədiniz?! Filan

---

[202] «Tərcumətul-Mizanul-hikmə», c: 8, səh: 3870, həd: 13335.

məsələni eşitdiyiniz zaman niyə düşüncəsiz, dəlilsiz və faktsız onu qəbul edib əməl etdiniz; yaxud da təkzib və inkar etdiniz?! Nə əqlin, nə də nəqlin təsdiqləmədiyi puç məsələləri niyə qəbul etdiniz?! Allah övliyalarının kəramətini, dua, təvəssül və istiğfarın təsirini, peyğəmbərlərin (ə) heyvanlarla danışmasını, sileyi-rəhmin ruzinin çoxalmasında və ömrün uzanmasında olan təsirini, sehr, cin və gözdəymənin həqiqətini, möminlərə kömək etmək üçün ibdal və ovtadın[203] varlığını, imam Hüseynin (ə) türbətinin şəfavericiliyini və s. əksəriyyətinin Quranda təsdiqləndiyi başqa belə məsələləri hansı dəlilə əsasən inkar etdiniz?! Cəhənnəmdə yananların nalə və fəryadlarının nə üçün ucaldığını Quranda oxumamısınız?!

✍□☪↗✍ ⇗❑⬩♐ ☎✂❑↗♐✍⬩🔔◆❑
✍⧫✌ ⬉✍✍☽⬃➔⧫☼ ⬃❑❑🕮 ⇦⬈⮹☺⬄❍■💧
✍■🕔□⧫⬁🕔❐🕮 ☑❼⚐✗ ✍□☪↗✍
⚐❸❷✆➔❍❍♐✍✂

«Deyirlər: «Əgər biz qulaq assaydıq, yaxud düşünsəydik, Cəhənnəm əhlinin arasında olmazdıq.»[204]

## *ŞƏHİD MÜTƏHHƏRİDƏN HİKMƏTLİ SÖZ*

Şəhid Mütəhhəri özünün «Həmaseyi-Hüseyni» adlı çox maraqlı kitabında imam Hüseyn (ə) müsibətində əza saxlayan heyətlər barəsində bir sıra məsələlərə toxunmuşdur. O, ağılın mizan və ülgüsünü təhrif və azğınlıqla mübarizədə əsas aparıcı qüvvə sayaraq deyir:

---

203 «Moudnamə» (əlifba sırası) lüğətinin 139-cu səhifəsinə (ibdal və ovtad maddəsi)müraciət edin.
204 «İnfal» surəsi, ayə: 22.

«Bir sıra məsələlər vardır ki, (onu dəkr etmək üçün) dərs oxumağa ehtiyac vardır, təkcə dərs oxuyanlar onu dərk edirlər; dərs oxumayanlar onu dərk etməzlər...

Amma bəzi məsələlər də vardır ki, bəşər onları sağlam bir fitrətlə dərk edir. Bunun üçün artıq mədrəsə, kitab və müəllim lazım deyil. Ağıla sahib olmaq kifayətdir! Buna sağlam fitrət lazımdır ki, bu da hamıda vardır. Peyğəmbərin (s) buyurduqları arasında cümlələrin ən fitrisi və püxtələşmişi var:

اِنّما العمال با النيّات و اِنّما لِكلِّ امرءٍ ما نَوىَ

«Əməl, niyyət və məqsədə bağlıdır.»[205]

Əgər məqsədsiz olaraq sizdən yaxşı və ya pis bir iş üz versə; o iş pis olduğu təqdirdə məsuliyyət daşımırsınız; yaxşı olduğu təqdirdə isə mükafat almayacaqsınız.

Əgər bir şəxs gəlib sizə bu şəkildə bir yuxu və ya bir dastan danışsa, məsələn; «Filan şəxs bir zəruri hadisədə, özündən xəbərsizlik aləmində – heç bir kiçicik müsbət məqsəd daşımadan, hətta mənfi məqsədlə – bir iş yerinə yetirdi və bu əməl məqsədsiz olaraq onu əla-illiyyinə apardı və onun bütün günahlarını sildi» deyərsə, onu qəbul etməlisiniz?!

Buna görə kitabmı oxumalıydıq? Ərəbcəmi bilməliydik?... Biz, Allahın verdiyi fitrətdən də istifadə etmirik.»[206]

---

[205] «Biharul-ənvar», c: 70, səh: 225.

[206] «Həmase-ye Hüseyni» c: 1, səh: 93, 94 (İxtisarla)

## *QUŞCIĞAZIN OVÇUYA ÜÇ NƏSİHƏTİ*

Bir nəsihətli hekayəni nəql edirik: Bir kişi bir kiçik quşu ovladı. Quşcığaz dilə gəlib ovçuya belə dedi: «Mən sənin qarnını doyurmaram. Mənim arıq və kiçik bədənim sənin yarım vədəlik yeməyin qədər olmaz. Məni yemək fikrindən daşınsan, bunun qarşılığında sənə üç nəsihət verərəm: Birincisini sənin əlində, ikicisini azad olduqdan sonra ağacda və üçüncüsünü isə dağın başında deyəcəyəm!»

Ovçu qəbul etdi. Quşcığaz birinci nəsihətini ovçunun əllərində dedi: «Əlindən çıxan şey üçün təəssüflənmə və qəm yemə!

Ovçu onu azad etdikdə, quşcığaz uçdu və ağaca qonub dedi: «İkincisi budur ki, eşitdiyin hər bir şeyi ağılla tutuşdur; ağıl onu qəbul edərsə, qəbul et! Əks təqdirdə, qəbul etmə!

Sonra quşcığaz dağa tərəf uçub ucadan dedi: «Bədbəxt! Məni əlindən çıxartdın. Mənim qarnımda iyirmi misqal dürr var idi!» Ovçu qəm və peşmançlığa qərq olvuş halda dedi: «Heç olmasa üçüncü nəsihətini de!» Quşcığaz cavab verdi: «Birinci və ikinci nəsihətlərə əməl etdin ki, üçüncüsünü də deyəm?! Əlindən çıxan üçün qəm yeyirsənsə, bil ki, mənim bütün bədənimin çəkisi iyirmi misqal deyil, iyirmi misqal dürr qarnımda necə ola bilər?!» Düşünmədən bir şeyə necə inanırsan?!

Buna görə də, ağıl insanı həqiqətə tərəf yönəldən ən böyük hidayətçidir, bizi azmaqdan qoruyur.

Ağlından düzgün istifadə etməyən şəxs həqiqi dindar olmaz, özünün şəri vəzifələrinə əməl edə bilməz. Çünki İslam ağıl dinidir.

Müxtəlif rəvayətlərə görə, Allah-Təala insanların ağıl səviyyəsini mizan tutub, ona görə onlara mükafat-savab verir və ya cəzalandırır.[207]

ايّاک أُثيبُ و ايّاک أُعاقِبُ

## *MÖVLƏVİDƏN BİR TƏMSİL: AĞIL İLƏ İY DUYMAQ*

Xurafat, qondarma və düz olmayan mətləbləri düz və səhih mövzulardan ayırmaq barədə Mövləvinin bir gözəl, hikmətli, əlbəttə bir az da pərdəsiz bir təmsili vardır ki, onu nəql edirik:

Mövləvi deyir ki, itin qabağına bir tikə yemək atanda, çarəsiz, onu birbaşa yemir. Əvvəlcə onu iyləyərək öz zövqünə uyğun və zərərli olub-olmamasını yoxlayır.

İnsan da bir məsələni eşitdiyi zaman onu ağlın-düşüncənin gücü ilə iyləməli, ağıl saflığından keçirməli, ağıla və şəriətə uyğun olub-olmamasını müəyyən etməli, «onun həqiqəti varmı və ya yoxmu» deyə düşünməlidir.

İtə bir tikəni atsalar əgər,
Əvvəlcə iyləyər sonradan yeyər.
İt burunla iylər, insan ağılla,
Saf-çürük eyləyər insan
ağılla.[208]

---

[207] «Mizanul-hikmə», c: 8, səh: 3872 (Hədisin davamı var).
[208] «Məsnəvi Mənəvi», səh: 497, İqbal çapı.

Ustad Həsənzadə Amulilin dili ilə desək, «İlahi! Birinin güclü yaddaşı var, digərinin güclü həzm etməyi (yeməyi)! Xoş o şəxsin halına ki, yetgin ağlı var!»

## *«MİN MƏNLİK[209] QAPI» LƏTİFƏSİ*

Burada həqiqətdən çox uzaq olmayan, ona bənzər hadisələrin müşahidə olunduğu bir lətifəyə işarə edək ki, yorğunluğun dəf olması və rəngarəngliyindən əlavə ondan lazımi dərs də alaq: Deyirlər ki, bir şəxs həzrət imam Əlinin (ə) qüvvət və qolunun gücünü vəsf edər, ona mədhlər deyərdi: «Əmirəlmöminin (ə) min mənlik Xeybər[210] qapısını bir əli ilə yerindən götürdü.»

O şəxs, başqa bir məclisdə dedi: «Həzrət Əmir (ə) yeddi yüz mənlik Xeybər qapısını bir əli ilə yerindən götürüb qaldırdı». Ondan soruşdular: «Bu necə olur ki, ikinci məclisdə dediyin əvvəlkindən üç yüz mənlə fərqlənir?» Cavabında dedi: «Birinci məclisdə qapını dördbucaqı ilə demişdim, ikinci məclisdə isə dördbucaqsız!»

İnsan şübhəli və qeyri-adi bir mətləblə üzləşdikdə, öz ağlını qazi seçib o məsələnin ağıl və şəriətlə nə qədər

---

[209] Ölçü vahidi.

[210] Tarixə əsasən, Xeybər qapısını götürmək üçün 40 güclü kişi lazım idi. Həzrət Əli (ə) onu ilahi bir güc ilə yerindən götürdü. (و لقد تكلّف حمله أربعون رجلاً فما أطاقوه) Deyilən etirazların cavabında buyurdu: «ما قلتُ باب خيبر بقوة جسمانية بل بقوة رحمانية; Mən Xeybər qapısını fiziki deyil, rəhmani güclə qaldırdım» («Biharul-ənvar», c: 21, səh: 26, həd: 24; c: 40 , səh: 316; c: 55, səh: 47 və s.)

Bil ki, bunu sən də qüvveyi-Cibril, Xəllaqü Vədudla edibdi didar,
Olmayıb mətbəxdən, yeməkdən hasil. Gücünü, qüvvəni o üzdən alar. («Məsnəvi Mənəvi», İqbal çapı, səh: 347)

uyğun olub-olmamasına baxmalıdır. Eşitdiyi hər bir şeyi, düşünmədən, kor-koranə qəbul və ya inkar etməməlidir. Bu, Quran və əhli-beyt (ə) ardıcılı olan bir müsəlmana yaraşmaz!

Fikir uca, ürək də olarsa huşyar,
Qollar qısadırsa, bunda nə qəm var?

### *HEÇ BİR MÜSİBƏT AĞILSIZLIQ KİMİ DEYİL!*

Xatırlananlardan ağıl-düşüncə tərəzisindən istifadə etməyin əhəmiyyəti və belə rəvayətlərin həqiqəti məlum olur:

من كان عاقلاً كان لَهُ دينٌ

«Ağılı olanın dini də olar.»[211]

لا مصيبَةَ كَعَدَمِ العقل

«Heç bir müsibət ağılsızlıq kimi deyil.»[212]

Belə hədislər olduğu halda yeri vardır ki, şair belə hiddətlə desin:

Haqq yolunu cahil biləcək hardan,
Nə zaman bacarıb keçəcək yoldan!?
Yerində dolanır hey ələk-vələk,
Dəyirman fırladır sanki bir eşşək

Düşüncə insanla höccəti tamamlamış və Buna görə də, xəta, səhv üçün yer qalmamışdır.

Kitabın mövzusunu imam Sadiqdən (ə) bir dua ilə sona çatdırırıq.

اللهمّ ... أرني الحقّ حقاً حتّى اتبعه، و أرني الباطل باطلا حتّى أجتنبه، و لا تجعلهما علّى

[211] «Tərcumətul-Mizanul-hikmə», c: 8, səh: 3876, həd: 13363.
[212] Həmin mənbə, həd: 13383.

متشابهين ... و اهدني لما اختلف فيه من الحقّ باذنك، إنّك تهدى من تشاء إلى صراط مستقيم

«Ey Allah! Haqqı olduğu kimi mənə göstər ki, onun arxasınca gedim. Batili olduğu kimi mənə göstər ki, ondan uzaqlaşım. Haqq və batili mənə seçilməz və anlaşılmaz etmə... həqiqətin müxtəlifləşdiyi yerlərdə izninlə mənə yolu göstər! Həqiqətən də, Sən, istədiyin şəxsi doğru yola yönəldirsən!

Və ma tofiqi illa billah vəl-həmdulillah və səlləllahu əla Muhəmməddin və Alihit-tahirin.

# *İSTİFADƏ OLUNAN MƏNBƏLƏR*


**1.** Qurani-kərim.
**2.** «Əl-Mizan», Əllamə Təbatəbai, Seyid Məhəmməd Musəvinin tərcüməsi, Dəftəre-intişarate-İslamiye-hovzeye-elmiyyeye-Qom;
**3.** «Əl-Qətrə», Əllamə Seyid Əhməd Müstənbit, «Haziq» nəşriyyatı, 1383 (ş), 2-ci çap;
**4.** «Əl-Kutubul-ərbəə», (iki böyük cild), «Ənsariyan» nəşriyyatı, 1378 (ş), 1-ci çap;
**5.** «İstiftate- əz məzhəre-Xomeyni», Dəfrəte-intişarate-İslami, cild: 1, 2, 1378 (ş), 5-ci çap;
**6.** «İstiftate-cədid», Ayətullah Məkarim Şirazi, Mədrəsətul-imam Əli ibn Əbu Talib, 1383 (ş), 1-ci çap;
**7.** «Əl-İrşad», Şeyx Müfid; tərcümə və izah: Seyid Haşim Rəsuli Məhəlatin¸«Dəftəre-fərhənge-İslami» nəşriyyatı, 1383 (ş), 6-cı çap;
**8.** «Əl-Geybə», Məhəmməd ibn İbrahim Əl-Nomani, «Səduq» nəşriyyatı, 1376 (ş), 2-ci çap;
**9.** «Ədəbe-fənaye-muqərriban», Ayətullah Cəvad Amuli, Mərkəze-nəşre-üsəra, cild: 1-2, 1383 (ş), 1-ci çap;
**10.** «Əl-Sirrul-mustətir fil-ulumil-ğəribə», Şeyx Bəhai, Darul-irşad, Beyrut, 1425 (h), 1-ci çap;.
**11.** «Əbu Hüreyrə və saxta hədislər», Əllamə Şərəfuddin; tərcümə və tərtib: Nəcəfəli Mirzai, «Hicrət» nəşriyyatı, 1376 (ş).
**12.** «Amarha pərde bərmidarənd», Əsğər Codai, «Nurus-Səccad» nəşriyyatı, 1383 (ş), 1-ci çap;
**13.** «Əcsade-cavidan», Əli Əkbər Məhdipur, «Haziq» nəşriyyatı, 1377(ş), 1-ci çap;
**14.** «Ərməğane-hind və pak», Ayətullah Əbdus-saleh Ləngərudi, «Lahut» nəşiyyatı, 1381 (ş), 1-ci çap;
**15.** «İlahinamə», Əllamə Həsənzadə Amuli, «Bustane-kitabe-Qom», 1383 (ş), 20-ci çap;
**16.** «Biharul-ənvar», Əllamə Məsclisi, «Kitabfuruşiye-İslamiyyə» nəşriyyatı, 1374 (ş), 3-cü çap;
**17.** «Bərrəsiye-əqaid və ədyan», Ayətullah Mustafa Nurani, «Dəftəre-mərkəziye-məktəbe-Əhli-beyt», 4-cü çap; 1375 (ş).
**18.** «Dini suallara cavab», Ayətullah Musəvi Həmədani, «Dəftəre-intişarate-İslami», c: 1, 1275 (şəmsi), 4-cü çap;
**19.** «Suallar və cavablar, irfan və təsəvvuf»; Məhəmməd Rza Kaşifi, «Dəftəre-nəşre-maarif», 1384 (ş), 1-ci çap;
**20.** «Peyame-Quran», Ayətullah Məkarim Şirazi və həmkarlar; «Darul-kutubul-İslamiyyə» nəşriyyatı, 1381 (ş), 4-cü çap;
**21.** «Öyüdnamə», Fəriddin Əttar Nişaburi, «Əsatir» nəşriyyatı, 1380 (ş), 2-ci çap;
**22.** «On beş deyim», Ustad Şəhid Mütəhhəri, «Sədra» nəşriyyatı, 1381 (ş), 2-ci çap;
**23.** Doktor Məhəmməd Təqi Diyari, «Sörəvərdi» Təhqiqat Nəşriyyat Müəssisəsi, « Pəjuheşi dər bab-e israiliyyat dər təfasir-e Quran», 1379 (şəmsi), 1-ci çap;
**24.** «Təfsiri-numunə», Ayətullah Məkarim Şirazi və həmkarlar, «Darul-kutubul-İslamiyyə» nəşriyyatı, 1380 (ş).

**25.** «Tarixe-təhqiqiye-İslam», Məhəmməd Hadi Yusifi Qərəvi, tərcümə: Hüseyn Əli Ərəbi, «İmam Xomeyni» Təlim-Təhqiqat Müəssisəsi, 1382 (ş), 1-ci çap;
**26.** «Təfsirul-Məcməul-bəyan», Əbu Əli Təbərisi, tərcümə və təhqiq: Əli Kərəmi, «Mədəniyyət nazirliyi və İslam irşadı» nəşriyyatı,1380 (ş).
**27.** «Tərcumətul-həyat», Həkimi qardaşları, «Tehran İslam Mədəniyyəti» nəşriyyatı, 1376 (ş), 2-ci çap;
**28.** «Cameul-məsail», Ayətullah Fazil Lənkəranidən istiftaat, «Mehr» mətbuatı, cild: 1, 2, 1377 (ş), 1-ci çap;
**29.** «Cəbr və ixtiyar», Əllamə Cəfəri, Əllamə Cəfərinin əsərlərinin tərtibi və nəşri, 1379 (ş), 1-ci çap;
**30.** «Müharibə və tale», Seyid İsmayıl Şakir, «Əimmə» nəşriyyatı, 1382 (ş), 1-ci çap;
**31.** «Cavanlar – suallar və cavablar», Əhməd Loğmani, «Beheşte-bineş» nəşriyyatı, cild: 1, 2, 1383 (ş), 2-ci çap;
**32.** «Nə üçün?», (110 sual və cavab) Məhəmməd Məhəmmədi İştihardi, «Moude-İslam» nəriyyatı, 1381 (ş), 1-ci çap;
**33.** «Həmaseye-Hüseyni», Şəhid Mütəhhəri, «Sədra» nəriyyatı, 1368 (ş), 14-cü çap;
**34.** «Hədise-minbər», Hacı Şeyx Rza Ustadi, «Ərzeşmənd» nəşriyyatı, 1384 (ş), 1-ci çap;
**35.** «Xeyrul-əsər dər rədde-cəbr və qədər», Əllamə Həsənzadə Amuli, Dəftəre-təbliğate-İslami, Qum, 1384 (ş), 1-ci çap;
**36.** «İslamın Günəşi necə parladı?», Məhəmməd Baqir elmul-huda, «Miqat» nəşriyyatı, cild: 1, 2, 1379 (ş), 1-ci çap;
**37.** «Dairətul-maarife-təşəyyo», «Şəhid Səid Mühebbi» nəşriyyatı, Tehran , cild: 7, 1378 (ş);
**38.** «Böyüklərin hüzurunda», Ustad Möhsün Qərəviyan, «Yəmin» nəşriyyatı, 1382 (ş), 3-cü çap;
**39.** «Əllamə Təbatəbainin hüzurunda», Məhəmməd Hüseyn Rəxşad, «Nəhavəndi» nəşriyyatı, 1384 (ş), 3-cü çap;
**40.** «Dadgostəriye-cəhan», Ayətullah Əmini, «Şəfəq» nəşriyyatı, 1376 (ş), 16-cı çap;
**41.** «Aşiqlərin görüşü», «Tərcumətul-Səhifeye-səccadiyyə», Hüseyn Ənsariyan, peyame-azadi, 1371 (ş), 1-ci çap;
**42.** «Xoşbəxtiyin sirri və evlənmənin ecazı», Seyid Məhəmməd Şəfii Mazandarani, «Ətragine-Qom» nəşriyyatı, 1384 (ş), 3-cü çap;
**43.** «Eşq yolu, İmamın öz gəlininə yazdığı irfani namə», İmam Xomeyninin əsərlərinin Nəşri Mərkəzi;
**44.** «Əcvəbətul-istiffatiyyə risaləsi», Ayətullah Xameneyi, «Beynəlmiləlul-huda» nəşriyyatı, 1384 (ş), 8-ci çap;
**45.** «Səfinətul-bihar», Hacı Şeyx Abbas Qumi, «Darul-usvə» nəşriyyarı, 8 cild, 1416 (h), 2-ci çap;
**46.** «Seyri dər sireye-əimmeye-əthar», Ustad Şəhid Murtəza Mütəhhəri, «Sədra» nəşriyyatı, 1375 (ş), 15-ci çap;
**47.** «Şərhul-Nəhcul-bəlağə», İbn Əbil-Hədid, Darul-cəbəl, Beyrut çapı, 1407 (h);
**48.** İmam Səccad (ə), «Səhifeye-səccadiyyə», tərcümə: Məhəmməd İştihardi, «Moude-İslam» nəşriyyatı, 1382 (ş), 1-ci çap;
**49.** «Şərhe-dəftəre-del», Əllamə Həsənzadə Amuli, Ustad Səmədi Amuli, «Nubuğ» nəşriyyatı, cild: 1, 2, 1379 (ş), 1-ci çap;

**50.** Dindən uzaqlaşmanın səbəbləri və kökləri, Əli Şükuhi, Qum, Bustane-kitab, 1384 (ş), 1-ci çap;
**51.** «İnkişafın amilləri», Seyid Həsən Əbtəhi, «Bətəha» nəşriyyatı, 1376 (ş), 2-ci çap;
**52.** «İslam irfanı», Əllamə Cəfəri, Əllamə Cəfərinin əsərlərinin tərtibi və nəşri müəssisəsi, 1378 (ş), 1-ci çap;
**53.** «İmam Xomeyni əsri», Mirəhməd Rza Hacəti, Bustane-kitab, 1381 (ş), 1-ci çap;
**54.** «İslam tarixindən zirvələr», Ustad Cəfəri Sübhani, «Məşər» nəşriyyatı, 1377 (ş), 10-cu çap;
**55.** «Quran, dünyanın 114 aliminin nəzərində», Məhəmməd Məhdi Əliqulu, «Sina» nəşriyyatı, 1375 (ş), 1-ci çap;
**56.** «Qessehaye-Quran be qələme-rəvan», Məhəmməd Məhəmmədi İştihardi, «Nəbəvi» nəşriyyatı, 1382 (ş), 6-cı çap;
**57.** «Şeyx Bəhainin kəşkülü», tərcümə: Kərim Feyzi, «Təhzib» nəşriyyatı, 1383 (ş), 1-ci çap;
**58.** «Təbatəbai Təbrizinin kəşkülü», Doktor Əqiqi Bəxşayeşi, «Nəvide-İslam» nəşriyyatı, 1384 (ş), 1-ci çap;
**59.** «Şəms Təbrizinin külliyyatı», Cəlaləddin Məhəmməd Mövləvi, düzəliş: Bədiüz-zaman Füruzanfər, «Peyman» nəşriyyatı, Tehran, cild: 1, 2, 1381 (ş), 4-cü çap;
**60.** «Meracus-səadə», Molla Əhməd Nəraqi, «Kəşful-ğita» nəşriyyatı, 1382 (ş), 1-ci çap;
**61.** «Moudşünaslıq və şübhələrə cavab», Əli Əsğər Rizvani, «Məscide-müqəddəs» nəşriyyatı, Cəmkəran, 1384 (ş), 1-ci çap;
**62.** «Qum kəlam məktəbi», ustad Əhməd Abidi, «Zair» nəşriyyatı, (Asitaneye-müqəddəse-Qom), 1384 (ş), 1-ci çap;
**63.** «Moudnamə, fərhənge-əlifbaiye-məhdəviyyət», Müctəba Tunei, «Mirase-mandegar» nəşriyyatı, 1384 (ş), 1-ci çap;
**64.** «Məcməul-Bəhrəyn», Fəxruddin Əl-Tərihi, «Fərhənge-İslami» nəşriyyatı, cild: 1, 2, 1378 (ş), 3-cü çap;
**65.** «Mizanul-hikmə», Məhəmməd Reyşəhri, «Darul-hədis» nəşriyyatı, 1384 (ş), 5-ci çap;
**66.** «Məbaniye-xodaşenasi», Məhəmməd Reyşəhri, «Darul-hədis» nəşriyyatı, 1375 (ş), 1-ci çap;
**67.** «Məaniul-əxbar», Şeyx Səduq, «Darul-kutubul-İslamiyyə», cild: 1, 2, 1377 (ş), 2-ci çap;
**68.** «Yeni məsələlər alim və məraceyi-təqlidin baxışında», Seyid Möhsün Mahmudi, «Sahibəz-zəman (ə)» Elm-Mədəniyyət nəşriyyatı, 1383 (ş), 3-cü çap;
**69.** «Muntəhaul-əmal», Hacı Şeyx Abbas Qumi, «Mominine-Qom» nəşriyyatı, cild: 1, 2, 1379 (ş), 1-ci çap;
**70.** «Muqəddimeye-bər mələl və nəhl», Ayətullah Rza Ustadi, Dəftəre-intişarate-İslami, 1380 (ş), 2-ci çap;
**71.** «Məsnəvi Mənəvi», Cəlaləddin Məhəmməd Movləvi, «İqbal» nəşriyyatı, 1377 (ş), 2-ci çap;
**72.** «Məcmueyi-asar», Ustad Şəhid Mütəhhəri, «Sədra» nəşriyyatı, cild: 3, 1378 (ş), 7-ci çap;
**73.** Mubəlleğan jurnalı, № 75;
**74.** Zair jurnalı, № 79;
**75.** Meşkah jurnalı, № 31, yay, 1370 (ş);
**76.** «Mahnameye-pəyame-zən», № 76,146, ordubeheşt, 1373 (ş);

**77.** «Dinin dirilməsində əimmənin rolu», Əllamə Əskəri, Məcməu elmiyyeye-İslamiyyə, daneşkədeye-usulid-din, 5-ci çap;
**78.** «Neşan əz bineşanha», Əli Miqdadi İsfahani, «Cumhuri» nəşriyyatı, 1378 (ş), 3-cü çap;
**79.** «Çörək və kitab», Ustad Məhəmməd Rza Həkimi, «Dəlile-ma» nəşriyyatı, 1384 (ş), 1-ci çap;
**80.** «Nəscmus-saqib», Mirza Həsən Təbərisi Huri, Məscide-müqəddəse-Cəmkəran, 1378 (ş), 3-cü çap;
**81.** «Əməli əxlaqda başlanğıc nöqtələri», Ayətullah Məhdəvi Kuni, Dəftəre-nəşre-fərhənge-İslami, 1384 (ş), 4-cü çap;
**82.** «Ailədə dinin rolu», Ayətullah Eehsanbəxş, «Muəllefe-Rəşt» nəşriyyatı, cild: 1, 1384 (ş), 2-ci çap;
**83.** «Vəsailuş-şiə, Şeyx Hürr Hamili, Beyrut, 30 cildli, 1424 (hicri), 2-ci çap;
**84.** «Ustad Şəhid Mütəhhərinin yaddaşları (qeydləri)», Mərkəz-nəşre-Sədra, cild: 1-8.
**85.** «Yüz əlli qondarma səhabə», Əllamə Seyid Murtəza Əskəri, «Daneşkədeye-usule-din» nəşriyyatı, 1378 (ş), 3-cü çap.